AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Jurnal 1970-ci ildən nəşr olunur.

2015, № 3 (212)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

(elmi-metodik jurnal)

3
2015

## REDAKSİYA HEYƏTİ

### Baş redaktor: prof.Y.Ş.Kərimov

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri;* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri;* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri;* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor;* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, professor;* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru;* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun baş elmi məsləhətçisi, pedaqoji elmlər doktoru, professor;* |
| **Ramiz Əliyev** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor;* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor;* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqoji elmlər doktoru, professo ;* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent;* |
| **Zemfira Əsədova** | *Bakı şəhəri, Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri;* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini;* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;* |
| **Zemfira Ağayeva** | *Bakı şəhəri, Nərimanov rayonu 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;* |
| **Xalidə Talıbova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru.* |

Yığılmağa verilmiş 12.06.2015. Çapa imzalanmış 03.08.2015.
Kağız formatı 60x84 1/8. Şərti çap vərəqi 9.0.
Şifariş № 10. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 96.
Tel. 493-84-41, mob. (050) 520-50-11.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov , 113.

# MÜNDƏRİCAT

**Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı** ........ 4

## *Ümumpedaqoji problemlər*

**Kərimov Y.Ş.** Dərslik təlimin kompasıdır ........ 6
**Rüstəmov F.** İbtidai təhsilin məzmununun təkmilləşdirilməsi ........ 12
**Daşdəmirova S.** Ekoloji siyasət və ətraf mühitin idarə edilməsi ........ 17
**Baxışova Ş.** Uşaqların inkişafında valideynlərlə əlbir işin yolları ........ 20
**Kərimov V.** Tələbə şəxsiyyətinin formalaşması müəllim hazırlığının mühüm amili kimi ........ 24

## *Məktəbəqədər tərbiyə*

**Ağayeva Z.** Təlim fəaliyyətinin təşkilində keyfiyyət meyarları ........ 28
**Həmidova X.** Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi üçün rəhbər pedaqoji kadrların hazırlanması ........ 31
**Məhərrəmova E.** Məktəbəqədər yaclə ucaqlarən ekoloji tərbiyəsi ........ 34
**Musayeva S.** Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların məkan və zaman münasibətləri ilə tanışlığı prosesində əyani modelləşdirmə qabiliyyətinin formalaşması ........ 38
Məşhurlar haqqında ........ 41
**Əhmədova A.** Məktəbəqədər təhsil məəssisələri rəhbərlərinin idarəetmə mədəniyyəti ........ 42
Hikmətli sözlər ........ 44

## *Fənlərin tədrisi və qabaqcıl təcrübə*

**Axundova S.** "Həyat bilgisi" fənni üzrə oyun xarakterli məşğələlərdə fənlərarası əlaqənin yaradılması imkanları ........ 45
**Məmmədov T.** Məsələ həllində çətinliklərin aradan qaldırılması yolları ........ 48
**Əlizadə X.** II sinifdə "Təqvim" mövzusunun interaktiv yolla tədrisi ........ 51
**İsgəndərova T.** Şagirdlərin nitq mədəniyyətinin inkişafında ünsiyyətin rolu ........ 59

## *Psixologiya və defektologiya*

**Süleymanov F.** İnklüziv təhsilin yaranması və inkişafı ........ 61
**Hüseynova V.** Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə inteqrasiyası ........ 64
Mütəfəkkirlər demişlər ........ 66

## *Tərbiyə məsələləri*

**Əliyeva N.** Məktəblilərin vətənpərvərlik tərbiyəsi dövlətin gənclər siyasətinin əsas istiqamətlərindən biridir ........ 67

## *Üzeyir Hacıbəyov – 130*

**Məmmədova K.** Üzeyir ömrünün akkordları ........ 70

## *Yeni nəşrlər*

**Əliyeva M.** Folklorşünas şair ........ 73

# Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2015-ci ildə Azərbaycan milli mətbuatının yaranmasının 140 ili tamam olur.

XIX əsrin ortalarında ölkəmizdə gedən siyasi, iqtisadi və mədəni proseslər maarifçilik hərəkatının inkişafına, ictimai fikrin yeni ifadə vasitəsi olan mətbuatın meydana gəlməsinə şərait yaratmışdır. 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır.

Ötən yüzilliyin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən, senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olmuş, ölkə əhalisi arasında internet yayımı 75 faizə çatmış, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşmışdır. 2008-ci ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq milli mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, sosial təminatının yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Qlobal informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial olmalı, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutmalıdırlar. Mətbuatımız ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

Azərbaycan milli mətbuatının ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı yerini, vətəndaş cəmiyyətinin inkişafı, milli mənəvi dəyərlərin təbliği, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsindəki rolunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 140 illik yubileyi Azərbaycan Respublikasında geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 2 iyun 2015-ci il.

## İYUL AYININ 22-Sİ AZƏRBAYCANDA

## MİLLİ MƏTBUAT VƏ JURNALİSTİKA

## GÜNÜDÜR!

# DƏRSLİK TƏLİMİN KOMPASIDIR.

**Yəhya Kərimov,**
pedaqoji elmlər doktoru, professor

Yaxşı dərslik müəllimin əlində elə bir qüdrətli silahdır ki, o, həmin silahla şagirdlərə proqrama uyğun bilik, bacarıq və vərdişlər verir, onları tərbiyələndirir və inkişaf etdirir. Təhsilin mühüm komponenti olan dərslik milli mədəniyyətimizin mənbəyi, xalqımızın mənəvi sərvəti olmaqla nəsillərin gözlərini həyata açır, onları pillə-pillə elmin zirvələrinə doğru aparır. Ona görə də dərslik həmişə təhsilin aparıcı qüvvələrindən biri, müəllim və şagirdlərin fəaliyyətini istiqamətləndirən biliklər xəzinəsi, enerji daşıyıcısı kimi diqqəti cəlb etmişdir. Müasir dövrdə Təhsil İslahatı Proqramında dərsliklərin tərtibi keyfiyyətinin yüksəldilməsi problemi ön plana çəkilmişdir. İndi təlimin yeni texnologiyalar əsasında təşkili, müəllim və şagirdlərin fəaliyyətlərinin xarakterinin dəyişməsi dərsliklərin yaradılmasına yeni tələblər verir. Bu gün dərslik konsepsiyası həmin sahəni istiqamətləndirən prinsiplərin məcmusu olmaqla, onların tərtibində tələsikliyin, subyektivizmin, resept xarakterli məlumatların verilməsinin qarşısını alır, elmin həyati məna kəsb edən nəzəri məsələlərinin təcrübədə tətbiqinə, dövlətin, məktəbin sifarişini yerinə yetirməyə, təhsilin mərhələlərini, şagirdlərin yaş səviyyələrini nəzərə almaqla sistemləşdirilmiş materialları auditoriyaya ötürməyə xidmət edir.

Dərslik öz məzmunu, quruluşu, metodik aparaturası ilə müəllimə yüksək tələblər verir. Müəllim dərslikdən «yüksəkdə» durmaq üçün daim öz üzərində işləməli, öyrənməlidir.

Dərslik, adətən, Təhsil Nazirliyinin göstərişi ilə hazırlanır. Müstəqillik şəraitində nəşriyyatlar da bu işdə iştirak edə, onun tərtibi üçün tanınmış mütəxəssislərə sifariş verə bilərlər.

Kimlər yaxşı dərslik yarada bilərlər? Dərslik yazanın fənn üzrə nəzəri biliyi ilə yanaşı, didaktik, psixoloji, metodik hazırlığı, müəllimlik təcrübəsi, dünyagörüşü də olmalıdır. Bu tələblərə uyğun olaraq dərsliyin tərtibinə yaxşı nəzəriyyəçi alim, həmin sahədə tədqiqatçı-didakt, metodist, psixoloq, qabaqcıl müəllim cəlb edilməlidir. Təcrübə göstərir ki, çox vaxt ensiklopedik biliyə malik olan alim, yaxud bacarıqlı pedaqoq, psixoloq, müəllim təklikdə dərslik yaza bilmir. Yaxşı mütəxəssislərdən ibarət müəlliflər kollektivinin əməyi şagirdlərə nələri, nə üçün, necə öyrətməyi düzgün müəyyənləşdirir. Onların bu məsələləri yaxşı bilmələri didaktik prinsipləri, şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaqla tədris materiallarında seçim aparmalarını təmin edir.

Təhsil prosesi **alternativ dərsliklərin** yaradılması tələbini irəli sürür. Bu zərurət təhsil sistemində yeni texnologiyaların, hər fənn üzrə özünəməxsus prinsip, forma, vasitə və metodların olması, müxtəlif tip məktəblərin fəaliyyəti ilə bağlıdır.

Azərbaycan çoxmillətli dövlətdir. Ölkəmizdə ləzgi, avar, saxur, talış, tat, udin, kürd, ingiloy və başqa azsaylı xalqların yaşamaları dərsliklərə xüsusi tələblərin verilməsi zərurətini yaradır. Bu tələblərin Azərbaycan dili dərslikləri ilə əlaqədar olması diqqəti daha çox çəkir. Həmin xalqların balalarının Azərbaycan dilini yaxşı bilməmələri, xüsusilə tələffüz normalarına əməl etməmələri, onların dillərinin tədrisinə Azərbaycan dili dərslərindən həftədə 2 saat ayrılması yeni dil dərsliklərinin tərtibini tələb edir.

Təlim rus və gürcü dillərində olan məktəblərdə dərsliklərin bir qisminin Rusiya və Gürcüstandan alınması təlimin təşkilində müxtəlifliyə yol verilməsi ilə nəticələnir.

Bundan başqa, ölkəmizdə xüsusi məktəblər də fəaliyyət göstərir. Avropa təhsilinin təsiri ilə yaranmış özəl orta məktəblərin proqramlarında fərq var. Az da olsa, xüsusi qayğıya ehtiyacı olan uşaqlar вəзи məktəblər, belə uşaqların xeyli sayda iştirak etdikləri məktəblərdə dərsliklərin diferensiallaşdırılması tələb olunur. Bəzi fənlər istisna olmaqla

zəifeşidən, kar, zəifgörən, kor, nitqi zəif, lal, əqli cəhətdən geridə qalan uşaqlar da hamıya xas olan dərsliklərdən istifadə edirlər. Dərslik tərtib olunarkən bunlar nəzərə alınmalıdır.

Alternativ dərslik anlayışı kontingenti normal uşaqlar olan məktəblərə də aiddir. Xarici ölkələrdə eyni sinif üçün eyni fənn üzrə 4, hətta 6 dərslikdən istifadə edilməsinin şahidi olmuşam. Belə şəraitdə müəllim məktəbin mərkəzdə, iri şəhərlərdə, rayon mərkəzində, uzaq kənddə yerləşməsindən, şagirdlərin səviyyələrindən, özünün hazırlığından, valideynlərin necə maariflənmələrindən, məktəbin təchizatından asılı olaraq istədiyi dərsliyi seçir. Bunlardan asılı olaraq, eyni məktəbin paralel siniflərindən hər birində müxtəlif dərsliklərdən istifadə edilir. Təhsil standartlarının, proqramın tələblərinin həddən artıq azaldılmasını, kəskin fərqlərə yol verilməməsini nəzərə almaqla tərtib olunmuş alternativ dərsliklərdən istifadə olunması dövrün tələbidir.

Dərslik müəllifi olmaq istəyənlər onun tərtibi prinsiplərini bilməlidirlər. Dərsliyin tərtibi prinsipləri təhsil prinsiplərindən qaynaqlanır. Bu prinsiplər haqqında yığcam məlumata nəzər salaq.

• **Proqrama uyğunluq prinsipi.** Proqrama uyğunluq proqramda nəzərdə tutulmuş tematikanın dərslikdə əhatə olunmasını tələb edir. Bu, təbii hal olmaqla onun yüklənməsinin qarşısını alır. Zəruri hallarda müəlliflər proqramda əhatə olunmamış, lakin elmi cəhətdən əsaslandırılmış materialı dərsliyə daxil edə bilərlər.

• **İdeyalılıq prinsipi.** Dərslik imkan daxilində yerli-yersiz siyasi problemlərin əsiri olmamalıdır. Bununla belə, dövlət ideologiyasının elə sahələri var ki, humanitar məzmunlu dərsliklərdə onları nəzərə almaq lazımdır. Müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində görülən işlər, dövlətimizin daxili və xarici siyasəti, idealımız doğma Vətən, vətənimizin keçmişi, bu günü və sabahı, adət-ənənələri, onun təbii sərvətləri, dili, dini görüşləri, insanların rifahı, milli mənafeyinin qorunub saxlanması dərsliklərdə öz əksini tapmalıdır.

Dərslik şagirdlərdə vətənpərvərlik, əqidəlilik, iradəlilik, dönməzlik, obyektivlik, sağlam dünyagörüşü kimi keyfiyyətlər formalaşdırmalıdır.

• **Elmilik prinsipi.** Dərslikdə elmi idrak metoduna əməl edilməlidir. Dərslikdə bütövlükdə elmlərin məzmunu deyil, şagirdlərin yaşlarına uyğun olaraq, onların əsasları əhatə olunmalıdır. Sadə biliklərin köməyi ilə şagirdlər axtarışa, yaradıcı fəaliyyətə yönəldilməli, onların təfəkkürləri inkişaf etdirilməlidir. Dərsliklər şagirdlərə «kəşf etmək», onun nəticələrindən məmnun olmaq imkanı verməlidir. Nəzəri materialların öyrənilməsi praktik məsələlərin şüurlu yerinə yetirilməsinə zəmin yaratmalıdır.

Materialın asanlığını, yüngüllüyünü təmin etmək məqsədilə müəlliflər elmin təhrif olunmasına yol verməməlidirlər. Faktlar elə təqdim edilməlidir ki, eyni anlayışın mahiyyəti haqqında ibtidai sinif şagirdi, tələbə, müəllim və alimin təsəvvürü təxminən eyni olsun. Elmilik prinsipinə əməl olunması təsadüflərin qarşısını alır.

• **Sistemlilik və ardıcıllıq prinsipi.** Dərslikdə sistemliliyin gözlənməsi onun elmiliyini təmin edir. Dərslikdə materialı ardıcıl vermədən sistemliliyi təmin etmək mümkün deyil. Bəzən elmi sistemin gözlənməsi xatirinə təhsil sistemində təkrarlara yol vermək zərurəti meydana çıxır. Azərbaycan dilindən nitq hissələri öyrədilərkən istər ibtidai, istərsə də yuxarı siniflərdə isim, sifət, say, əvəzlik, fel, zərf, qoşma, bağlayıcı sıralanması buna təxminən misal ola bilər.

• **Varislik prinsipi.** Eyni fənn üzrə dərsliklər arasında sinifdən-sinfə təbii keçidin gözlənməsi varisliyi təmin edir. Varislik materialın yuxarı sinifdə daha mükəmməl tədrisinə zəmin yaradır. Varislik perspektivliyi tələb edir. Dərslik müəllifləri həmin dərslikdən sonra hansı məzmunda dərsliyin olacağını, şagirdləri «hansı yükün altına girməyə» hazırladığını nəzərə almalıdırlar. Bu məqsədlə onlar yuxarı siniflər üçün proqram və dərsliyn məzmunu ilə tanış olmalıdırlar.

• **Tematiklik prinsipi.** Şagirdlərə sistemli biliklər vermək məqsədilə tematiklik prinsipinə əməl olunmalıdır. Vaxtilə ana dili dərsliklərində fəsli-tematik prinsipə əsasən ilin fəsilləri

və bəzi mövzular əhatə olunardı. İndi məsləhət görülür ki, ibtidai siniflər üçün Azərbaycan dili dərsliklərində proqram materialları təxminən bu bölmələr üzrə təqdim edilsin: «Ailə», «Məktəb», «Vətən», «Bayramlar və tarixi günlər», «Yaxşı nədir, pis nədir?» və s.

• **Müvafiqlik prinsipi.** Müvafiqlik dərsliyə daxil edilən materialların şagirdlərin güclərinə uyğun olmasını nəzərdə tutur. Bu prinsip şagirdlərin yaşlarını, hazırlıq səviyyələrini, maraqlarını nəzərə almağı, onların psixologiyasını, daxili aləmlərini bilməyi tələb edir. Dərslikdəki materialların ağırlığı nə qədər zərərlidirsə, yüngüllüyü daha çox zərərlidir. Təlim yükünün yüngüllüyü şagirdləri arxayınlaşdırır, onlarda hər şeyi bildikləri qənaəti yaradır, səy göstərməyin, çalışmağın qarşısını alır, yaxşı oxuyan, istedadlı uşaqların inkişafını ləngidir.

• **Tərbiyəedicilik prinsipi.** Dərslik şəxsiyyətin tərbiyəsinin başlıca xəttini formalaşdırmalı, şagirdlərdə vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, kollektivçilik, millilik, humanizm, əməksevərlik, təbiətə qayğıkeş münasibət və s. keyfiyyətlərin inkişafına xidmət etməlidir. Bu keyfiyyətlərin hər birini açmaq, daha ətraflı təqdim etmək mümkündür. Dövlətçilik dövlətimizin atributlarını (bayraq, gerb və himn), dövlət bayramlarını, tarixi günləri, milli bayramları nəzərdə tutur.

Dərslikdə insanpərvərliyin gözlənməsi ilk növbədə ata-anaya, ailə üzvlərinə, qohumlara məhəbbətlə yanaşmaq, yaşlıların qulluğunda dayanmaq, kiçiklərin qayğısına qalmaq, ümumiyyətlə, humanizm əhatə olunur.

Uşaqların tərbiyəsində şifahi xalq ədəbiyyatından istifadə etmək, gözəl incilərdən ibrətamiz olanları seçib, üzərində iş aparmaq böyük əhəmiyyət kəsb edir.

Dərslikdə Beynəlxalq Uşaq Hüquqları Konvensiyasına istinad olunması da tərbiyəedicilik prinsipi baxımından qiymətlidir.

• **İnkişafetdiricilik prinsipi.** Təlim şagirdlərə bilik, bacarıq və vərdişlər vermək, onları tərbiyələndirməklə yanaşı, həm də hər bir fərdin idrak qabiliyyətlərini, axtarıcılıq səylərini, yaradıcılıq meyillərini inkişaf etdirir. Dərslik şagirdlərin elmi-nəzəri təfəkkürünü inkişaf etdirməli, onları dolğun fəaliyyətə yönəltməlidir. Tədris materialı elə təqdim olunmalıdır ki, şagirdləri daim düşündürsün, onlara nəticə çıxarmağın, müstəqil qərar qəbul etməyin yollarını öyrətsin. Dərslikdəki mətndənkənar elementlər şagirdləri anlayış və qanunları sistemlə verməyə, müqayisə, təhlil-tərkib prosesindən istifadəyə, mücərrədləşdirmə, ümumiləşdirmə aparmağa, nəticəyə gəlməyə təhrik etməlidir.

• **Əyanilik prinsipi.** Dərslikdəki məzmunun şüurlu mənimsənilməsi, möhkəm yadda qalması üçün əyanilikdən istifadə olunması zəruridir. Əyanilik şagirdlərdə marağı, diqqəti, müşahidəçiliyi tərbiyə edir. Əyanilik obrazlı olmaqla yanaşı, sənədli (texniki-metodik, dekorativ, xəritə, sxem, diaqram, cədvəl, foto şəklində), həm də imkan daxilində rəngli verilməlidir.

• **İnteqrativlik prinsipi.** İnteqrasiya fənn daxilində hissələrin tamda birləşdirilməsini tələb edir. Tədris prosesində bir fənnin başqası ilə sıx əlaqələri nəzərə çarpır. Belə hallarda fənlərarası əlaqələri gücləndirmək zərurəti meydana çıxır. Ona görə də müəlliflər inteqrativ biliklərə malik olmalıdırlar. İnteqrasiya şagirdlərin dünyagörüşünü inkişaf etdirir, onları belə əlaqələri, bütövlüyü axtarmağa təhrik edir.

• **Həyatla əlaqə prinsipi.** Həyat idrak fəaliyyətinin mənbəyidir. Dərslik həmin mənbədən qidalanmalı və onun dərk olunmasına xidmət etməlidir. O, şagirdləri həyatdan biliklərə, biliklərdən həyata doğru aparmalıdır. Şagird dərsdə öyrəndiklərinin həyati əhəmiyyətini dərk etməli, yiyələndiyi nəzəri məlumatı gündəlik təlim prosesində, gələcəkdə istehsalatın müxtəlif sahələrində tətbiq etməyə hazır olmalıdır.

**Dərsliyin dili.** Dərsliyin dili dəqiq, məntiqi, ifadəli, asan, rəvan, anlaşıqlı, obrazlı, təsirli olmalıdır. Dərsliyin dilinin sadəliyi onun bəsitliyinə gətirib çıxarmamalıdır. Dərslikdəki alınma sözlərin şərhinə, xüsusilə başqa dillərdən tərcümə olunmuş materialların dilinə diqqətlə yanaşmaq lazımdır.

**Dərsliyin quruluşu necə olmalıdır?** Hər bir fənn üzrə dərsliyin xarakteri onun tərtibi texnologiyasında öz əksini tapmalıdır. Dərslikdə müvafiq məzmun əhatə olunmaqla bu məzmunun asanlıqla mənimsənilməsini təmin edən metodik aparatura gözlənməlidir. İstər klassik, istərsə də müasir yazıçılara müraciət edərkən şagirdlərin onlarla tanış olmaları mühüm şərtdir. Azərbaycan dili dərsliklərində yaradıcılığından istifadə olunan yazıçı, şair haqqında yığcam məlumat, həmçinin şifahi xalq ədəbiyyatı nümunələri (tapmacalar, yanıltmaclar, bayatılar, laylalar, nəsihətlər, holavarlar və s.) verilməlidir.

Nəsr əsərləri olduğu kimi verilməməli, həcmləri yığcamlaşdırılmalı, dili şagirdlərin səviyyələrinə uyğunlaşdırılmalıdır. Ədəbi materialların altında müəlliflərin adları və familiyaları qeyd olunmalıdır.

Dərslikdə məzmunu zənginləşdirən rebuslar, testlər, şagirdləri axtarışlara sövq edən, düşündürən suallar və tapşırıqlar verilməlidir. Elə tapşırıqlar verilməlidir ki, qazanılmış biliklərin möhkəmliyi təmin edilsin. Tapşırıqlara, çalışmalara əsasən əvvəllər mənimsənilmişlər təkrarlanmalı, yaddan çıxanlar bərpa edilməli, hafizədə möhkəmləndirilməlidir. Bunun üçün əvvəl öyrənilənlər yeniləri ilə əlaqələndirilməlidir.

Biliklərin möhkəmliyini təmin edən ən mühüm məşğələlərdən biri ümumiləşdirici dərslərdir. Bunu nəzərə alaraq dərslikdə hər bir bölmədən (böyük mövzudan) sonra ümumiləşdirici suallar verilməlidir.

Bəzən müəlliflər elə mövzularla qarşılaşırlar ki, onlar haqqında klassiklər, müasir alimlər fikir söyləməmişlər. Belə mövzuları müəlliflər yazmalı olurlar.

Ölkəmizdə aparılan quruculuq işləri, xalq təsərrüfatı və sənaye yenilikləri, xarici təhsilin qabaqcıl nümunələri müəllifləri fəal işə qoşmalıdır.

İbtidai məktəb dərsliklərində nitq etiketləri nəzərə alınmalı, onlar «Nəzakətli sözlər», «Yadda saxla!», «Bunları bilirsinizmi?» başlıqları altında verilməlidir.

**Dərsliyin poliqrafik icrası.** Dərsliyin məzmununun şüurlu mənimsənilməsi onun poliqrafiyasından da çox asılıdır. Bəzi poliqrafik tələbləri nəzərdən keçirək: Dərsliyin üz qabığında onun məzmununa uyğun nə isə əks olunmalıdır. Dərsliyin əvvəlində dövlət rəmzləri verilməlidir. Dərsliyin şriftləri (keql) şagirdlərin yaşlarına uyğun olmalıdır. Mühüm sözlər, ifadələr qara şriftlə və ya kursivlə fərqləndirilməlidir. Dərslikdə başlıqlar iri şriftlərlə verilməlidir. Qaydalar, qanunlar, təriflər müəyyən fon üzərində, yaxud çərçivədə, nisbətən iri şriftlərlə, şəkilaltı sözlər xırda şriftlərlə fərqləndirilməlidir.

Dərsliyin bədii tərtibatı məzmunun başa düşülməsinə xidmət etməlidir. «Gözəllik» xatirinə bəzək-düzəyə, lazımsız naxışlara yer verilməməlidir. Belə hallar şagirdlərin diqqətini yayındıra bilər. Dərsliyin bədii tərtibatında rənglərin seçilməsi, eyni sənət əsərində onların uyğunlaşdırılması (sintezi) nəzərə alınmalıdır.

Qısa sətirlərdən ibarət şeirlərin bir sütunda deyil, iki sütunda verilməsi məsləhətdir.

Dərsliyin kağızı qəzet kağızı deyil, ofset olmalı, çox sığallı, parıltılı kağızdan istifadə edilməməlidir. Belə kağızlar uşaqların gözlərini qamaşdırır, onların sağlamlığına ziyan verir.

**Dərsliyin nəşrə hazırlanması və nəşri.** Dərslik hazırlanıb Təhsil Nazirliyinə təqdim olunanda nazirlik onu rəy üçün mütəxəssis alimə, yaradıcı müəllimə, psixoloqa, təhsillə əlaqədar müxtəlif qurumlara verir. Müəlliflər rəylər əsasında işləyir, müvafiq düzəlişlər aparırlar. Xüsusi komissiya dərsliyi bir də nəzərdən keçirib, fikrini bildirir. Lazım gələrsə, müəlliflər göstərilən iradları nəzərə alırlar.

Dərslik tamamlandıqdan sonra tanınmış mütəxəssisə redaktəyə verilir. Redaktədən sonra nazirlik dərsliyi nəzərdən keçirib, onun çap olunması qənaətinə gəlir və ona qrif verir.

Dərslik müəlliflərindən biri elmi redaktor olarsa, onun sonrakı siniflər üçün dərslikləri də redaktə etməsi məsləhət görülür. Bu zaman üslubun vahidliyi və perspektivlik təmin olunur.

Nəşriyyat dərsliyin nəşri, poliqrafik keyfiyyəti üçün qarantdır. Nəşriyyat redaktoru və korrektoru onu bir daha diqqətlə yoxlayırlar.

Dərsliyin redaktoru bədii tərtibat şöbəsinin əməkdaşları ilə, həmçinin texniki redaktor və korrektorla birgə işləyir. Dərslik çapa hazır hesab edildikdə əlaqədar şöbələrin müdirləri və direktorun imzası ilə çapa təqdim olunur. Yığılmış dərsliyin korrektəsindən sonra onun siqnal nömrəsi çapdan çıxır. Nazirliyin müvafiq idarəsi dərsliyin çapına razılıq verir.

Dərsliyin tirajına görə müəlliflər müqavilə əsasında əmək haqqı alırlar.

Məktəb kitabxanalarında dərslik fondu yaradıldığı şəraitdə II sinifdən başlayaraq dərslikləri saxlayır, növbəti dərs ilində başqa şagirdlərin istifadəsinə verirlər. Ona görə də dərsliklərlə elə rəftar edilməlidir ki, 4 ildən sonra, yeni nəşrədək onlardan istifadə etmək mümkün olsun. Bu, uşaqlarda səliqəlilik, qənaətcillik tərbiyə edir.

**Dərslikləri təkmilləşdirməyin mühüm problemləri.** Son illərdə dərsliklərin təkmilləşdirilməsi haqqında tələblər əvvəlki illərə nisbətən daha çoxdur. Bu, dərsliklərin ağırlığı, onlarda anlaşılmaz faktların olması ilə bağlıdır. Doğrudur, akademik L.V.Zankov bu günümüzü nəzərə alaraq, şagirdləri daha çox düşünməyə, çalışmağa vadar edən, onlarda daha böyük çətinlikləri aradan qaldırmağa maraq oyadan dərsliklərin tərəfdarı idi. O, yuxarı siniflərdə uşaqları daha çətin məsələləri qavramağa hazırlamaq məqsədini güdürdü. Bu gün məhz belə bir şərait yaranıb. Müəllim, şagird və valideynlərin dərsliklərdən şikayət etmələri bunu göstərir, lakin dərsliklərin həddən artıq yüngülləşdirilməsini də tələb etmək məsləhət deyil. Bəlkə daha çox təlim metodları və priyomlarının təkmilləşdirilməsi və tətbiqi üzərində düşünmək lazımdır? Aşağı siniflərdə dərsliklərin yüngülləşdirilməsi şagirdlərin yuxarı siniflərdə normal oxuya bilib-bilməyəcəklərini şübhə altına alır. Əgər şagird III sinifdə iki səhifəlik həcmi olan mətni oxumağa alışıbsa, yuxarı siniflərdə 5–6 səhifədən ibarət mətni, povest və romanı oxuyub, məzmununu necə yadda saxlayacaqdır?

Adətən, kiçikyaşlı uşaqları didaktik oyunların köməyi ilə oxutmağı məsləhət görürlər, lakin hər şeyi əyləncə üzərində qurmaq, təlimi oyuna çevirmək olmaz. K.D.Uşinski uşaqlara oxuyub yazmağı oynaya-oynaya öyrətməyin mümkünlüyünü göstərir, eyni zamanda bunun zərərli olduğunu da qeyd edirdi. O göstərir ki, ciddi məşğələdə uşaq üçün hər şey əyləncəli ola bilməz. Uşağa yalnız onun xoşuna gələn şeyləri deyil, xoşlamadığı şeyləri də öyrətmək lazımdır. O yazır: «Siz uşaqları həyata hazırlayırsınız, həyatda isə heç də hər şey əyləncəli deyil. Ona görə də uşaqlara əyləncəli olmayan, xoşlamadıqları şeyləri də öyrətmək lazımdır». Dərsliklərin lüğəti ilə əlaqədar bir misal bunu sübuta yetirir. Müzakirələrdən birində müəllim *dirrik* sözünün mənasını izah edə bilmədi. O, bəzi yoldaşları ilə birlikdə dərsliklərdəki *cüyür, yoxuş, yamac, tala, güney, quzey, turac, qırqovul, kəklik, ağcaqayın, inciçiçəyi, çobanyastığı, örüş, orman, yarğan, estakada, estafet, funikulyor, ekskavator* və s. sözlərin çıxarılmasını təklif etdilər. Əgər bu təkliflər nəzərə alınarsa, yalnız şagirdlərin məişət lüğətinə əsaslanılarsa, onların nitqləri inkişaf etməz. Bunsuz isə tədris mümkün deyil.

Dərsliklərin təkmilləşdirilməsi onlarla fəaliyyət prosesində müəllimin diqqətindən çox asılıdır. O, yenicə çapdan çıxmış dərslikdə hansı nöqsanlara yol verildiyini müəyyənləşdirməli, materialın necə mənimsənilməsini izləməlidir. Müşahidələr əsasında hansı qayda və təriflərin çətin mənimsənilməsi, hansı sual və tapşırıqların mənasız, maraqsız olması dəqiqləşdirilməlidir.

Dərsliklərin təkmilləşdirilməsi üçün alternativ dərsliklərin müqayisə edilməsi faydalıdır. K.D.Uşinski demişdir: «Dərsliklərin tez-tez, yersiz dəyişdirilməsi, şübhəsiz, zərərlidir, lakin onlar arasında müsabiqənin olmaması daha zərərlidir».

**Dərslik müəllifinin hüquqları.** Dərslik müəllifləri dövlət tərəfindən müəyyən edilmiş hüquqlara malikdirlər. Onlar müəllif kimi tanınır, şərəf və ləyaqətlərinə xələl gətirən hərəkətlərə, hücumlara qarşı çıxa bilərlər. Dərslikdən başqalarının istifadə etmələrinə, onun tərcüməsinə icazə vermək və ya verməmək müəlliflərdən asılıdır.

Dərslik bir neçə müəllif tərəfindən yazıldıqda onların aralarındakı hüquqlar əvvəlcədən nəzərdə tutulmuş şərtlərə əsasən bölünür. Qonorarın faizi də bu şərtlərlə bağlıdır. Şərikli

dərslik müəlliflərindən hər birinin özünəməxsus hissədən istədiyi kimi istifadə etməsinə icazə verilir.

Müəlliflər xarici ölkələrin dərsliklərindəki yeniliklərdən istifadə etmək hüququna da malikdirlər.

Müəllif dərsliyi, onun bir hissəsini işlədiyi müəssisədə elmi iş kimi yerinə yetirmişsə, ona qonorar verilmir. Qanuni hallarda müəllif qonorar almadıqda nəşriyyatı məhkəməyə verə bilər.

Ölkədə baş verən dəyişikliklərlə əlaqədar müəlliflər dərsliklərini yeniləşdirə bilərlər. Müəlliflərin nəşriyyatla bağladıqları müqaviləyə əsasən, dərslikdən istifadə müddəti müəlliflər tərəfindən pozula bilər. Müəlliflərdən birinin fəaliyyətində ciddi dəyişiklik varsa, digərinə yazılı məlumat verməlidir. Zəruri hallarda müəlliflər dərsliklərindən imtina etdiklərini Təhsil Nazirliyinə çatdırmaq hüququna malikdirlər.

Dərslik təkmilləşdirilərkən əsaslı kömək göstərən şəxsə müəlliflik hüququnun verilməsi haqqında məsələ qaldırmaq mümkündür. Müəlliflər elmi redaktorun, nəşriyyat redaktorunun, rəssamın, bədii tərtibatçının, korrektorun fəaliyyətinə etirazlarını bildirməkdə sərbəstdirlər.

Nəhayət, müəlliflər tədris planında bu və ya digər fənn üçün nəzərdə tutulmuş həftəlik saatların sayı, istifadə etdikləri standart və proqramların məzmunu haqqında təkliflər verə bilərlər.

**Qeyd:** 45 il ərzində (1963–2008-ci illər) I–III siniflər üçün ana dili dərsliklərinin müəllifi kimi dərsliklər haqqında fikirlərimi bu yığcam materialla məhdudlaşdırıram. Daha ətraflı məlumat almaq üçün seçilmiş əsərlərimin VI cildinə müraciət etmək olar. ( VI cild. Dərslik problemi. Bakı: Səda, 2011-ci il, 400 səhifə).

# İBTİDAİ TƏHSİLİN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**prof. Fərrux Rüstəmov,**
pedaqoji elmlər doktoru, professor
ADPU-nun dekanı



**açar sözlər:** məzmun, ibtidai təhsil, şəxsiyyətyönümlülük, nəticəyönümlülük, inteqrativlik

**ключевые слова:** содержание, начальное образование, направленность на формирования личности, направленность на достижения результатов, интегративность

**key words:** content, primary education, focus on personality formation, aimed at achieving results, inteqrative

Keçən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq Azərbaycan təhsilində ciddi məzmun islahatları həyata keçirilir. Milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin sağlamlığı və təhlükəsizliyinin təminatının, ətraf mühitə qayğı və insanlara hörmətin, tolerantlığın, humanistliyin, insan hüquqları və azadlıqlarının prioritet kimi irəli sürülməsi nəticəsində Azərbaycan təhsilində diferensiasiyaya əsaslanan monoloji mədəniyyətdən fərqli olaraq, inteqrasiyaya əsaslanan dialoji mədəniyyətin formalaşdırılması zəruri hesab edilir. Yaddaş, mexaniki hafizə məktəbi modelindən imtina olunur, biliklərin mexaniki əzbərlənməsini deyil, şagirdlərdə məntiqi təfəkkürə əsaslanan inkişafetdirici və tətbiqi bacarıqların formalaşdırılmasını əsas götürən təfəkkür məktəbinə keçidin mexanizmi yaradılır. Elə bir təhsil sisteminin formalaşdırılması nəzərdə tutulur ki, burada şagirdlər azad və bərabər təhsil ala bilsinlər, özünütəhsil, özünüidarəetmə, özünüreallaşdırma yolu ilə potensial imkanlarını üzə çıxartsın, özünü təkmilləşdirsin, təsdiq etsin, insanlarla qarşılıqlı əməkdaşlığa hazır olsunlar. Bunun üçün, hər şeydən əvvəl, ənənəvi didaktik sistemlərin yeniləşdirilməsinə, müəllim-şagird əməkdaşlığının yenidən qurulmasına, öyrətmə-öyrənmə prosesində ağırlıq mərkəzinin tədricən şagirdin üzərinə köçürülməsinə başlandı. Azərbaycan pedaqoji elmində belə bir fikir formalaşdırıldı ki, şagird yalnız ona məxsus təbii imkanlara, xüsusiyyətlərə, fərdi qabiliyyətlərə və məqsədlərə malik olan, müstəqil fəaliyyət göstərən subyektdir. O, yaşadığı cəmiyyətin birgəyaşayış qaydalarına riayət edən, milli və bəşəri dəyərləri qoruyub saxlayan, yeni mədəniyyət nümunələri yaradan, şəxsiyyət kimi formalaşan azad vətəndaşdır. Təhsilin vəzifəsi isə böyüməkdə olan gənc vətəndaşa həyat şəraitini keçmiş nəsillərdən bir hədiyyə olaraq qəbul etməməyi, onu dəyişməyi, öz həyatını daha yaxşı qurmağı öyrətməkdən ibarət olmalıdır. Belə olduqda müəllim və şagirdlərin müəyyən olunmuş qaydada həyata keçirilən birgə fəaliyyətlərinin zahiri ifadəsi, təlimin təşkili formalarının məzmunu və xarakteri də dəyişir. Sosial səbəblər və didaktik sistemlərin inkişafı ilə əlaqədar meydana gələn, ciddi reqlamentə, sərt qaydalara əsaslanan standart dərslər tədricən öz yerini qeyri-standart dərslərə verir. Pedaqoji prosesin əsasında duran paradiqmaları dəyişmək, onu yeni məzmunda qurmaq həyat reallığına çevrilir.

Bunlar da, təbii ki, ibtidai təhsilə yeni müstəvidə yanaşmanı, onun ən müasir tələblər səviyyəsində qurulması üçün yeni məzmunun müəyyən olunmasını mühüm vəzifə kimi qarşıya qoyur. Yeni məzmunun müəyyənləşdirilməsi pedaqoq alimləri və məktəb müəllimlərini düşündürən ən vacib pedaqoji problemlərdən biridir.

İbtidai təhsilin məzmunu ilə bağlı Azərbaycanda xeyli araşdırmalar aparılmışdır. Professor Y.Ş.Kərimov ibtidai təhsilin məzmunu ilə bağlı müxtəlif problemlərin həlli istiqamətində daha geniş fəaliyyət göstərmiş, özünəməxsus sistem yaratmışdır. O, ibtidai təhsilin məzmununun təkmilləşdirilməsi ilə bağlı apardığı tədqiqatlarında təlimə altı və ya beş yaşdan başlanması, onun üçillik və ya dördillik olması ilə əlaqədar kütləvi pedaqoji eksperimentlər qoyaraq, elmi və pedaqoji cəhətdən əsaslandırılmış nəticələrə gəlmişdir. Y. Kərimov ilk dəfə hələ 2003-cü ilin noyabr ayında, “525-ci qəzet”də ümumi təhsilin 12 illik olması ideyasını irəli sürmüşdür.

Təhsil quruculuğu ilkin olaraq *məzmundan* başlanır. Ona bütövlükdə təhsil prosesinin nüvəsi kimi baxılır. Demokratik cəmiyyətin sosial sifarişini yerinə yetirən məktəb verdiyi təhsilin keyfiyyəti, insanların dünyagörüşünün və ümumi mədəniyyətinin, təfəkkür mədəniyyətinin, mənəvi inkişaf səviyyəsinin əsasını təşkil edən umumi təhsil üçün cavabdehlik daşıyır. Təhsil mədəniyyətin zəruri tərkib hissəsidir. Yeni anlamda təhsil yalnız nəticə deyil, həm də, *proses, sistem, dəyər* anlayışlarını özündə ehtiva edir. Təhsil insanlara istənilən həyat şəraitində düzgün hərəkət etmək qabiliyyəti aşılamalıdır. Mahiyyət etibarilə bu problem yeni yanaşma, yeni pedaqoji təfəkkür tələb edir.

İbtidai təhsilin məzmununun müəyyən olunmasında onun *müddəti* əhəmiyyətli rol oynayır. Ona görə də dünyanın, demək olar ki, bütün ölkələrində təhsilin müddətinin müəyyən olunması müzakirə və mübahisə predmetinə cevrilir. Dünyanın ən inkişaf etmiş ölkələrindən olan ABŞ, İngiltərə və Kanadada ibtidai təhsilin müddəti 5 – 6 ildir. Türkiyədə ibtidai təhsil 5 ildir. Rusiyada və Azərbaycanda isə ibtidai təhsilin müddəti 4 il olaraq qalır. Ölkəmizdə ibtidai təhsilin müddətinin 3 il olduğu dövrün də şahidi olmuşuq.

İbtidai təhsilin məzmununun formalaşmasında əhəmiyyətli rol oynayan məsələlərdən biri də şagirdlərin *hansı yaşda* təlimə başlamalarıdır. Ona görə ki, hər yaş dövrünün özünəməxsus psixoloji və fizioloji xüsusiyyətləri vardır. Təlimin məzmununun formalaşdırılmasında onlara istinad etmək didaktik cəhətdən əhəmiyyətli hesab edilir. XX əsrin 20-ci illərində uşaqların məktəbə 8, hətta 9 yaşdan gəlmələri adi hal idi. Sonralar (1944-cü ilədək) 8 yaş sonuncu hədd hesab olundu. 1944-cü ildən 70-ci illərin ortalarınadək məktəbə qəbul 7 yaşdan aparıldı. 70-ci illərin ortalarından etibarən bütün məktəblərdə 6 yaşlılar üçün hazırlıq sinifləri təşkil olundu.

Dünyanın müxtəlif ölkələrində uşaqlar məktəblərə daha erkən yaşdan götürülür. Tədqiqatçıların fikrincə, 3 yaşdan məktəb təliminə hazır olan nadir istedadlar, vunderkindlər istisna edilsə, fiziki cəhətdən sağlam, normal 5 yaşlıların əksəriyyətinin I sinifdə oxumaq imkanları var. Belə olan halda işin bütövlükdə səmərəli təşkilinin əsasında təlimin məzmununun düzgün qurulması dayanır.

İbtidai təhsilin məzmununun müəyyən olunması konkret və mürəkkəb məsələ olduğundan bir sıra xarici amillər (şagirdin səviyyəsi, mühit, pedaqoji təminat və s.), biliklərin zərurilik dərəcəsi və praktik cəhətdən faydalılığı diqqət mərkəzində saxlanılmalıdır.

2006-ci ildə Azərbaycanda ilk dəfə ibtidai təhsilin nəticəyönümlü məzmunu yaradıldı və az sonra fənn kurikulumları hazırlandı. Yeni proqramların – kurikulumların tətbiqinə 2008–2009-cu dərs ilindən başlandı. Prof. Y.Ş. Kərimovun təbirincə desək, təlimin məzmunu təhsil islahatının tələblərinə uyğun təkmilləşdirildi, şagirdlərin təlim yükü qaydaya salındı. Bu zaman dünyanın qabaqcıl ölkələrinin təcrübəsindəki zəruri cəhətlər nəzərə alındı. Standartlarda ibtidai təhsilin müddətinin 4 il, tədris ilinin müddətinin 33–34 həftə olması, maksimum tədris yükü normativlərinin müəyyənləşdirilməsi öz əksini tapdı.

İbtidai təhsilin məzmunu təhsilin digər səviyyələri ilə müqayisədə daha ümumi xarakter daşıyır. Bu mərhələdəki fənlər praktik xarakterinə görə ümumi təhsilin digər mərhələlərindəki fənlərdən fərqlənir. Onlar daha çox şagirdlərdə praktik bacarıqların formalaşmasına istiqamətləndirilir. Ona görə də ibtidai təhsilin məzmununun müəyyənləşdirilməsində *inteqrativliyin* nəzərə alınması məqsədəmüvafiq hesab edilir. İbtidai təhsilin məzmununun inteqrasiyası zamanı fənlərin imkan daxilində birləşdirilməsi, onların bir məcraya gətirilməsi, bununla da təlim fənlərinin sayının azaldılması kimi nəticələr əldə olunur. Bununla əlaqədar ibtidai siniflərdə bir neçə elmin qovşağında dayanan standartların yaradılması işi həyata keçirilir.

İbtidai təhsilin məzmununun müəyyən olunmasında *tələbyönümlülük* əsas prinsiplərdən biri kimi nəzərə alınmalı, təkmilləşdirilmə prosesində ardıcıl tətbiq olunmalıdır.

İbtidai təhsilin məzmununun müəyyən olunmasında əsas prinsiplərdən biri də *nəticəyönümlülükdür.* Bu prinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir, fəaliyyət nəticələrə yönəldilir.

Ənənəvi olaraq ibtidai təhsilin məzmunu dedikdə, əsasən, tədris planları nəzərdə tutulurdu. Bu isə o deməkdir ki, ibtidai təhsilin məzmunu təhsil sahələrinə, tədrisi nəzərdə tutulan fənlərə ayrılır,

hər bir fənnə ayrılan saatların miqdarı göstərilirdi. Burada başqa açıqlamaların olmaması ibtidai təhsilin məzmununun konkret şəkildə anlaşılmasını çətinləşdirirdi, lakin əvvəldə qeyd olunduğu kimi, ibtidai təhsilin məzmunu bilik, bacarıq və vərdişlərin sistemindən ibarətdir. Bu sistem isə tədris planının elementlərində görünmür. Təlimin məzmunu dedikdə, bilik, bacarıq və vərdişlərin həcmi başa düşülür. Ayrı-ayrı fənlərin proqramına gəldikdə isə, orada tədris olunan təlim materialları təsvir olunur.

Dünyanın təhsil sistemində yeni insanın inkişafını təmin etmək üçün ilk növbədə gözlənilən nəticələri müəyyənləşdirmək, şəxsiyyətin formalaşması prosesini izləmək və istiqamətləndirmək tələb olunur. Bunların yerinə yetirilməsi üçün hazırlanmış məzmunun ona imkan yaratması vacibdir. Dünya təhsil sistemində artıq birmənalı şəkildə qəbul edilmişdir ki, məzmun standartlarının müəyyənləşdirilməsi, onun nəticələr formasında qəbul olunması təhsilin məzmun modellərinin ən optimal variantlarından biridir. Bu variantın qəbul olunması məktəbin müasir intellekt məktəbinə çevrilə bilməsini şərtləndirir.

İbtidai təhsilin məzmununda nəticəyönümlülüyün nəzərə alınması iki mərhələdə həyata keçirilir:

- məqsədlərin müəyyən olunması;
- nəticələrin müəyyən olunması.

*Şagirdyönümlülüyün* mühüm məzmun prinsiplərindən biri kimi nəzərə alınması məzmunun təhsil standartları formasında ifadə olunmasını və məhz həmin standartların şagirdlərə bilavasitə ünvanlandırılmasını tələb edir. Bu, o deməkdir ki, hər sinif üçün standartlar müəyyənləşdirilərkən şagirdlərin yaş, psixoloji və fiziki inkişaf səviyyələri nəzərə alınmalıdır.

Elmi-pedaqoji ədəbiyyatda ibtidai təhsilin məzmununun müəyyənləşdirilməsi zamanı aşağıdakı prinsiplərin nəzərə alınması məqsədəuyğun hesab olunur:

- milliliklə bəşəriliyin vəhdətinin nəzərə alınması;
- inteqrativlik;
- tələbyönümlülük;
- nəticəyönümlülük;
- şəxsiyyətyönümlülük;
- şagirdyönümlülük.

İbtidai təhsilin məzmun strukturunu müəyyən etmək üçün didaktik prinsiplərlə yanaşı, onun funksiyalarını da müəyyənləşdirmək zəruri hesab edilir. Araşdırmalar göstərir ki, ibtidai təhsilin məzmununun aşağıdakı funksiyaları vardır:

**1. İbtidai təhsilin məqsədlərinin həyata keçirilməsi funksiyası.** Məqsədə görə məzmunun məntiqi cəhətdən ona uyğunluğunu təmin etməklə həm də məqsədin əlamətlərini özündə ehtiva edir. Məqsədin reallaşdırılmasının birinci təminatçısı məzmundur. İbtidai təhsilin məzmunu hazırlanarkən ilk növbədə məqsədlərin müəyyən olunması, onların konkretləşdirilməsi vacib hesab edilir. Uşaq ibtidai təhsilin məzmununa uyğun olaraq "sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur və savadlı yazır" (ana dili); "milyon dairəsində natural ədədlər və sıfır üzərində dörd hesab əməlini yerinə yetirir, onluq say sistemində rəqəmlərin ədədlərdə mövqeyini və xüsusi çəkisini (mərtəbə vahidlərini) müəyyənləşdirir" (riyaziyyat). Bu nəticələr mahiyyət etibarilə "uşaqlarda oxu, yazı, hesablama vərdişləri yaratmaq və möhkəmləndirmək" məqsədinin həyata keçirilməsinə xidmət göstərir, çünki məzmunu ifadə edən nəticələrdə (standartlarda) oxu, yazı və hesablama vərdişlərinin yaradılması və möhkəmləndirilməsi başlıca məqsədlər kimi, həm də funksional xarakter daşıyır.

**2. Cəmiyyətin, ayrı-ayrı insanların cari və perspektiv tələbatlarının əks etdirilməsi funksiyası.** Təlim prosesinin düzgün təşkili, ilk növbədə, yenə də təlimin məzmununun düzgün müəyyən edilməsi ilə bilavasitə əlaqədardır. B.S.Blümün fikrincə, təlim prosesi düzgün təşkil edildikdə şagirdlərin 95%-i onun məzmununu mənimsəyə bilirlər.

**3. Meyarlı qiymətləndirmə funksiyası.** İbtidai təhsilin məzmununun nəticəyönümlü olması ilk növbədə onun mahiyyətində nəzərə çarpır. Yeni məzmunda şagirdlərin əldə edəcəkləri bilik və fəaliyyətlər konkret olaraq göstərilir. Məzmunun ümumiləşdirilərək təhsil standartı

kimi formalaşdırılması, nəticələr formasında verilməsi müasir təhsilin ən uğurlu cəhətlərindən biri kimi səciyyələndirilir. Məzmunun standartlar şəklində verilməsi şəffaflıq yaradır, şəxsiyyətin inkişafını konkret parametrlər üzrə izləməyə, nəticə etibarilə qiymətləndirməyə imkan verir. Hər bir standart mahiyyət etibarilə müəyyən səviyyəni ifadə edən ölçü vahidi, meyardır. Onun əsasında obyektiv, real, ədalətli qiymətləndirmə prosesini asanlıqla həyata keçirmək mümkündür. İbtidai təhsilin məzmununun bu xüsusiyyətləri onun meyarlı qiymətləndirmə funksiyasını təmin edir.

**4. İbtidai təhsil hüququnun təmin olunması funksiyası.** Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən, ibtidai təhsil pilləsi dördillik olmaqla I–IV sinifləri əhatə edir. İbtidai təhsil pilləsini başa vuran şagirdlər, yeni konsepsiyaya uyğun olaraq, xüsusi qaydada milli qiymətləndirmə mərhələsindən keçərək növbəti mərhələdə təhsillərini davam etdirmək hüququ qazanırlar. İbtidai təhsil ilkin səviyyə olmaqla xüsusi əhəmiyyət daşıyır. Savad təlimi – ilkin oxu və yazı bacarıqları, hesablama qabiliyyətləri bu mərhələdə yerinə yetirilir. Ümumi təhsilin digər mərhələləri ibtidai təhsilin məzmununa əsasən müəyyənləşdirilir.

**5. İbtidai təhsilin humanistləşdirilməsi funksiyası.** Humanist pedaqogikanın tələblərinə görə, şagirdin bir şəxsiyyət kimi formalaşdırılması üçün təhsil inkişafetdirici və tərbiyəedici olmalı, humanistləşdirilməli, humanitarlaşdırılmalı, demokratikləşdirilməli, fərdiləşdirilməli və diferensiallaşdırılmalıdır. Pedaqoji fəaliyyətin danılmaz cəhəti onun humanist olmasıdır. Təhsilin humanistləşdirilməsi bir tərəfdən müəllim–şagird, şagird–şagird münasibətlərinin humanistləşdirilməsini, digər tərəfdən təlim-tərbiyənin məzmununun, forma və metodlarının elə qurulmasını nəzərdə tutur ki, bu zaman hər bir şagirdin fərdiliyinin, idrakının, şəxsiyyətə məxsus keyfiyyətlərinin səmərəli inkişafı təmin olunur, onun yaxşı oxumaq istəməsi və oxuya bilməsi üçün əlverişli şərait yaradılır. Təhsilin humanistləşdirilməsi, ilk növbədə şagirdin təlim prosesində bilavasitə inkişaf etdirilməsini, özünü reallaşdırmasını, bir şəxsiyyət kimi təsdiq edilməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Elə bir şərait, elə bir təhsil mühiti olmalıdır ki, şagird oxumaq istəsin. Zor gücünə verilən bilik ağılı boğur. H.C.Ayzenk deyirdi : «Əgər biz atı su axurunun yanına gətirə biliriksə, uşağı da bu qaydada məktəbə gətirə bilərik, lakin atı su içməyə məcbur edə bilmədiyimiz kimi, uşağı da, əgər o, bunu istəmirsə, oxumağa məcbur edə bilmərik». U.Qlasser isə deyirdi ki, gələcəyin məktəbində uğursuz şagird olmayacaq. Buna görə də təlimin ilk mənbəyi real həyat və birbaşa təcrübə olmalıdır. Müəllim–şagird münasibətləri qarşılıqlı anlaşmaya və humanist ideyalara əsaslanmalıdır. Müəllim şagirdlərin daxili aləminə nüfuz etməli, onların fikirlərini öyrənməli, ideyalarından bəhrələnməli, müstəqillik və təşəbbüskarlıqlarını rəğbətləndirməli, hörmət hissini tələbkarlıqla üzvi surətdə uzlaşdırmalıdır. Homerin fikrincə, təhsil şagirdə hörmətdən başlayır. Konfutsi deyirdi ki, mən bəzi şeyləri kitablardan, çox şeyi yoldaşlarımdan, daha çox şeyləri isə şagirdlərimdən öyrəndim.

Bəşəriyyət özünü inkişaf etdirmək üçün təhsil mexanizmini yaradanda çox məsul və ciddi bir addım ataraq, əvəzsiz, humanist bir yanaşmadan istifadə etmişdir. "Böyük didaktika"nın müəllifi Y.A. Komenski "Sən ata kimi hərəkət etmirsənsə, müəllim kimi fəaliyyət göstərə bilməzsən" fikrini söyləyəndə humanistləşdirmənin tarixi köklərinə istinad etmişdir. Humanistləşdirmə Azərbaycan təhsilinin prioritet prinsiplərindən birinə çevrilib. Belə yanaşma tərzi ibtidai siniflərdə şagirdi gücünə müvafiq olmayan tədris yükündən azad edir, öz maraq və meyillərini reallaşdırmaqda ona kömək göstərir. Əsası olmayan emosional və psixi gərginlik aradan qalxır. Təlimin müsbət motivləri formalaşır, hər kəsin maksimum gücü çatan səviyyədə oxumaq imkanı yaranır,

**6. İdarəetmə funksiyası.** İbtidai təhsilin idarəetmə funksiyası onun nəticələri ümumiləşdirərək keyfiyyəti ifadə etməsindədir. Hər bir standartın keyfiyyəti ifadə edə bilən göstərici olması və onun əsasında materialların mənimsədilməsi, qiymətləndirmənin aparılması məzmunda idarəetmə funksiyasının mövcudluğuna dəlalət edir. İbtidai təhsilin məzmununun belə bir funksiyaya malik olması müasir dövrün tələbi kimi meydana çıxır.

**7. Təhsilin keyfiyyətinin yüksəldilməsi funksiyası.** Müasir pedaqoji yanaşmalara görə, təhsilin idarə olunması öz məzmununda qiymətləndirmə fəaliyyətini də əhatə edir. Bu, bilavasitə inzibatçılığı inkar edən idarəetmənin demokratik prinsip əsasında qurulmasından irəli gəlir. Bu zaman idarəetmənin inkişafa xidmət edən və onu stimullaşdıran keyfiyyətin yüksəldilməsi funksiyası ön plana keçir.

**8. Zəruri minimumun müəyyənləşdirilməsi funksiyası.** İbtidai təhsilin məzmununun standartlar formasında hazırlanması onun zəruri minimumunu müəyyənləşdirmək zərurətindən irəli gəlir. İbtidai təhsilin məzmununu təşkil edən məzmun standartları şagirdlərin hazırlığına qoyulmuş minimum həddi ifadə edir.

Humanist pedaqogikaya görə, müəllim hazır bilik verməməli, əlaqələndirici, istiqamətləndirici, məsləhətçi, «fikrin mamaçası» (Sokrat) rolunda çıxış etməli, şagirdlərə öyrənməyin yollarını öyrətməlidir. Doğrudan da, dosta balıq verməkdənsə, ona balığı tutmağı öyrətmək faydalı deyilmi? Bu prosesdə şagirdlər qeyri-fəal olmamalı, tədqiqatçı, təcrübəçi, yaradıcı subyekt kimi əvvəlcədən müəyyən olunmuş nəticələrin əldə edilməsi üçün məqsədyönlü fəaliyyət göstərməlidirlər. Əgər keçən əsrin 70-ci illərində "Conni nə üçün oxuya bilmir?" sualı Amerika təhsilinin ən başlıca suallarından biri idisə, sonralar o, yenisi ilə –"Conni nə üçün düşünə bilmir?" sualı ilə əvəz olundu. Şagirdlərə fikirləşmək öyrətməyi vacib hesab edən Amerika alimi V. Bruner suala münasibət bildirərək demişdir: "Əgər biz Amerikada təhsilin səviyyəsini yüksəltmək istəyiriksə, şagirdlərə elə keyfiyyətlər aşılamalıyıq ki, onlar insanı ağıllı, düşünən, öyrənən varlıq edir". Əslində bu, müasir dövrdə bütün dünyada Hamlet dilemmasıdır: olum, ya ölüm? Düşünmək insanın başlıca qabiliyyəti, onu ifadə etmək əsas tələbatı, yaymaq isə ən qiymətli azadlığıdır. Düzgün düşünə bilmək böyük bir kəşf qədər əhəmiyyətlidir ki, humanist pedaqogikanın da əsas qayəsi budur.

**ədəbiyyat**


1. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri . Bakı: "Kurikulum", 2008, № 1.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
3. Kərimov Y.Ş. İbtidai təhsilin dövlət standartları haqqında. Bakı: "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2000, № 3.
4. Kərimov Y.Ş. İbtidai təlim: problemlər, vəzifələr. Bakı: Nasir, 2000.


**Усовершенствование содержания начального образования**

**резюме**


В статье рассматриваются направления усовершенствования содержания начального образования. Отмечается, что при определении содержания начального образования учёт нижеуказанных принципов считается целесообразным: учет национальных и общечеловеческих ценностей; создание благоприятной среды обучения для всех учащихся, принимая во внимание их общий уровень развития, наклонности и интересы; ориентированность образования на формирование личности; ориентированность образования на достижение результатов обучения; ориентированность на выполнение требований, предъявляемых к процессу обучения; интегративность.


**Improvement of the content of primary education**

**summary**


The article discusses ways of improving the content of primary education. It is noted that the determination of the content of primary education, the following accounting principles deemed appropriate: account of national and universal values; creating an enabling learning environment for all students, taking into account their overall level of development, tendencies and interests; oriented education in the formation of personality; oriented education in the achievement of learning outcomes; it focuses on the implementation requirements of the learning process; integrative.

# EKOLOJİ SİYASƏT VƏ ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ

**Sevda Daşdəmirova,**
Qax rayonu, T. İsmayılov adına şəhər 5 nömrəli tam orta məktəbin
coğrafiya müəllimi, "Könüllü yaşıllar" cəmiyyətinin sədri

**açar sözlər:** ekologiya, qlobal istiləşmə, ozon qatının deşilməsi, davamlı inkişaf, milli proqram, ətraf mühitin qorunması

**ключевые слова:** экология, глобальное потепление, истощение озонового слоя, устойчивое развитие, национальная программа, охрана окружающей среды

**key words:** ecology, global warming, ozone depletion, sustainable development, national program, the environment



Nə qədər ki, bəşəriyyətin vahid evi sayılan təbiətlə insanlar arasında qarşılıqlı əlaqə sağlam düşüncəyə və təfəkkürə əsaslanmayıb, nə qədər ki, dünyanın ayrı-ayrı ölkələri arasında ekologiya və ətraf mühitin mühafizəsi problemləri haqqında ədalətli, davamlı əməkdaşlıq yaradılmayıb, bütünlükdə ekosistemlərin etibarlı mühafizəsi mümkün deyildir. Bu, çox təhlükəlidir. Bunun fəsadları ən müasir kütləvi silahların işə düşməsi ilə eyni sırada dayanır. Sosial - iqtisadi davamlılıq o zaman etibarlı təmin oluna bilər ki, elmi-texniki tərəqqinin sürəti, texnika və texnologiyanın inkişafı ilə ekoloji siyasət arasında tam üzvi bağlılıq yaradılsın. SSRİ-nin süqutundan sonra mühüm ümumdünya ekoloji problemləri üzrə bir sıra dövlətlərin beynəlxalq konvensiya və müqavilələrə qoşulması gücləndirildi. Qlobal iqlim dəyişikliklər, ozon qatının zədələnməsi, ətraf mühitin çirklənməsinin bir çox istiqamətləri beynəlxalq nəzarətə götürüldü. Son illərdə görülən tədbirlərə baxmayaraq, Azərbaycan ekoloji vəziyyəti gərgin olan ölkələr sırasındadır. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Ərazimizin ekoloji tarazlığının pozulmasına potensial zəmin yaradan səbəblərdən biri onun ekoloji situasiyası gərgin olan ölkələrlə əhatə edilməsidir. Digər səbəb Azərbaycanın zəngin təbii sərvətlərinin Ermənistan tərəfindən talan olunması, onun müharibəyə cəlb edilməsidir. Azərbaycanda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yarandığı gündən bütün sahələr üzrə çox geniş vəzifələr spektrini həyata keçirmək üçün konkret tədbirlər görülmüş, əhali arasında ekoloji maarifləndirmə işləri genişləndirilmişdir. Dünya təcrübəsi göstərir ki, sağlam təfəkkürə yiyələnmiş insan heç vaxt təbiətə qarşı qəddarlığa yol vermir, ekoloji qanunauyğunluqları dərk etməklə qlobal biosistemlərdə özünün yerini düzgün müəyyənləşdirir və dərk edir ki, o, bioloji varlıq kimi planetimizin tərkib hissəsidir.

Qlobal və regional səviyyələrdə, habelə ayrı-ayrı ölkələr miqyasında sülh, siyasi sabitlik, davamlı sosial-iqtisadi tərəqqi, demokratiyanın inkişafı ilə bir sırada ekologiya və ətraf mühitin mühafizəsi məsələləri də durur.

Ekoloji siyasət ətraf mühitin sağlamlaşdırılmasına, təhlükəsizliyin təmin edilməsinə yönəldilmişdir. Bu məqsədlərə nail olmaq üçün respublika əhəmiyyətli ekoloji problemlər müəyyənləşdirilmiş və 1998-ci ildə hökumət tərəfindən təsdiq olunmuşdur. Bütün bunlar ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planında öz əksini tapmışdır.

Ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində müasir tələblərə cavab verən qanunvericilik bazası yaratmaq məqsədilə respublikamızda 1997–2001-ci illər ərzində Avropa dövlətlərinin qanunvericilik tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul edilmiş, normativ sənədlər hazırlanmışdır. Əhalinin radiasiya təhlükəsizliyi, istehsalat və məişət tullantıları, heyvanlar aləmi, hidrometeorologiya fəaliyyəti, ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik, xüsusi mühafizə olunan ərazilər və bioloji obyektlər barədə, atmosferin mühafizəsi haqqında qanunların qəbul edilməsi, müəyyən qanunvericilik bazasının yaradılması ilə yanaşı, ətraf mühitin mühafizəsi sahəsində dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə islahatların aparılmasına imkan yaranmışdır. Bu istiqamətdə əməli tədbirlər həyata keçirmək məqsədilə 2001-ci ilin may ayında Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi təşkil edilmişdir. Belə bir

strukturun yaradılması nəticəsində ətraf mühitin mühafizəsi sistemində durğunluğa son qoyulmuş, ətraf mühitin və təbii sərvətlərin rəsmi dövlət orqanı tərəfindən idarə olunması üçün əlverişli şərait yaradılmışdır. Ətraf mühitin, təbiətin mühafizəsinə nail olmaq üçün beynəlxalq konvensiyalara qoşulmaqla onların şərtlərinə əməl olunması ən vacib məsələlərdən biridir. Respublikamız 1999–2001-ci illərdə bu sahədə 15 konvensiyaya, o cümlədən, biomüxtəliflik haqqında konvensiyaya, tranzit çayların, su hövzələrinin qorunması konvensiyasına, Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması, zərərsizləşdirilməsinə nəzarət haqqında Barel konvensiyasına, sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsinə dair konvensiyaya qoşulmuşdur.

Ətraf mühiti mühafizə üzrə dövlət idarəetmə sisteminin fəaliyyəti, müasir tələblərə cavab verən qanunvericilik bazasının mövcudluğu və tətbiqi, ekoloji tarazlığın qorunub saxlanması ilə bərabər mövcud ekoloji problemlərin həlli yolunda konkret müsbət nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynamaqla iqtisadiyyatın bir çox sahələrinin inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır. Ölkənin ekoloji siyasətini həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il, dekabrın 26-sı tarixli, 612 nömrəli fərmanının 19-cu bəndinə əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair Milli Proqram" işlənib hazırlanmışdır.

Müasir dövrdə atmosferin ozon qatının zədələnməsi, iqlimin istiləşməsi, səhralaşma prosesinin getdikcə daha geniş ərazini əhatə etməsi, bioloji müxtəlifliyin kəskin azalması, ətraf mühitin çirklənməsi ilə əlaqədar xəstəliklərin geniş yayılması bəşəriyyəti narahat edən qlobal ekoloji problemlərdəndir. Zaman keçdikcə bu problemlərin həlli üçün təxirəsalınmaz tədbirlərin görülməsi aktuallaşır. Vaxtında həllini tapmamış, kiçik bir təbiət hadisəsi kimi izah olunan problemlər artıq bəşəriyyət qarşısında qarşısıalınmaz fəlakətlərlə nəticələnən qlobal problemlərə çevrilmişdir.

1992-ci ildə BMT-nin təşəbbüsü ilə Rio-De-Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda qeyd edildiyi kimi, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır. Bu konfransda dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə müzakirə olunmuş, mühüm qərarlar, o cümlədən, beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş "Davamlı İnkişaf" konsepsiyası qəbul edilmişdir. Bu konsepsiyada iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ilk növbədə ekoloji problemlərin həll olunması, çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön plana çəkilmişdir. Buna nail olmaq məqsədilə ilk növbədə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi və ətraf mühitin qorunması təmin edilməlidir.

Həmin konfransda ekoloji problemlərin həllində hər bir ölkənin ətraf mühitinin qorunmasının vacibliyi iştirakçılara ümumbəşəri kontekstdə çatdırılmışdır. Beləliklə, ekoloji problemlər lokal səviyyədən ümumdünya səviyyəsinə qaldırılmışdır. Bu gün ətraf mühitin mühafizəsi məsələləri aparıcı beynəlxalq təşkilatların proqram sənədlərində öz əksini tapmışdır. Belə ki, bu yaxınlaradək NATO, ATƏT kimi təşkilatlar yalnız milli münaqişələrin həlli və təhlükəsizlik problemləri ilə məşğul olurdularsa, indi ekoloji problemləri gündəliklərinin başlığına çıxarmışlar.

Son illərdə Azərbaycan Respublikası iqtisadi və sosial inkişaf sahəsində kifayət qədər nailiyyətlər əldə etmişdir ki, bu da sosial-iqtisadi göstəricilərin yüksəlməsində öz əksini tapmış, tərəqqi milli və beynəlxalq sənədlərdə təsdiqlənmişdir. İqtisadi və sosial sahələrdə nailiyyətlərin artması, bu prosesin davamlı olması əsas prioritet kimi qəbul edilmişdir.

Müəyyən olunmuşdur ki, daha optimal nəticələr ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair milli proqramın hazırlanması və həyata keçirilməsi əsasında əldə edilə bilər. Belə yanaşmanın müvəffəqiyyətlə reallaşmasının mühüm şərtlərindən biri ətraf mühitin qorunması və təbii sərvətlərdən səmərəli istifadəyə nail olunmasından ibarətdir. Bu sahədə fəaliyyətin planlaşdırılması və mövcud imkanların səfərbər edilməsi üçün Milli Proqram – "Mühüm Addımlar" qəbul edilmişdir. Ölkənin ümumi inkişaf strategiyasının ayrılmaz hissəsi olan bu

proqram ətraf mühitin qorunması, fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə təbii ehtiyatların mühafizəsi, inkişaf prinsiplərinin tətbiqi, ölkənin iqtisadi resursları və insan potensialından istifadə olunması sahəsində davamlılığın təminatına yönəlmişdir. Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə Milli Proqramın həyata keçirilməsi ilə əlaqədar dövlət qurumları və qeyri-hökumət təşkilatlarının fəaliyyəti koordinasiya olunur.

Milli Proqramın həyata keçirilməsi təbii ehtiyatlardan istifadə və təsərrüfat fəaliyyətinin xarakterinin dəyişilməsi ilə ekoloji tələbatlara cavab verən yeni texnologiyaların tətbiqi, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalının optimallaşdırılmasına yönəldilməklə havanın, suyun, torpağın keyfiyyətinin yaxşılaşdırılmasına və təbii ehtiyatlardan səmərəli istifadə olunmasına xidmət edəcəkdir.

Milli Proqram davamlı inkişafın əsas istiqamətlərini müəyyənləşdirməklə, onun bir sıra tədbirlər sistemini əhatə edir. Bu proqramın həyata keçirilməsi üçün müxtəlif sahələr üzrə inkişafın prinsiplərinə əsaslanan fəaliyyət nəzərdə tutulur. Milli Proqram bir tərəfdən davamlı inkişaf sahəsində dünyada toplanmış ən müasir biliklərə, digər tərəfdən isə zamanın sınağından çıxmış və ekoloji prinsiplərə əsaslanan etnik biliklərə, milli mədəniyyətə və təcrübəyə istinad edir.

**ədəbiyyat**

1. Məmmədov Q., Xəlilov M. Ekologiya və ətraf mühitin mühafizəsi . Bakı: Elm , 2005.
2. Xəlilov Ю. Azərbaycanın ekoloji problemləri. Bakı, 2006.
3. Abbasov M. Əsrimizin qlobal ekoloji problemləri . Bakı, 2006.
4. Babayev H. Ekologiya və müasir hidrosfer. Bakı: Çaşıoğlu , 2007.

**Экологическая политика и экологический менеджмент**

**резюме**

В статье рассказывается об экологической политике Азербайджанского правительства. Отмечается, что наилучшие результаты в более экологически устойчивого социально-экономического развитии может быть достигнуто на основе разработки и реализации программы

**Environmental policy and environmental management**

**summary**

That is definded more optimal results in terms of ecological can get sustainable social and economic development in the development and implementation of the National Proqram based on it. One of the most important conditions for the successful reslization of such approach environmental protection and rational use of naturaə resources to achieve.

# UŞAQLARIN İNKİŞAFINDA VALİDEYNLƏRLƏ ƏLBİR İŞİN YOLLARI

**Şərafət Baxışova,**
ADPU-nun məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** uşaq bağçası, valideynlərin maarifləndirilməsi, tərbiyəçi-valideyn əməkdaşlığı, uşağın inkişafı
**ключевые слова**: детский сад, просвещение родителей, сотрудничество воспитателей и родителей, развитие ребенка
**key words:** kindergarten, education of parents, cooperation of tutors and parents, development of the child

Şəxsiyyətin formalaşmasında məktəbəqədər uşaqlıq dövrünün rolu böyükdür. Hər hansı bilik, bacarıq və vərdişlərin əldə edilməsi bu dövrdən başlanmaqla uşağın ümumi inkişafını təmin edir.

Azərbaycan Respublikasının ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində yerinə yetirilən islahatlar cəmiyyətin ilk ocağı olan ailədə çox ciddi dəyişikliklər yaratmışdır.

Şəxsiyyətin yeni keyfiyyətlərlə zənginləşdirilməsi və formalaşdırılması üzrə işin bünövrəsi ailədə qoyulur. Ona görə də müasir dövrdə böyüməkdə olan nəslin yeni maraqlar, qabiliyyətlər, bacarıqlar, dəyərlər əsasında inkişafı problemi aktuallaşmışdır.

Uşaqlar həm məktəbəqədər müəssisədə olduqları, həm də məktəbdə təhsil aldıqları dövrdə valideynlərin diqqət və qayğısına möhtacdırlar. Bu baxımdan valideynlər maariflənməli, bilikli, yüksək intellektual səviyyəyə, geniş dünyagörüşünə malik olmalıdırlar.

Professor Y.Ş.Kərimov yazır: "Hər bir uşaq tədqiq olunmalı, qapalı bir aləmdir. Ondakı qapalı cəhətləri görmək və nəzərə almaq hər bir valideynin borcudur. Uşağı öyrənmək oyun və əyləncə prosesində, onun həyatının hər anında, marağını, meylini, qabiliyyətini, əqli inkişafını izləməyi tələb edir. Bunsuz onu tərbiyə etmək olmaz. "Uşağı bütün münasibətlərdə tərbiyə etmək üçün onu bütün münasibətlərdə öyrənmək lazımdır." Bu müdrik xalq kəlamı tərbiyəçi və valideynlərin qarşısında ciddi vəzifələr qoyur"[2, səh.12].

Tərbiyənin bünövrəsi ailədə qoyulur. Şəxsiyyətin formalaşmasına valideynlərin təsiri böyükdür. Sağlam ailə mühiti, valideynlərin uşaqlara düzgün təsir göstərmək bacarığı mühüm əhəmiyyətə malikdir. Uşaq üçün ən yaxşı nümunə onun böyüdüyü mühit, onu əhatə edən yaxın insanların davranışı, ünsiyyəti və əxlaqıdır. Uşaqlar ilkin müsbət keyfiyyətləri ailədə valideynlərindən götürsələr, məktəbəqədər təhsil müəssisələrində bu keyfiyyətləri təkmilləşdirmək, inkişaf etdirmək daha asan olar.

Valideynlər məktəbəqədər müəssisələrdə uşaqlarının fəaliyyəti ilə maraqlanmalı və onların xarakterlərini möhkəmləndirməkdə tərbiyəçiyə kömək etməlidirlər. Tərbiyəçilər uşaqların təlim-tərbiyəsində, inkişafında olan çatışmazlıqları aradan qaldırmağa çalışırlar. Bu məsələ onların valideynlərlə birgə fəaliyyətləri nəticəsində daha müvəffəqiyyətlə həll olunur.

Valideynlər və tərbiyəçilərin ümumi səyləri uşaq haqqında məlumatın əldə olunmasına, onun ünsiyyət bacarığı, davranışı, rəftarı ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsinə, böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin yaradılmasına yönəldilir.

Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulum) nəinki uşaqlarla təlim-tərbiyə prosesi, eyni zamanda valideynlərlə maarifləndirmə işi aparmağı da nəzərdə tutur. Valideynlərin müntəzəm maarifləndirilməsindən məqsəd odur ki, onlar uşaqların nəzəri biliklərə necə yiyələnmələri ilə yaxından tanış olsunlar.

Valideynlərlə işin məzmunu uşağın tərbiyəsi və hərtərəfli inkişafı məsələlərini əhatə etməlidir.

Uşaqların həyatlarının ilk illərində fiziki, əqli, mənəvi, estetik inkişaflarının düzgün qoyulması, onların məktəbə hazırlanmaları sahəsində istər valideynlərin, istərsə də məktəbəqədər təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşür.

Təcrübə göstərir ki, ilk növbədə uşağın fiziki inkişafının təmin edilməsi diqqət mərkəzində olmalıdır. Valideynlər uşağın sağlamlığının qorunması və möhkəmləndirilməsinə çalışmalıdırlar. Onlar uşağın dözümlülüyü, hər hansı xəstəliyə qarşı immunitetinin gücləndirilməsi üçün nə etmək lazım olduğunu bilməlidirlər.

Valideynlər təlim prosesində uşaqlarla keçirilən bütün kütləvi tədbirlərə cəlb olunur və onların inkişafının stimullaşdırılmasında tərbiyəçilərlə birlikdə fəal iştirak edirlər. Belə qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin hərtərəfli inkişafına, onda özünə inamın yaranmasına təsir göstərir.

Ailə mühitinin və uşaqların əhatəsində olan böyüklərin onlara göstərdikləri təsir əqli inkişaflarında çox böyük rol oynayır. Ona görə də valideynlərin uşaqların əqli inkişafına daha çox diqqət yetirmələri təmin olunmalıdır.

Bu dövrdə məktəbəqədər uşaqların iradi inkişaf sahəsi yeni formalaşmağa başlayır. Müşahidələr göstərir ki, 5 – 6 yaşlılar üçün iradə zəifliyi xarakterik nöqsanlardandır. Uşaqların bəzilərində başladığı işi yarımçıq qoymaq, çətinliklərdən qaçmaq, yüngül məşğuliyyət axtarmaq kimi iradi qüsurlar özünü göstərir. Belə qüsurlar onların təlimdə geriləmələrini şərtləndirən amilə çevrilir. Ona görə də iradi nöqsanların aradan qaldırılması, iradi keyfiyyətlərin formalaşdırılması məktəbə hazırlığın tərkib hissəsidir.

Uşaqların maraqları əvvəlki illərdən fərqli olaraq, yeni məlumatlara, xəbərlərə, kitablara daha çox yönəlir. Tərbiyəçi və valideynlərin əsas vəzifələrindən biri uşaqların kitaba marağını artırmaqdan ibarətdir. Onların kitab oxumaq və nağıl danışmaq texnikasına yiyələnmələri vacibdir. Tərbiyəçilərin valideyn iclaslarında belə məsələlərdən danışmaları və fərdi söhbətlər aparmaları faydalıdır. Məktəbəqədər yaşlı uşaqlar üçün mütaliə onları əyləndirir, kitaba marağı artırır, biliklərlə zənginləşməsinə şərait yaradır.

Uşaqların nitqinin zənginləşməsi bilavasitə təfəkkürün inkişafı ilə bağlıdır. Ətraf aləm, təbiət, əşyalar üzərində müşahidələr onların marağını artırır, nitqlərini inkişaf etdirir. Uşaqlar bir-biri ilə, digər insanlarla sərbəst ünsiyyət qurur, cümlələri məntiqə uyğun tərtib edir, kiçikhəcmli nağıl və hekayələrin məzmununu öz sözləri ilə ifadə edə bilir, ətraf aləmdə baş verən hadisələri əlaqələndirməyi, səbəb-nəticə əlaqələri qurmağı, qarşıya çıxan suallara cavab axtarmağı bacarırlar. Bu xüsusiyyətlər nitqin və zehni inkişafın əsas göstəriciləridir. Bunların inkişafı üçün valideyn və tərbiyəçilərin müvafiq zəmin yaratmaları, uşaqları düşünməyə, müqayisəyə, mühakimə yürütməyə, sual verməyə, öz yaradıcı qabiliyyətlərindən istifadəyə sövq etmələri vacibdir. Uşaqların araşdırma, mühakimə, tədqiqat aparmaqda fəal iştirakları onların maraqlarının oyanmasına, düşünməyə adət etmələrinə, lüğət ehtiyatlarını zənginləşdirmələrinə şərait yaradır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlara milli-mənəvi, ümumbəşəri dəyərlərin aşılanması, onlarda mənəvi hisslərin və vərdişlərin formalaşdırılması yolları ilə valideynlərin tanış edilmələri məqsədəuyğundur. Müstəqil Azərbaycanda bəşəri dəyərlərlə zəngin ideoloji konsepsiyanın yaranması, uşaqların tərbiyəsinin məhz bu konsepsiya üzərində qurulmasının vacibliyi valideynlərin nəzərinə çatdırılır. Onlar öyrənirlər ki, təmiz əxlaqlı, bilikli və nümunəvi davranışa malik şəxsiyyət yetişdirmək yalnız milli-mənəvi dəyərlərlə ümumbəşəri dəyərləri vəhdətdə mənimsətmək əsasında mümkündür.

Valideynlərə uşaqların mənəvi inkişafında əməyin rolu haqqında məlumat vermək, diqqətlərini əməyin roluna yönəltmək, bu prosesdə yaşlıların nümunəsini qeyd etmək məqsədəuyğundur.

Valideynlər uşaqların estetik inkişafı haqqında da fikirləşməlidirlər. Musiqi, təsviri sənət nümunələri, xalq yaradıcılığı və s. uşaqların gündəlik həyatına daxil olmalıdır. Uşaqların ətraf aləm haqqında təsəvvür əldə etmək marağı üstünlük təşkil edir. Onların ətraf aləm haqqında təsəvvürlərini ifadə etmələri üçün incəsənətdən bir vasitə kimi istifadə olunur. İncəsənət

uşaqların ünsiyyət və təfəkkür bacarıqlarının inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. İncəsənət uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafına təkan verir, onların idraki, fiziki, sosial və nitq inkişafında mühüm əhəmiyyət kəsb edir. İncəsənət nümunələrindən istifadə etməklə həyata keçirilən təlim prosesi qərar qəbulu bacarıqlarını aşılamağa, hafizəni fəallaşdırmağa, mənimsəməni asanlaşdırmağa, ünsiyyət yaratmağa, emosional inkişafı gücləndirməyə kömək göstərir.

Tərbiyəçilərlə əməkdaşlıq şəraitində valideynlərin uşaqların yaş xüsusiyyətlərini, fəaliyyətlərini stimullaşdıran öyrədici mühitin vacibliyini, fiziki, emosional müdafiələrinin təmin edilməsini, mühitin təhlükəsizliyinin zəruriliyini, onların fəallığı və təlim-tərbiyəsinin əhəmiyyətini bilmələri məsləhətdir. Valideynlərin pedaqoji mədəniyyətlərinin səviyyəsi bir çox cəhətdən məktəbəqədər müəssisələr zəminində təşkil olunmuş pedaqoji maarifləndirmənin səviyyəsindən asılıdır.

Tədqiqat nəticəsində belə qənaətə gəldik ki, uşaq bağçasında valideynlər üçün "Uşaqlar bizim gələcəyimizdir" mövzusunda dəyirmi masanın təşkili məqsədəuyğundur. Müzakirədə valideynlər öz təcrübələrindən danışır, uşaqlara hansı bədii əsərləri oxumaq, onların təfəkkürünü, nitqini necə inkişaf etdirmək, ətraf mühitlə tanışlıq prosesində dünyagörüşünü genişləndirmək yolları haqqında fikir mübadiləsi aparır, bilmədiklərini öyrənirlər. Bu prosesdə tərbiyəçilər hər uşağın inkişaf səviyyəsini, nailiyyətlərini, bilik və bacarıq əldə etmə imkanlarını valideynlərin nəzərinə çatdırırlar. Valideynlər uşaqların il ərzində qazandıqları nailiyyətlər haqqında məlumat əldə edirlər. Belə görüşlərdə valideynlərdə nikbin əhvali-ruhiyyənin yaradılması bağça ilə ailə arasında əlaqələrin daha da möhkəmlənməsini təmin edir.

Bu məqsədlə uşaq bağçalarında valideyn guşəsinin yaradılmasına xüsusi diqqət yetirilməlidir. Valideynlər guşədə xüsusi metodik, psixoloji ədəbiyyatla tanış olur, uşaqların hərtərəfli inkişafını təmin etməyin səmərəli yollarını öyrənirlər. Guşədəki sərgidə uşaqlarının əl işləri ilə tanışlıq valideynləri onların hərtərəfli inkişafı üçün nə etməyin lazım olduğunu müəyyənləşdirməyə yönəldir.

Valideynlər uşaqların hərtərəfli inkişafı üçün böyük səy göstərir, lakin inkişafetdirici təlim sahəsində kifayət qədər metodik vəsait olmadığından bu mürəkkəb problemin həllində yalnız öz təsəvvürləri ilə kifayətlənirlər.

Ailə ilə iş sistemi aydın məqsəd üzərində qurulmalıdır. Bu sahədə əvvəlki müvəffəqiyyətlər və nöqsanların yaranma səbəbləri öyrənilməli, təhlil edilməli və gələcək üçün iş planı hazırlanmalıdır.

Valideynlərlə əməkdaşlıqda ənənəvi iş formalarının bəziləri müasir formalarla yanaşı tətbiq olunur, mahiyyətcə dəyişərək yeni tələblərə cavab verir. Hər bir ənənə keçmiş innovasiya, hər bir innovasiya isə gələcək ənənədir. Ona görə də əməkdaşlığın ənənəvi formalarından imtina etmək deyil, məqsədləri bilmək və yanaşmanı dəyişmək kifayətdir.

Qrup otağında inkişafetdirici mühitin yaradılması valideynlərlə əməkdaşlığın əsasıdır. Tərbiyəçi və valideyn arasında əməkdaşlığın obyekti uşaq olduğu üçün təlim-tərbiyə işinin onun maraqları üzərində qurulması vacib şərtdir.

Valideynlərlə ənənəvi iş formaları (dəyirmi masa, konfrans, sərgilər, ailəyə baş çəkmək, valideyn iclası, əyani təbliğat, valideynlərin maarifləndirilməsi, "açıq qapı" günü, valideynlər üçün kitabxana, uşaqların çıxışları və s.) ilə yanaşı, innovativ forma və metodlardan da istifadə olunur. Buna misal olaraq aşağıdakıları göstərmək kifayətdir:

- valideynlərin məktəbəqədər təhsil müəssisəsi, onun kollektivi və nizamnaməsi ilə tanışlığı üçün təqdimatın keçirilməsi;
- hər bir uşağın şəxsiyyətinin inkişafı üzrə fəaliyyət növlərinin fraqmentlərlə göstərilməsi; (Bunun üçün məktəbəqədər təhsil müəssisəsinin rəsmi saytı göstərilir. Saytda valideynlər normativ sənədlər, təhsil proqramı və kollektivlə tanış olur, onların işinin təşkilini izləyirlər.);
- uşaqların ailədə həyatını və tərbiyəsini təşkil etmək məqsədilə pedaqoji biliklər universitetlərinin yaradılması;

• valideynlərə təlim-tərbiyə mövzusunda elmi-kütləvi və sənədli filmlərin nümayiş etdirilməsi;
• ailənin uşaqla birlikdə qeyri-ənənəvi formada şəkil çəkdirmələri;
• "Sağlam həyat tərzi" devizi altında uşaqların valideynlərlə birlikdə idman tədbirlərində iştirakı;
• valideynlərlə birlikdə kitabxanaya, muzeyə ekskursiyaların, istirahətin təşkili;
• valideyn və uşaqlar üçün teatr otağının yaradılması;
• ailələr arasında görüşlərin keçirilməsi;
• müəssisənin rəsmi saytı vasitəsilə informasiyanın ötürülməsi.

Tərbiyəçinin valideynlərə ailədə düzgün rejimin qurulması yollarını izah etməsi vacibdir. Valideynin psixoloji hazırlığı da tərbiyəçinin valideynə köməyindən asılıdır. Valideynin uşağın yaddaşını, diqqətini, qabiliyyətlərini, təfəkkürünü müqayisə etmək, ümumiləşdirmək, nəticə çıxarmaq bacarıqlarını inkişaf etdirməyin yollarını da bilməsi məqsədəuyğundur.

Beləliklə, ailə və məktəbəqədər tərbiyə müəssisəsi uşaqlara sosial təcrübə verir. Onların birgə əməkdaşlığı uşaqların böyük aləmə daxil olmaları üçün optimal şərait yaradır. Bu, böyük səbr tələb edən uzun və gərgin yoldur. Ona görə də hər iki tərəfin uşaqlara səbrlə yanaşması zəruridir.

Ailə, uşaq bağçası və məktəbin qarşılıqlı əlaqəsi elmi və pedaqoji cəhətdən düzgün qurulduqda həm məktəbəqədər tərbiyə müəssisəsi, həm də məktəbdə iş səmərəli olur. Təlim-tərbiyə prosesində varisliyin və perspektivliyin gözlənilməsi işi asanlaşdırır.

### ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 1997-ci il, iyulun 31-i, № 1.
2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: Nağıl evi, 2002.
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010 illər). 2007-ci il, aprelin 12-si.
4. Məmmədova P.Ə. Ailədə uşağın məktəbə hazırlanması üzrə işin vəziyyəti. «XXI əsr: məktəb və psixologiya» mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2000.


### Пути совместной работы с родителями в обеспечении развития детей
### резюме


В статье рассказывается о пути совместной работы с родителями в обеспечении развития детей в детс- ком саду. Отмечается, что основная цель детского сада – формирование всесторонне развитой личности. Воспитатель старается устранить недостатки в воспитательно-образовательной работе, а также в развитии ребенка. В результате совместной работы все проблемы находят свое решение.


### The ways of collaboration with parents in ensuring to development of children
### summary


Parents have to be interested with activity of children in kindergarten and help the tutor with strengthening of physical and moral qualities. Main objective of kindergarten – formation of comprehensively developed personality. The tutor tries to eliminate defects of educational work, and also of development of the child. As a result of collaboration of tutors with parents all problems find the solution.

# TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASI MÜƏLLİM HAZIRLIĞININ MÜHÜM AMİLİ KİMİ

**Vaqif Kərimov,**
ARTPİ-nin müəllim hazırlığı və kurikulum şöbəsinin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru,
**E-mail:** k.vagif@rambler.ru

**açar sözlər :** tələbə, şəxsiyyət formalaşdırmaq, müəllim hazırlığı, təlim prosesi, təhsilin əsasları , metod və priyomlar, innovasiya, fənn
**ключевые слова:** студент, формировать личность, подготовка учителя, процесс обучения, основы образования, методы и приемы, инновация, предмет
**key words:** students, to form personality,, teacher training, the training process, through education, methods and techniques, innovation, thing



Müəllimlik müqəddəs peşədir. Tarixən müəllimə həmişə hörmət etmişlər. Onları yetişdirənlərə isə daha çox hörmət etmək lazımdır. Pedaqoji kadrlar dedikdə, məktəbəqədər təhsil sahəsində fəaliyyət göstərən tərbiyəçilər, ibtidai sinif müəllimləri, orta məktəbdə dərs deyən fənn müəllimləri, məktəb rəhbərləri, pedaqoji təmayüllü orta ixtisas və ali məktəb müəllimləri nəzərdə tutulur. Bu kadrlar respublikamızda fəaliyyət göstərən 10 universitet, Azərbaycan Müəllimlər İnstitutu, onun 5 filialı, pedaqoji texnikum və kolleclərdə hazırlanır.

Problemlə əlaqədar tədqiqatın məqsədi həmin müəssisələrdə tədrisin keyfiyyətini açmaqdan daha çox kadrların hazırlanması yollarını araşdırmaqdan ibarətdir. Məlumdur ki, bəzi yerlərdə bacarıqlı müəllim hazırlaya bilmirlər. Müəllim hazırlayanın özü əsl müəllim olmalı, öyrədənlərə öyrətməyi öyrətməlidir. Bu, təqdirəlayiq peşədir. Ümumiyyətlə, öyrədənin əməyi hər zaman dəyərləndirilmişdir. Məhəmməd Peyğəmbər (s.ə.s) demişdir: "Hər kim mənə bir hərf öyrətsə, mən ona qul olaram". Seyid Əzim Şirvanı bu fikri nəzmlə belə qələmə almışdır:

Sənə hər kimsə elm edər təlim,
Ona vacibdir eyləmək təzim.
Harda görsən, ona səlam eylə,
Baş əyib qul tək, ehtiram eylə.

Ümummilli lider Heydər Əliyev demişdir: "Mən şəxsən dünyada müəllimdən yüksək ad tanımıram". Azərbaycan prezidenti İlham Əliyev də müəllimlik peşəsini yüksək qiymətləndirir: "Bizim böyük resurslarımız insanların biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə edərək maddi kapitalı insan kapitalına çevirməliyik". Bu vəzifənin yerinə yetirilməsinin qarantı müəllimdir.

Ümumiyyətlə, insanın həyatı və inkişafı üçün birinci yerdə həkim, ikinci yerdə müəllim durur. Biri onun fiziki, cismani, digəri mənəvi durumuna cavabdehdir. Hər iki peşənin nümayəndələri sağlam, yetkin cəmiyyətin formalaşmasına xidmət edirlər.

Pedaqoji kadrların hazırlanması ciddi problem olub, cəmiyyətimizin inkişafının, millətimizin varlığının, dövlətimizin gələcəyinin mühüm komponentlərindən biridir. Cəmiyyətin müasir inkişaf dövründə yüksək ixtisaslı kadrlar hər şeyi həll edir. Dövlət mexanizminin hərəkətə gətirilməsində yüzdən artıq sənət və peşə sahibi fəaliyyət göstərir. Bu peşələrin içində pedaqoji kadrların fəxri yeri var. Nə üçün bu qənaətə gəlmişik? Ona görə ki, insanın təhsillənməsi, tərbiyə olunması, inkişafı, vətəndaş kimi formalaşması müəllim əməyinin nəticəsidir. Bütün sənətlər və peşələr müəllimin bilavasitə əməyi, rəhbərliyi ilə ərsəyə gəlir.

Pedaqoji təmayüllü müəssisələrin məzunlarının bir qismi ölkəmizin müxtəlif guşələrində bacarıqla fəaliyyət göstərir, öyrənənlərin təlim-tərbiyəsini və inkişafını günün tələbləri sə-

viyyəsində təşkil edirlər. Onların içərisində təhsil islahatlarının həyata keçirilməsinin fəal iştirakçıları, yeni pedaqoji texnologiyaları məharətlə tətbiq edən yaradıcı müəllimlər, "İlin müəllimi" müsabiqəsinin qalibləri, əməkdar müəllimlər var. Bununla belə, son illər, xüsusilə yeni təhsil standartlarının həyata keçirilməsinə başlandıqdan sonra işin öhdəsindən lazımınca gəlməyi bacarmayanların sayı da çoxdur.

Təhsil Nazirliyi tərəfindən keçirilən monitorinq və treninqlərdə bəzi müəllimlərin səviyyələrinin aşağı olması sübuta yetirilmişdir. Şagirdlərin, valideynlərin, cəmiyyətin etirazları, mətbuatda və televiziya verilişlərində tutulan iradlar bu sahədə keyfiyyətin aşağı olmasından xəbər verir. Buna səbəb nədir? Hər şeydən əvvəl, pedaqoji təmayüllü məktəblərə bacarıqlı, məqsədyönlü gənclər cəlb olunmurlar. Bu sahədə mövcud nöqsanların aradan qaldırılmasında uzun illərdən bəri fəaliyyət göstərən Tələbə Qəbulu Komissiyasının fəaliyyəti təqdirəlayiqdir. Komissiya tələbə qəbulunun normal təşkili, bu prosesdə bir çox neqativ halların aradan qaldırılması üçün şərait yaratmışdır. Bu, tələbə şəxsiyyətinin formalaşmasına şərait yaradır.

Müəllim olmaq istəyən tələbələrin şəxsiyyəti necə formalaşmalıdır? Bu haqda pedaqoq, psixoloq və təhsil işçilərinin dəyərli fikirləri vardır. Bununla belə, müəllim hazırlığına diqqət və qayğı ilə yanaşılmır. Müşahidələr göstərir ki, orta təhsil mərhələsində oxuyan uşaqların kiçikyaşlı uşaqlarla davranışlarına, onlara qayğı göstərmələrinə, öyüd-nəsihət vermələrinə, nələri isə öyrətmələrinə əsasən belələrinin müəllim ola biləcəkləri qənaətinə gəlmək mümkündür. Təcrübə göstərir ki, bəzən müəllimlərinin təklifi ilə müəllim olmağa gedənlər həmin sahədə uğur qazanırlar. Təcrübə onu da göstərir ki, müəllimliyə təsadüfi gələn gənclər də var. Azərbaycan Neft Akademiyasında hər il 10–15 nəfər prezident təqaüdçüsü təhsil aldığı halda, Azərbaycan Dövlət Pedaqoji Universitetində bir nəfər də prezident təqaüdçüsü təhsil almır.

Adətən, başqa ali təhsil ocaqlarına daxil olmağa balları çatmayanlarin bir qismi pedaqoji təmayüllü məktəblərə daxil olur. İqtisadçı, mühəndis, həkim olmaq arzusu ilə Tələbə Qəbulu Komissiyasına imtahan verənlərin bir hissəsi "heç olmasa müəllim olum" qənaəti ilə pedaqoji təmayüllü məktəblərə üz tutur. Belələrindən əsl müəllim olacağını gözləmək olarmı?

Tələbəlik dövrünün əsas xüsusiyyətləri şüurlu motivlərin güclənməsi, davranışın sabitləşməsi, özünütəhlil, özünüqiymətləndirmə və özünütərbiyənin məqsədyönlülüyündə özünü büruzə verir. Tələbəlik yetkin insanın sosial rollarının (vətəndaş, ictimai-siyasi xadim, mütəxəssis və s.) mənimsənilməsi və mənəvi təkmilləşmə dövrüdür.

Bakı Dövlət Universitetinin professorları A.Kazımzadə və H.Əlizadə tələbə hazırlığı istiqamətində aşağıdakıları nəzərə almagı lazım bilirlər: "Təlim prosesinin iştirakçıları arasında qarşılıqlı münasibətləri öyrənmək və iştirak fəaliyyətini səmərəli təşkil etməyi, idrak prosesinin səmərəliliyinin yüksəldilməsinə təsir edən amilləri vahid məqsədə yönəltməyi, sinfin idarə olunmasına verilən tələbləri praktik fəaliyyətdə tətbiq etməyi, müəllim-şagird münasibətlərini qarşılıqlı hörmət, tələbkarlıq və digər standartlar əsasında qurmağı, şagird yaradıcılığını dəstəkləməyi, inkişaf etdirməyi, bu məqsədlə müxtəlif təqlidetmə, rəğbətləndirmə metodlarından istifadə etməyi, sinifdə müsbət öyrənmə mühiti yaratmağı bacarırlar".

Göründüyü kimi, müəlliflər tələbə şəxsiyyətinin inkişafını onların müəllim kimi yetişmələrinin əsası hesab edirlər.

Pedaqoji qarşılıqlı təsirin aktuallığını nəzərə alaraq pedaqoji təmayüllü məktəblərdə tələbələrə qayğı ilə yanaşmaq, peşə yönümü üzrə iş aparmaq, onların adaptasiya olunmalarına kömək etmək lazımdır. Məzmun və formaların dəyişməsinə haqq qazandıranların əksinə olaraq müəllim şəxsiyyətinin formalaşması ilə məşğul olan şəxslər tələbələrin təhsil prosesinin təşkilinə qoşulmalarını təmin etməli, onların fəallığına üstünlük verməlidirlər.

Müəllim olacaq tələbələrin hazırlanması gələcəyə istiqamətlənən fəaliyyət olub, şəxsiyyətin formalaşması prosesidir. Gələcək müəllimlərdə pedaqoji mədəniyyətin formalaşdırılması vacib problem olub, kadr hazırlığının əsas tərkib hissələrindən biridir. Onlarda zəruri pedaqoji keyfiyyətlərin tərbiyə edilməsi ustad müəllimlərin şəxsiyyətinin formalaşdırılması kimi mühüm pedaqoji vəzifənin həyata keçirilməsi ilə nəticələnir. Müəllimlərin hərtərəfli hazırlığa malik olmalarından, peşə ustalığına yiyələnmələrindən söz açarkən konkret şəraitə uyğun metod və

priyomların müəyyənləşdirilməsinin əhəmiyyəti böyükdür. Müəllimin dərsdənkənar fəaliyyətini də nəzərə almaq lazımdır.

Müəllim hazırlığı interaktiv pedaqogikaya əsaslanmalı, aşağıdakı sahələrə istiqamətləndirilməlidir:

- peşə fəaliyyətinin ümumi əsasları;
- ixtisas sahələri;
- innovasiyalar.

Bu prosesdə interaktiv təlim metodlarından istifadəyə üstünlük verilməlidir.

XXI əsrdə Azərbaycan təhsil sistemində ciddi islahatlar həyata keçirilir. Bu islahatlar, təhsilin müxtəlif sahələri ilə yanaşı, müəllim hazırlığını da əhatə edir. Hələ 1998-ci ildə "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası" hazırlanmış, Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur. Bu sənədə əsasən ibtidai sinif müəllimi hazırlığı üçün tərtib edilmiş kurikulum (proqram) Azərbaycan Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Pedaqoji Universiteti və Azərbaycan Müəllimlər İnstitutunda eksperimentə qoyulmuşdu. Bu eksperimentdə yeni yaranmış "Təhsilin əsasları" adlı fənnin sınaqdan keçirilməsi nəzərdə tutulurdu. 380 saatlıq bu kurs III, IV və VIII semestrlərdə tədris olunmuşdu.

Bu eksperiment tamamlandıqdan sonra məlum oldu ki, tələbələr özlərini gələcəyin müəllimi kimi hiss edirlər. Onlar şagirdlər haqqında məlumat toplayır, onların evdə və ictimai yerlərdə, ilk dəfə düşdükləri mühitdə hansı hiss və həyəcanları keçirmələri ilə tanış olur, öyrətməyin yollarını öyrənirlər. Beləliklə, tələbələr müəllimin peşəkarlıq səviyyəsinin inkişafını davamlı bir proses kimi dərk edir, məktəbin, tədris prosesinin təkmilləşdirilməsində onun rolunu başa düşürlər.

Azərbaycan çoxmillətli respublikadır. Burada talışlar, ləzgilər, tatlar, avarlar, saxurlar, ingiloylar, qımırlar, rutullar, udinlər və başqa millətlər yaşayırlar. Bu fakt gənclərin müəllim kimi hazırlanmaları prosesində nəzərə alınmalıdır. Azsaylı xalqların kompakt yaşadıqları regionlara təyin olunan gənclər onların adət-ənənələrinə, davranışlarına bələd olmalı, şifahi ünsiyyətə yiyələnməlidirlər. Həmin xalqların öz dillərinin tədrisinə həftədə iki saat ayrıldığı nəzərə alınmalı, imkan daxilində tələbələrə bu haqda təlimat verilməlidir.

Azərbaycanda azkomplektli məktəblərin olması da müəyyən çətinlik yaradır. Tələbələrin I–III, II–IV sinif şagirdlərinin eyni sinifdə, bəzi kiçik kəndlərdə I–IV sinif şagirdlərinin bir sinifdə təhsil almalarının çətinlikləri ilə tanış olmaları vacibdir. Onlar belə şəraitdə dərslərin təşkili metodlarını öyrənməlidirlər.

Tələbələr, adətən, oxuduqları orta məktəbin şəraitinə alışırlar. Bakıda, iri şəhərlər, rayonlar, kəndlər, ucqar yerlərdə müxtəlif dialekt və şivələrin hökm sürdüyü məktəblərin şəraiti ilə tanışlıq da müəllimlərin diqqətini cəlb etməlidir.

Tələbələr xüsusi internat tipli məktəblərin şəraiti ilə tanış olmalı, pedaqoq və psixoloqlar onların inklüziv təhsil hazırlığına malik olmalarını təmin etməlidirlər.

Tələbə şəxsiyyətinin formalaşmasında təhsil sahəsinin nəzərə alınması xüsusi əhəmiyyət daşıyır. Müəllim hazırlığının mühüm sahəsi olan ümumi pedaqoji, didaktik məsələlərdən əlavə surdo, tiflo, oliqofren pedaqogikanı, defektologiyanı, nitq qüsurları və ona qarşı mübarizə yollarını bilmək lazımdar. İnklüziv təhsil xüsusi internatlarda, həmin sahə üzrə mütəxəssis müəllimlər tərəfindən aparılsa da, ümumtəhsil məktəblərindəki xüsusi qayğıya ehtiyacı olan şagirdlər baxımsız qalırlar. Ona görə də müəllim olacaq tələbələr bu sahələri də öyrənməlidirlər. Tələbələr həmin şagirdlərlə işləyərkən spesifik cəhətlərlə yanaşı, onların fərdi psixoloji xüsusiyyətlərini də yaxşı bilməlidirlər. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə işə hazır olmaq tələbədən inteqrativ iş tələb edir. Qeyd edək ki, tələbənin bu sahədə hazırlığına hələlik əhəmiyyət verilmir. Ümumiyyətlə, ali məktəb tələbələrinin peşə hazırlığının meyarları dəqiqləşdirilməlidir.

Şəxsiyyətdən bəhs edərkən onun daxil olduğu qrupla münasibətlərini də nəzərə almaq lazımdır. Tələbə qrup daxilində cəmiyyətin fəal üzvü kimi yetişir. O, qrupda yoldaşları ilə ünsiy-

yətdən məmnun olmalıdır. Qrup ali məktəbin təlim, ictimai, elmi, mədəni həyatında fəal iştirak etməlidir. Şəxsi münasibətlər maraqların, tələbatların, məqsədlərin, baxışların mənəvi-əxlaqi əsasını təşkil edir. Şəxsiyyətin davranışı üzərində kollektiv nəzarət ictimai rəyi formalaşdırır, onun tərbiyəsində həlledici amilə çevrilir.

Ali məktəblərdə müəllim kadrlarının hazırlanmasında metodik biliklərə yiyələnmə də mühüm rol oynayır. Yeni pedaqoji texnologiyalara yiyələnmiş müəllimlərə böyük ehtiyac hiss olunur. Ənənəvi təlimdən fərqli olaraq, müəllimə pedaqoji prosesin bilikləri müəllimdən şagirdlərə ötürən qütbü kimi deyil, gənclərdə həyati bacarıqlara yiyələnməyə maraq yaratmaqla müstəqil düşünmə və qarşılıqlı əməkdaşlıq şəraitində təhsilalanlara bələdçilik edən tərəfdaş kimi yanaşılmalıdır. Bu, pedaqoji kadr hazırlığı sistemində köklü dəyişikliklərin aparılmasına güclü təkan verə bilər. L.S.Vıqotski tələbənin inkişaf etməsi üçün tədrisi onun gücü çatan ən yüksək çətinlik səviyyəsində qurmağı lazım bilirdi.

Pedaqoji kadrların peşə hazırlığını artırmaq, onları şəxsiyyət kimi formalaşdırmaq müəllim hazırlığında əsas vəzifə hesab edilir.

Müəllim hazırlığı tələbələrin məktəb təcrübəsi ilə tanış olmalarını, dərslərin gedişi üzərində müşahidə aparmalarını, müəllimlərin nəzarəti altında nümunə dərsləri demələrini və həmin dərslərin təhlil olunmasını tələb edir. Əsl müəllim məhz bu prosesdə yetişir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasının təhsil haqqında Qanunu. Bakı: Təhsil, 2009.
2. Kərimov Y.Ş. Müəllimlik müqəddəs peşədir. Bakı: "Məktəbəqədər və ibtidai təhsil", 2014, № 3.
3. Ушинский К.Д. Собрание сочинений. 2 том. Москва-Ленинград : издательство АПН РСФСР, 1948.
4. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika (ali məktəblər üçün dərs vəsaiti). Bakı: Renessans, 2000.
5. Abbasov A.N. və başqaları . Müəllim hazırlığına yeni yanaşmalar, Bakı : Mütərcim, 2012 .
6. Kazımov N.M. Məktəb pedaqogikası (ali məktəblər üçün dərslik). Bakı: Çaşıoğlu , 2002.
7. Kazımzadə A., Əlizadə H. Müəllim hazırlığına yeni yanaşmalar . ( "Təhsilin əsasları" fənninin pedaqoji təcrübə ilə inteqrasiyası ). "Azərbaycan müəllimi" qəzeti , 2010-cu il , № 09.


**Роль формирования студенческой личности в подготовке педагогических кадров**

**резюме**


В статье рассказывается о том, что будущий педагог должен формироваться изучая все аспекты отраслей современного образования. Он должен присвоить все формы, средства, методы и приемы учебного процесса. Будущий педагог должен интересоваться организацией внеклассных, внешкольных мероприятий и использовать в этом помощь родителей.

В статье так же отмечается, что будущий педагог должен знать особенности организации обучения в малокомплектных школах, присвоить секреты инклюзивного обучения, уметь работать в школах малочисленных народов и должен владеть школьной практикой.


**Role of the individual in the form of student teacher training**

**summary**


The article explains that future educator should be formed to examine all aspects of modern education sectors. He shall assign all the forms, means, methods and techniques of the educational process. Future teachers must intereslvatsya organization of extra-curricular, extracurricular activities, and use it entirely help of parents.

The article also notes that a future teacher should know the features of the organization of training in small schools, to assign the secrets of inclusive education, to be able to work in schools and Indigenous peoples should own school practice.

# TƏLİM FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ KEYFİYYƏT MEYARLARI

**Zenfira Ağayeva,**
Bakı şəhəri, Nərimanov rayonu 69 nömrəli
körpələr evi-uşaq bağçasının tərbiyəçisi

**Tərbiyəçi öz pedaqoji ustalığını,**
**əsasən, məşğələ zamanı göstərir –**
**yaxşı hazırlanmış, ətraflı düşünülmüş,**
**düzgün keçirilmiş məşğələ.**
***V. A. Suxomlinski***



**açar sözlər:** təlim prosesi, təlim prosesinin iştirakçıları, məşğələ, məşğələnin keyfiyyəti, ünsiyyət, kommunikativ bacarıqlar, müasir texnologiyalar, nailiyyətlər, motivasiya, strateji planlaşdırma

**ключевые слова:** процесс обучения, участники процесса обучения, занятие, качество занятия, общение, коммуниктивные умения, современные технологии, достижения, мотивация, стратегическое планирование

**key words:** learning process, participants in the process of learning, employment, quality of employment, communication, kommuniktivnye skills, advanced technology, achievement, motivation, strategic planning

Təlim prosesinin əsası məşğələdir, yeni terminologiya ilə desək, məktəbəqədər yaşlı uşaqların təlim fəaliyyətinin təşkilidir. Məşğələ təlim prosesinə ayrılmış müəyyən vaxt müddətində təşkil olunur.

Təlim prosesinin iştirakçıları tərbiyəçi və uşaqlardır. Tərbiyəçi öyrədən, uşaq isə öyrənəndir. Tərbiyəçi daim öz fəaliyyətini təhlil edir: Necə öyrədir? Məşğələ keyfiyyətli keçdimi? Deməli, tərbiyəçinin öz fəaliyyətini təhlil etməsindən məqsəd keçirdiyi məşğələnin keyfiyyətini müəyyənləşdirməkdir. Belə qiymətləndirmə vasitəsilə onun fəaliyyətinin effektivliyi, əldə etdiyi nailiyyətlər, potensial imkanları müəyyən olunur.

Uşaqlarla ünsiyyət zamanı yalnız söz yox, intonasiya, səs tembrı, mimika, emosiya da mühüm rol oynayır. A.S.Makarenko öz təcrübəsi haqqında danışarkən deyirdi : "Mən əsl professional müəllim o vaxt oldum ki, "Bura gəl! " sözlərini 15–20 tərzdə deməyi öyrəndim, səsimi, mimikamı 20 cür dəyişə bildim". Psixoloji tədqiqatlara əsasən, şəxsiyyətlərarası münasibətlərdə qeyri-verbal kommunikasiya zamanı informasiyanın 65%-i bədən hərəkətləri vasitəsilə, 55 %-i səslə, 38 %-i sözlə ötürülür. Kommunikativ bacarıqlar daim təkmilləşdirilməlidir.

V. A. Suxomlinski demişdir: " Uşağı tərbiyə edərkən sən özünü tərbiyə edirsən, öz insani ləyaqətini təsdiqləyirsən".

Uşaqlara hansı məşğələlər maraqlıdır? Məktəbəqədər yaşlı uşaqlar üçün emosional, parlaq, səsli, süjetli məşğələlər maraqlıdır. Tədris prosesi məqsədyönlü, intensiv, şən olmalıdır. Məşğələlərin maraqlı keçməsi üçün müxtəlif iş formaları və metodlar mövcuddur. Uşaqların fəaliyyətinin təlim prosesində fəallaşmasını müasir texnologiyalar, internet-resurslar, müxtəlif pedaqoji metod və priyomlar vasitəsilə təmin etmək, məşğələlərin effektivliyini, keyfiyyətini artırmaq mümkündür.

Uzun illər məktəbəqədər yaşlılarla çalışan Qlen Doman apardığı müşahidələr nəticəsində belə qənaətə gəlmişdir ki, məhsuldar fəaliyyət yüksək motivasiyanın nəticəsi, uğursuz

nəticə isə motivasiyanın olmamasıdır. Nailiyyət motivasiyadan yaranır. Uşağa sevgi və hörmət yüksək nailiyyətlərə gətirən yoldur. Sevgi və müsbət qiymətləndirməni hər uşaq arzulayır.

Təlimin keyfiyyəti 3 amildən asılıdır:

- tədrisin keyfiyyəti;
- verilən məlumatın keyfiyyəti;
- mənimsəmə keyfiyyəti.

Məlumat o vaxt keyfiyyətli sayılır ki, o, səmimi, dolğun və vaxtında verilmiş olsun. Məlumdur ki, uşağın 2 yaşından 5 yaşına qədər dərk etdikləri və mənimsədikləri həyatının sonuna qədər dərk etdiklərindən çoxdur. Ona görə də tərbiyəçinin əsas məqsədi hər bir məşğələnin maksimum dərəcədə öyrədici olması, müxtəlif iş formaları, metod və priyomlardan istifadə yolu ilə təlim məqsədlərini realizə etmək, uşaqları lazımsız informasiya ilə yükləməməkdir.

Hər bir məşğələdə didaktik, rollu, stolüstü oyunlardan ; rəqs, fiziki hərəkətlər, idman dəqiqələrindən; mahnı, musiqi parçalarından; kukla teatrı, nağıl personajları və ya səhnəciklərdən; əl işlərindən; tədqiqat nəticələrindən (təcrübə) istifadə etmək olar.

Bəzən tərbiyəçilər uşaqların məşğələdə özlərini yaxşı aparmamalarından, diqqətsiz olmalarından, dərsin maraqsız keçməsindən şikayət edirlər. Əslində məşğələnin alınmamasında uşaqların təqsiri yoxdur. Oskar Uayld demişdir: "Uşaqları ələ almağın ən asan yolu onları xoşbəxt etməkdir". Odur ki, tərbiyəçi təlim-tərbiyənin metod və priyomları ilə yanaşı, uşaq kollektivini idarə etməyin sirlərini də bilməlidir:

- Tapşırıqlar dəqiq olmalı və yerinə yetirilməsinə nəzarət edilməlidir.
- Davranış mədəniyyəti, uşağı dinləməyi bacarmaq, ilk təəssuratları büruzə verməmək, onun hər hərəkətinə düzgün reaksiya vermək vacibdir.
- Vaxtı düzgün bölmək məşğələnin təşkilində əsas amillərdən biridir.
- Uşaqların tədris prosesinin təşkilinə cəlb edilmələri onların marağını artırır.

Hər bir tərbiyəçi çalışır ki, apardığı məşğələlər maraqlı və əyləncəli olsun. Bunun üçün o, aşağıdakı qaydalara riayət edir:

1. Məşğələ üçün tərtib etdiyiniz plana əməl olunmalıdır, lakin plan doqma deyil. Onu hər vaxt zənginləşdirmək, yeniləşdirmək mümkündür.
2. Proyektor, kompyuter kimi texnologiya vasitələrindən istifadə məqsədə uyğundur.
3. Hər bir məşğələdə qarşıya qoyulan konkret vəzifə və məqsədlərin reallaşdırılmasına yaradıcı yanaşmaq lazımdır. Sağlamlığı qoruyan texnologiyaları nəzərə almaqla uşaqlara məşğələnin strukturunu gözləmək, salamlaşma və vidalaşma etiketlərini öyrətmək olar. Zehni və fiziki hərəkətli tapşırıqları növbələşdirməyi unutmayın, çünki uşaqlar hərəkətsiz vəzyyətdə çox oturarkən yorulurlar.
4. Məşğələlərdə paylayıcı didaktik materiallardan istifadə edin. Nümayiş olunan vəsaitlər nəzərəçarpan olmalı, didaktik, estetik tələblərə cavab verməli, rəngarəngliyi ilə seçilməlidir.
5. Test tapşırıqları maraqlı olmalı, uşağı düşündürməlidir. Nəyi isə haşiyəyə almaq, xəttin üstü ilə getmək və s. kimi bəsit hallarla yox, düşündürücülüyü, inkişafetdiriciliyi ilə fərqlənməlidir.
6. Unutmaq olmaz ki, bağça məktəb deyil, məktəbi bağçaya "gətirmək" olmaz. Məşğələlərdə məktəb təlim sistemindən istifadə etmək məsləhət görülmür. Məşğələ dərs deyil. Məktəbəqədər yaşlı uşağın aparıcı fəaliyyət növü oyundur. Uşaqları oyunlar vasitəsilə öyrədin, inkişaf etdirin. Nəzərə alın ki, məşğələlərdə də uşağın həyatı davam edir.
7. Rollu və süjetli oyunlardan çox istifadə edilməlidir. Oyun vasitəsilə öyrətmək ən effektli metoddur. Tərbiyəvi xarakter daşıyan oyunlardan istifadə də məqsədə uyğundur.
8. Məşğələni elə planlaşdırmaq lazımdır ki, hər bir uşaq öz fikrini söyləmək imkanı tapsın, sual verə bilsin, mövzu ilə əlaqədar təəssüratları ilə bölüşsün, öz cavablarını əsaslandıra bilsin. Məşğələ prosesində alınan müsbət emosiyalar çox vacibdir.

9. Məşğələ zamanı hər cür gözlənilməz hallara hazır olmaq lazımdır. Uşaqlar rahat, asudə olmalı, stress vəziyyəti yaranmamalıdır.

10. Məşğələlər rəngarəng, yaradıcı və inkişafetdirici tapşırıqlarla zəngin olmalıdır. Hər məşğələdə problem-situasiya yaratmaq və uşağı bu situasiyadan çıxış yolu axtarmağa təhrik etmək lazımdar. Motivasiya, stimullaşdırma məşğələnin mühüm tərkib hissələridir.

11. Çalışmaq lazımdır ki, uşaqlar məlumat almaq üçün 5 hissetmə orqanının hamısından istifadə etsinlər. Bunun üçün müvafiq tapşırıqlar seçmək lazımdır. Uşaq müəyyən əşya haqqında tərbiyəçinin söylədiklərini eşitməklə yanaşı, həm də onu görməli, hətta iyləməlidir.

12. Uşaqlar hər zaman əməklərinin (rəsm, əl işi, yerinə yetirilən tapşırıq), öyrəndiklərinin nəticələrinin qiymətləndirildiyini görməlidirlər.

Uşaqlarla işləyən hər bir tərbiyəçi bacarıqlı, müvəffəqiyyətli olmalıdır. Uilyam Ualt müvəffəqiyyətli müəllim olmağın yollarından danışarkən yazır: "Öyrənin. Başqaları yatarkən, siz işləyin, başqaları əylənərkən, avaralanarkən, siz hazırlaşın, başqaları istəyərkən, siz arzulayın". Əgər tərbiyəçi bu məsləhətlərə əməl etsə, hər məşğələyə yaradıcı yanaşacaq və öz əməyinin bəhrəsindən zövq alacaqdır.

Əgər tərbiyəçi öz fəaliyyətini planlaşdırarsa, məşğələ keyfiyyətli alınacaq. Unutmaq olmaz ki, hər bir məşğələnin məzmunu vahid təlim-tərbiyə vəzifələri və məqsədlərinin həllinə istiqamətlənir.

Məşğələnin quruluşu necə olmalıdır?

**Məşğələnin başlanğıcı** motivasiyanın qoyulması ilə xarakterikdir. Motivasiyadan məqsəd uşaqları fəaliyyətə təhrik etmək, qrupda müsbət mikroiqlim yaratmaqdır. Ənənəvi salamlaşma, kollektiv oyunlar, maraqlı çalışmalar, maraqların stimullaşdırıması, emosional durum bu iqlimi yaradan faktorlardır.

**Məşğələnin əsas hissəsi.** Keçilən mövzunun izahı və möhkəmləndirilməsi, qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi bu mərhələdə həyata keçirilir. İş formaları kimi tərbiyəçinin izahı və uşaqların müstəqil fəaliyyəti əsas götürülür.

**Məşğələnin sonu (yekun, qiymətləndirmə).** Bu mərhələdə öyrənilən mövzu möhkəmləndirilir, uşaqların fəaliyyəti qiymətləndirilir, gələcək məşğələlər üçün zəmin yaradılır.

Hər bir təhsil ocağı təhsil, tərbiyə funksiyalarını yüksək səviyyədə, keyfiyyətli yerinə yetirməlidir, çünki «Uşaqlar bizim qocalığımızdır. Düzgün tərbiyə – bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə – bizim gələcək dərdimiz, göz yaşlarımız, başqalarının qarşısında təqsirimizdir" ( V.A. Suxomlinski).

Hər bir tərbiyəçi aşağıdakı fikirləri öz kredosuna çevirməlidir:

- uşaqları sevmək;
- uşaqlara düşünməyi və sevməyi öyrətmək;
- uşağın qəlbinə yol tapmaq;
- özünü uşaqlara həsr etmək;
- onları qorumaq;
- hər gün yeni bilik vermək;
- ömür boyu təhsil;


**ədəbiyyat**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşməsi Proqramı (2007–2010-cu illər). Bakı: "Xalq" qəzeti, 2007-ci il, aprelin 12-si .
2. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası. Bakı, 2007-ci il, iyunun 25-i.
3. Məktəbəqədər təhsilin proqramı (kurikulum). Bakı: «Təhsil», 2010-cu il, iyulun 12-si .
4. Сухомлинский В. А. Сердце отдаю детям. Киев : «Радяньска школа», 1985.
5. Kərimov Y.Ş. Uşaq bağçası ilə məktəb arasında varislik və perspektivlik. Bakı: "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2000, №1.
6. Sadıqova T. Uşaq bağçası və məktəb arasında varislik mühüm pedaqoji problemdir. Bakı: "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2001, №4.

**Критерии качества в организации учебной деятельности**
**резюме**

В статье рассказывается о критериях качества в организации учебной деятельности. Указывается на то, что процесс обучения должен быть сосредоточенным, интенсивным, радостным для детей. Отмечается, что одним из ключевых факторов успеха является стратегическое планирование.

**Quality criteria in the organization of training activities**
**summary**

The article describes the quality criteria in the organization of training activities. It is pointed out that the learning process should be focused, intense, joyful children. It is noted that one of the key success factors is strategic planning.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ ÜÇÜN RƏHBƏR PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

**Xalidə Həmidova,**
"Məktəbəqədər və ibtidai təhsil" jurnalının
şöbə redaktoru, ARTPİ-nun doktorantı



**açar sözlər:** məktəbəqədər təhsil müəssisəsi, menecment, rəhbərlik, menecer hazırlığı, fəaliyyət, menecmentin keyfiyyəti
**ключевые слова:** дошкольное образовательное учреждение, менеджмент, руководство, подготовка менеджеров, деятельность менеджера, качества менеджмента
**key words:** kindergarden, management, leadership, preparation of managers, manager's activity, management qualities

Təhsil sahəsində aparılan islahatların tələbləri baxımından məktəbəqədər təhsil müəssisələri rəhbərlərinin rolu və fəaliyyəti ciddi müzakirə obyektinə çevrilmişdir. Haqlı olaraq qeyd edilir ki, məktəbəqədər təhsil müəssisələrinin qarşısında qoyulmuş tələblərin müvəffəqiyyətlə həyata keçirilməsində onu idarə edənlər xüsusi rol oynayırlar.

Müasir dövrdə həyata keçirilən islahatlar məktəbəqədər təhsilin idarə edilməsi prosesinin təkmilləşməsini, yeni tələblər əsasında qurulmasını zərurətə çevirmişdir.

Məktəbəqədər təhsilin əsas məqsədi uşaqların demokratik hüquqi dövlətdə yaşamalarını təmin etmək üçün onları bu cəmiyyətin prinsipləri ruhunda tərbiyələndirməkdən ibarətdir. Bu gün qabaqcıl ölkələrin təhsil sistemində baş verən müsbət cəhətləri dövlətimizin siyasətinə, milli-mənəvi dəyərlərimizə uyğunlaşdırmaq əsas vəzifələrdəndir.

Bir çox hallarda idarəetmədə mövcud olan ənənələr və yeni təcrübələr günün tələblərinə cavab vermir. Məktəbəqədər təhsil mütəxəssisləri içərisindən ən bacarıqlı şəxsləri rəhbər vəzifəyə irəli çəkmək mühüm problemdir. Rəhbər pedaqoji kadrların peşə hazırlıpı və şəxsi keyfiyyətləri dövrün tələblərinə cavab verməlidir. Onların sosioloji, hüquqi, psixoloji, iqtisadi, etik-estetik hazırlıqları, dünyagörüşləri, xarici təcrübədən istifadə bacarıqları, hərtərəfli bilik, bacarıq və vərdişlərə yiyələnmələri çox əhəmiyyətlidir. Təcrübə göstərir ki, təhsil menecerləri nəticəyönümlü idarəetmənin mürəkkəb problemlərinin həllində müəyyən çətinliklərlə üzləşirlər. Bu səbəbdən də idarəetmənin təkmilləşdirilməsi günün vacib məsələsidir.

İdareəetmə nəticəyönümlü olmalıdır. Nəticəyönümlü idarəetmə – məqsədəuyğun qərarların qəbul olunması, idarə edilən obyektə nəzarət, tənzimləməyə yönəlmiş fəaliyyət, düzgün informasiyalar əsasında işin təhlili və onun yekunlaşdırılması kimi başa düşülür. Təhsil sistemini nəticəyönümlü idarə etmək həmin müəssisənin daxilində baş verən təşkilati, pedaqoji və metodik prosesləri şüurlu tənzimləmək deməkdir.

"*Menecment*" ingiliscə "*manus*" sözündən götürülüb, "*rəhbərlik*" mənasını verir.

"Menecment", "nəticəyönümlü idarəetmə", "menecer" və "rəhbər" anlayışları, əsasən, eyni

məna daşıyır, lakin mütəxəssis yanaşmasında fərqli cəhətlər də mövcuddur:

"Menecment" sözünün konkret mənası "insanların əməyi, intellekti, davranış motivlərindən düzgün istifadə edərək qoyulmuş məqsədlərə nail olmaq" deməkdir. Menecment–nəticəyönümlü idarəetmə funksiyası, müəssisələrdə insanlara rəhbərlik fəaliyyəti formasıdır. Menecment həmin funksiyanın həyata keçirilməsinə bilavasitə kömək edən biliklərin konkret sahəsidir. Nəhayət, menecment – menecerlər birliyi kimi nəticəyönümlü idarəetməni həyata keçirən müəyyən kateqoriyaya məxsus insanların sosial təbəqəsidir.

"Nəticəyönümlü idarəetmə" dedikdə, bütün nəticəyönümlü idarəetmə sistemi nəzərdə tutulur.

"Menecer" dedikdə, konkret fəaliyyət göstərən, nəticəyönümlü idarəetmə subyekti olan şəxsiyyət, peşəkar idarəedən başa düşülür. Həmin şəxs nəticəyönümlü idarəetmə sahəsində xüsusi hazırlıq keçmiş, ixtisaslaşmış mütəxəssisdir. Digər sistemlər kimi, təhsil sistemində də nəticəyönümlü idarəetmə, menecer fəaliyyəti mövcuddur. Nəticəyönümlü idarəetmə nəzəriyyəsinin predmeti təhsil menecerinin nəzəri və praktik problemlərinin öyrənilməsidir. Bu elmin obyekti təhsil müəssisəsi, təhsili idarə edən təşkilatlardır.

Menecment iki istiqamətdə həyata keçirilir.

• **Təlim-tərbiyə prosesinin təşkili və təkmilləşdirilməsi.** Buraya təhsilalanların həyata hazırlanmalarında sosial sifarişlərin nəzərə alınması və təlim-tərbiyə prosesinin təşkili, tədrisin maddi bazasının yaradılması, başqa sözlə – istehsalatın təşkili daxildir.

• **Təhsil müəssisəsi əməkdaşlarının şəxsi maraq və tələbatlarının təmin olunması.** Bu, sosial funksiya olub, aşağıdakıları özündə birləşdirir: təhsil işçilərinin maddi-mənəvi tələbatlarının ödənilməsi üçün komfort şərait, fəaliyyət üçün xoş mikroiqlim yaratmaq.

Kollektivdə məhsuldar işləmək üçün sosial-psixoloji vəziyyət, kollektiv üzvlərinin təşkili, onların fəallaşdırılması, stimullaşdırılması, özünüidarənin təşkili təmin olunmalıdır.

Menecerlər üçün aşağıdakı idarəçilik keyfiyyətləri vacibdir:

• liderlik;
• tabelikdə olanlara təsiretmə qabiliyyəti;
• kommunikativ səriştəlilik;
• səlahyyətlərin aşağı idarəetmə səviyyələrindəki rəhbərlərə verilməsi və s.

İşçilərə yüksək təsiretmə qabiliyyətinə malik olmaq üçün intizam gözlənilməli və səliqəli geyimə riayət olunmalıdır. Menecerin etibar qazanmasına və onun işinin nəticələrinə geyim və xarici görünüşün təsiri faktı Qərb menecmenti təcrübəsində təsdiq edilmişdir.

Menecerlərin fəaliyyətində nitq qabiliyyətinin təsiri böyükdür. Yalnız özünə əmin olan şəxs fikirlərini sərbəst ifadə edir və başqalarının hüquqlarını gözləməklə onları dinləməyə məcbur edir. Nitqi aydın olan rəhbərin işçiləri inandırmaq qabiliyyəti də yüksək olur.

Qabiliyyət və özünəinam menecerə xas olan müsbət keyfiyyətlərdir. Özünə inamlı rəhbərin qərar qəbul etməsi daha asan olur. Problemlərlə əlaqədar qərar qəbul edilərkən rəhbərin fikrinə üstünlük verilir.

Hər bir insan psixoloqların *kommunikativ təcrübə* adlandırdıqları vərdişlərə malikdir. Əgər menecer əlaqələndirmə və ünsiyyətin təşəbbüsçüsü kimi funksiyaları yerinə yetirə bilmirsə, deməli, onun peşəkar nəticəyönümlü idarəetmə fəaliyyəti yararsızdır. İstehsal münasibətlərində humanitar aspektlərin artdığı müasir dövrdə rəhbərin əlaqələndirmə səriştəsi onun peşəkar idarəçiliyinin başlıca cəhəti kimi dəyərləndirilir.

Menecerin ünsiyyət bacarığı həm də stimullaşdırıcı amillərdən biridir. Ünsiyyət bacarığı hər hansı şəraitə uyğunlaşmağa imkan verir. Rəhbər işçi ünsiyyətin əlaqələndirici cəhətinə lazımi əhəmiyyət vermədikdə çox şey itirir. Rəhbər insanları cəlb etməyi bacarmalı, onlara xoş münasibət göstərməli, hörmət və etibar qazanmalıdır. O, öz hərəkətlərinə nəzarət etməli, işgüzar ünsiyyət etikasını gözləməli, davranış taktikası barədə düşünməli, son nəticəni proqnozlaşdırmalıdır.

Menecerin əsas vəzifələrindən biri təşkilatın yaşamasını təmin etməkdir. Əgər bu vəzifə

təmin olunarsa, istehsal və nəticəyönümlü idarəetmə, səmərəlilik kimi problemlər də həll ediləcəkdir.

Menecer öz biliyini müntəzəm artırmalı, yeniliyi, mütərəqqi texnika və texnologiyaları öyrənməli və tətbiq etməlidir.

Bütün səviyyələrdə çalışan menecerlər üçün xarakterik olan ümumi keyfiyyətlər və tələblər, demək olar ki, eynidir. Hər bir menecer aşağıdakı keyfiyyətlərə yiyələnməlidir:

- öz nəzəri biliyini və səriştəsini artırmaq;
- rəqabətədözümlülüyü təmin etmək;
- işçiləri seçmək və onları fəaliyyətə hazırlamaq;
- rəhbərliyin sərəncamlarını yerinə yetirmək və subordinasiyaya riayət etmək;
- insanlarla ünsiyyət qurmaq, yeni, yaradıcı, səmərələşdirici fəaliyyətləri dəstəkləmək;
- şikayətçiləri dinləmək və şikayətlərin səbəblərini araşdırmaq;
- təsərrüfatçılığın və idarəçiliyin hüquqi normalarını bilmək;
- xarici mühitdə baş verən hadisələri, onların təsirini əvvəlcədən görmək;
- iqtisadi qanunları bilmək və onlara əməl etmək.

Məktəbəqədər təhsilin idarə edilməsi yeni demokratik prinsiplərin, işlək mexanizmlərin hazırlanması və həyata keçirilməsi islahatın gedişində aparıcı istiqamətlərdən biri olmaqla müasir dövrün əsas tələblərindəndir.

Dünya təcrübəsi göstərir ki, müasir tədris müəssisəsinin rəhbəri real vəziyyəti tam öyrənmədən, onu müzakirə etmədən, şuranın rəyini nəzərə almadan hər hansı bir qərar qəbul edə bilməz. Deməli, tərbiyəçinin, valideynin rəyi mütləq nəzərə alınmalıdır. Belə yanaşma rəhbərin fəaliyyətinin dərk olunmasını təmin edir.

Prosesin bu səpkidə istiqamətlənməsi nəticəyönümlü idarəetmədə demokratikləşməni təmin etməlidir. Tərbiyəçi məktəbəqədər təhsil müəssisəsinin həyatında baş verən bütün proseslərin bilavasitə iştirakçısına çevrilir, təlimi idarə edir. Məktəbəqədər təhsilin idarə olunması sahəsində qazandığımız ilk uğurlar, dünya təcrübəsinin nəzərə alınması ilə yanaşı, ölkəmizdə yaranmış təcrübədən istifadə edilməsi nəticəsində mümkün olmuşdur.

İnsan münasibətlərinin dünyanın qlobal problemlərindən birinə çevrildiyi indiki dövrdə nəticəyönümlü idarəetmə və ya menecment nəzəriyyəsi xüsusi aktuallıq kəsb edir.

Nəticəyönümlü idarəetmənin əsas məqsədi şəxsiyyətin, cəmiyyətin təhsilə olan tələbatını ödəmək üçün ictimai xarakterli, yeni nəticəyönümlü idarəetmə modelinin yaradılmasıdır. Təhsil sistemində nəticəyönümlü idarəetmə ictimai-siyasi həyatımızda aparılan demokratikləşmə prosesinə uyğun qurulmalı, planlaşdırma, əlaqələndirmə, tənzimləmə, nəzarət və s. funksiyalar yeni məzmun və formalara əsaslanmalıdır.

Müasir məktəbəqədər təhsilin əsasını texnoloji innovasiyalar, kompyuter və telekommunikasiya texnologiyaları təşkil edir. Təhsil sistemində menecmentin vacib xüsusiyyətləri ondan ibarətdir ki, sadaladığımız texnologiyaların tətbiqi tərbiyəçilərin pedaqoji fəaliyyətinə də öz təsirini göstərir.

Təhsil sahəsində innovasiya prosesləri məktəbəqədər təhsilin, təlimin predmetinə çevrilir, gələcək pedaqoji reallığı proqnozlaşdırmaq və layihələşdirmək üçün mühüm əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində innovasiyaların müvəffəqiyyətlə həyata keçirilməsi üçün ilk növbədə menecer özü innovator olmalı, kadrlara innovasiya proseslərini dərindən öyrətməlidir.

Təcrübə göstərir ki, idarəedən və onun müavinləri necədirlərsə, pedaqoji kollektiv də elə istiqamətlənir. Tərbiyəçilər özünüidarə bacarıqlarına yiyələnməmişlərsə, uşaqlarda özünüidarədən söhbət gedə bilməz. Pedaqoji kollektiv yaradıcı olmalıdır ki, məşğələlər də yaradıcı olsun.

**ədəbiyyat**

1. Azərbaycan Respublikasının təhsil haqqında Qanunu. Bakı, 2009.
2. Qeybullayev Q. İdarəçiliyin – menecmentin əsasları. Bakı, 2000.

3. Езопова С.А. Менеджмент в образовании (учебное пособие для студентов высших педагогических учебных заведений ). Москва: Академия, 2003.
4. Третьяков, П.И., Белая К.Ю. Дошкольное образовательное учреждение: управление по результатам (2-е издание, переработанное и дополненное). Москва: ТЦ «Сфера», 2007.

**Роль менеджмента образования в управлении образовательными учреждениями**
**резюме**
В статье раскрываются суть и качества менеджерской деятельности, роль менеджмента и менеджера в управлении образовательными учреждениями и подготовка специальных кадров – менеджеров образования для Азербайджанской системы образования.

**The role of education management in managing educational institutions**
**summary**
The article deals with the content and qualities of managerial activities, role of managers and management in managing educational institutions and preparation of specialists i.e. education managers for Azerbaijan education system.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİ

**Elmira Məhərrəmova,**
Azərbaycan Müəllimlər İnstitutunun
Təhsildə İnnovasiyalar və Araşdırmalar
Mərkəzinin metodisti



**açar sözlər:** məktəbəqədər yaş, tərbiyə, ekologiya, ətraf mühit, təbiət, atmosfer, heyvanat aləmi, sağlamlıq, qayğı
**ключевые слова:** дошкольный возраст, воспитание, экология, окружающая среда, природа, атмосфера, мир животных, здоровье, забота
**key words:** preschool age, education, ecology, environment, nature, the atmosphere, the animal world, health, care

Cəmiyyətin gələcəyi uşaqlarla işdən asılıdır. Nəsillər bir-birini əvəz edir, bu günün körpələri sabahın yetkin insanları, valideynləri olacaqlar. Bu, o deməkdir ki, əgər biz cəmiyyətin məhsuldar inkişafını istəyiriksə, ilk növbədə uşaqların tərbiyəsi qayğısına qalmalıyıq.

Ümummilli liderimiz H.Əliyev milli tərbiyədən bəhs edərkən demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalı, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidirlər".

Müasir mərhələdə yetişməkdə olan gənc nəslin ekoloji tərbiyəsi də cəmiyyətin qarşısında duran qlobal problemdir. Ekologiya ilə bağlı əksər sənədlərdə ekoloji tərbiyə məsələlərinin, ətraf mühitin qorunmasının əhəmiyyəti qeyd olunur. Bu işin məktəbəqədər dövrdən başlayaraq həyata keçirilməsinin vacibliyi öz əksini tapır.

Elmi tərəqqi əsrində yaşayan hər bir adamın təbiəti qoruması, onun sərvətlərindən səmərəli istifadə olunması cəmiyyətin sağlamlığını təmin edir. Ona görə də ən kiçik yaşlardan başlayaraq gələcək nəslin ekoloji tərbiyəsi zəruri problemdir. Uşaqlara təbiəti qorumaq, onun sərvətlərindən səmərəli istifadə etməklə əlaqədar məsuliyyət hissi aşılamadan onlara ətraf mühitin qorunmasının nə üçün vacib olduğunu dərk etdirmək mümkün deyil.

Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində deyilir:
"I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.
II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır".

*Ekologiya* yunan sözü ("oikos") olub, mənası "məskən, vətən," "logos"– "elm" deməkdir. Ekologiya canlı təbiət və onun ayrı-ayrı tərkib hissələri ilə xarici aləmin qarşılıqlı münasibətlərini öyrənən elmdir. Ekologiya yunan sözü olsa da, onu termin kimi ilk dəfə alman bioloqu Ernst Hekkel işlətmişdir. Ekoloji sistemin yaranması yer üzərində canlı aləmin əmələ gəlməsi və onun inkişafı ilə sıx bağlıdır. Ekologiyanın elmi əsasını Ç.Darvin qoymuşdur.

Müşahidələr göstərir ki, təbiət nə qədər zəngin olarsa, maddi nemətlər bir o qədər bol olar, nə qədər gözəl olarsa, o qədər də insanın zövqünü oxşayar. Təəssüf ki, insanlar bəzən istər-istəməz təbiətə qəsd edir və bunun ziyanını görürlər. Ətraf mühitə fasiləsiz atılan tullantılar atmosferi, suyu, torpağı çirkləndirir, havanı zəhərləyir. Bu faktlar göstərir ki, insanların ətraf mühitə laqeyd münasibəti müasir dövrün ən qlobal problemlərindən biridir.

Bu gün ətraf mühitin qorunması məsələsinin dövlət tərəfindən ciddi problem kimi cəmiyyət qarşısında qoyulması gənc nəslin tərbiyəsinə müsbət təsir göstərir. Uşaqlarda təbiətə, onun sərvətlərinə məhəbbət və qayğı kiçik yaşlarından təşəkkül tapmağa başlayır. Buna görə də məktəbəqədər tərbiyə müəssisələrində və məktəblərdə uşaqları təbiətin gözəlliklərinə məhəbbət ruhunda tərbiyə etmək, bitki və heyvanat aləminin qorunmasının əhəmiyyətini onlara başa salmaq, təbiətə qayğı hissini aşılamaq diqqət mərkəzində olmalıdır. Uşaqlar məktəbəqədər dövrdən başa düşməlidirlər ki, təbiətin mühafizəsi onun sərvətlərinin qorunması və artırılması qayğısına qalmaq deməkdir. Onlar bilməlidirlər ki, torpaq, hava, su, meşə, bitki və heyvanlar aləmi, habelə bütün faydalı qazıntılar xalqın sərvətidir.

Uşaq bağçalarında ekoloji tərbiyə bir sıra konkret vəzifələrin həllinə xidmət etməlidir. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

- Ekoloji tərbiyə uşaqlarda təbiətə, ətraf mühitə məhəbbət və rəğbət hissi yaratmalı, onları yaş və anlaq səviyyələrinə uyğun olaraq təbiətin mühafizəsində fəal iştirak etməyə hazırlamalıdır. Məktəbəqədər yaşlı uşaqlar doğma yurdun təbii gözəlliklərindən zövq almağı öyrənməklə yanaşı, yaşadıqları ərazidə təbii gözəlliklərin qorunmasında, havanın, suyun təmiz saxlanmasında güclərinə müvafiq işlər görmək qabiliyyətinə yiyələnməlidirlər.
- Ekoloji tərbiyə uşaqlarda ekoloji baxışların və mühakimə bacarığının yaranmasına kömək göstərməlidir. Məktəbəqədər yaşlı uşaqlar ekoloji tərbiyənin mahiyyətini dərk etməli, Vətənin təbiətini sevməli, təbii sərvətlərini qorumalı, onun yaxşılaşdırılması və artırılmasında güclərinə müvafiq fəaliyyət göstərməlidirlər. Onlar təbiət üzərində müşahidəyə əsasən onun haqqında mühakimə yürütməyi, ətraf mühiti qorumağın vacibliyini, sadə şəkildə də olsa, izah etməyi bacarmalıdırlar;
- Ekoloji tərbiyə məktəbəqədər yaşlı uşaqları ekologiyanın müxtəlif sahələrinə dair müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandırmalıdır. Ətraf mühiti qorumaq üçün uşaqda onun haqqında biliklər olmalıdır. Belə olmasa, onlarda təbiətin qorunmasına düzgün mövqe tərbiyə etmək çətinləşər. Bu yaşdakı uşaqlar oyun və yataq otağında havanın təmiz saxlanmasının əhəmiyyətini bilməli, otaqlarda və bağçanın torpaq sahəsində çiçəklər becərməyi, ağaclara, təbiət guşəsindəki bitkilərə, quşlara və heyvanlara qulluq etməyi bacarmalı, onlara qeyri-insani münasibətə qarşı mübarizəyə hazır olmalıdırlar.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsini lazımi səviyyədə qurmaq üçün bir sıra tələblərə əməl edilməlidir:

- Ekoloji tərbiyəyə uşaq şəxsiyyətinin hərtərəfli inkişafının tərkib hissəsi kimi baxılmalıdır. Bir halda ki, ekoloji tərbiyə estetik, əmək və vətənpərvərlik tərbiyəsi ilə bağlıdır, onda uşaqları təbiətdə olan gözəllikləri qorumaq, doğma torpağın təbii sərvətlərini mühafizə etmək, onların qayğısına qalmaq kimi bacarıq və vərdişlərə yiyələndirmək lazımdır.
- Ekoloji tərbiyə prosesində təbii sərvətlərin mahiyyətini anlamaq üçün məktəbəqədər yaşlı uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Bu yaşda uşaqlara təbii ehtiyatların tükənməsi, torpağın erroziyası, havanın, suyun, torpağın çirklənməsinin, bəzi bitki və heyvan

növlərinin nəslinin kəsilməsinin səbəbləri istər məşğələ, istərsə də məşğələdənkənar tərbiyəvi tədbirlər (söhbətlər, bədii əsərlərin oxunması, ekologiya haqqında filmlərə baxış və s.) vasitəsilə çatdırılmalıdır.

- Ekoloji tərbiyə hərtərəfli aparılmalıdır. Uşaqlarda təbiətə düzgün münasibət formalaşdırılması onların əxlaq və vətənpərvərlik tərbiyəsinə təsir göstərməlidir.

Müşahidələr göstərir ki, çox aktual olan bu problemə bəzən uşaq bağçaları və məktəblərdə tərbiyəçi və müəllimlər laqeyd yanaşırlar. Nəticədə uşaqlarda təbiəti qorumaq hissi kifayət qədər düzgün formalaşdırılmır, onlarda təbiətə, ətraf mühitə laqeyd münasibət yaranır.

Təbiətə münasibətin əsasını qayğıkeşlik, həssaslıq, xeyirxahlıq kimi yüksək əxlaqi keyfiyyətlər təşkil edir. Buna görə də təlim prosesində məhz bu keyfiyyətlərin tərbiyəsinə diqqət yetirilməlidir. Başlıca vəzifə müxtəlif mövzular üzrə iş apararkən uşaqlarda təbiətə düzgün münasibət formalaşdırmaqdır. Bunun üçün ilk növbədə ekoloji tərbiyə baxımından əhəmiyyətli mövzular seçilməlidir. Unutmaq olmaz ki, təbiətə məhəbbət, eyni zamanda, Vətənə məhəbbətin ayrılmaz hissəsidir. Ona görə də təbiətə məhəbbət tərbiyəsi Vətənə məhəbbət tərbiyəsi ilə paralel aparılmalıdır.

Gecə-gündüzün dəyişməsini, havanın günəşli və dumanlı olmasını, küləyin əsməsini, yağışın, dolunun, qarın yağmasını, onların səbəblərini uşaqlara öyrətmək də ekoloji tərbiyə baxımından faydalıdır.

Tərbiyəçi müvafiq imkanlardan istifadə etməklə uşaqların təlim-tərbiyəsinin, eləcə də ekoloji tərbiyənin yüksək səviyyədə təşkilində müsbət nəticələr alır. Uşaqlar dərk edirlər ki, yaşıllıq insan həyatı üçün vacib amillərdən biri olan havanın oksigenlə zənginləşdirilməsinin, normal tənəffüsün mühüm şərtidir. Bu istiqamətdə sərf edilmiş əmək faydalı olmaqla, həm də uşaqların sağlam böyümələrinə kömək göstərir.

Məktəbəqədər yaşlı uşaqların fəsillər üzrə torpaqda, suda və havada baş verən dəyişiklikləri bilmələri də mühüm əhəmiyyət kəsb edir. Hər fəsildə təbiətdə baş verən dəyişikliklər onların biliyini, təbiət haqqında anlayışlarını zənginləşdirir, təbii sərvətlərə yanaşmada yeni münasibətlər yaradılmasına kömək edir. Onlar öyrənirlər ki, payızda soyuqlar başlayır, tez-tez külək əsir, yağış yağır, yarpaqlar saralıb tökülür, köçəri quşlar uçub, isti ölkələrə gedir. Bağlarda, bostanlarda meyvə və tərəvəz, tarlalarda məhsul yığılır. Qışda qar yeri örtür, şaxtalar başlayır, quşlar yem axtarır, insanlar qalın geyinirlər. Qışda sular donur, yollar, hər yer sürüşkən olur. Meşədə, bağlarda bəzi ağaclar (zeytun, şam və s.) yaşıl qalır.

Baharda təbiət qış yuxusundan oyanır, havalar istiləşir, qar və buz əriyir, otlar göyərir, ağaclar çiçək açır. Yayda isə havalar istiləşir, quşlar öz yerlərinə qayıdır, meyvə və tərəvəzlər yetişir.

Böyük qrup uşaqlarının təbiət haqqında biliklərinin zənginləşməsində, təbiətdə olan gözəllikləri dərk etmələrində bədii ədəbiyytın da rolu böyükdür. Ekoloji tərbiyənin təsirini gücləndirmək üçün təbiətin qoynunda – meşədə, bağda, çəmənlikdə müşahidələr apardıqdan sonra bədii əsərlərin oxunması uşaqların ekoloji biliklərini zənginləşdirir, təbiəti duymaq hissini formalaşdırır.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində təlim xarakterli ekskursiyalar da mühüm rol oynayır. Ekskursiya zamanı uşaqlar bir çox təbiət hadisələrini müşahidə edirlər, onların təbiətin mühafizəsi haqqında bilikləri zənginləşir.

Uşaqlarda erkən yaşlardan təbiətə düzgün münasibət formalaşdırmaq, onlara təbiəti sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissi oyatmaq lazımdır. Kiçik yaşlarından buna diqqət yetirilməsə, uşaqlarda təbiətə, canlılara laqeydlik, hətta rəhmsizlik hissi baş qaldıra bilər.

Cəmiyyətin tələbatına, dövlətin sosial sifarişinə uyğun şəxsiyyət formalaşdırmaq üçün uşaq bağçalarında ekoloji tərbiyənin düzgün təşkilinin əhəmiyyəti böyükdür.

ədəbiyyat

1. Azərbaycan Respublikasənən təhsil haqqında Qanunu. Bakı, 2009.
2. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı, 2000.
3. Mürsəqulov R.N., Rüstəmova N. Məktəbəqədər pedagogika. Bakı, 1993.
4. Abbasov A. Pedaqogika. Bakı, 2010.

**Экологическое воспитание детей дошкольного возраста**

**резюме**

В статье речь идет об экологическом образовании детей дошкольного возраста. Отмечается, что защита окружающей среды играет важную роль в экологическом образовании детей.

**Ecological education of preschool children**

**summary**

The article is talking about environmental education of children preschool aqe . Notes that the environmental education of children plays an important role protecting the environment.

**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.**

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN MƏKAN VƏ ZAMAN MÜNASİBƏTLƏRİ İLƏ TANIŞLIĞI PROSESİNDƏ ƏYANİ MODELLƏŞDİRMƏ QABİLİYYƏTİNİN FORMALAŞMASI

**Səlahət Musayeva,**
Bakı şəhəri, 235 nömrəli xüsusi təyinatlı körpələr evi-uşaq bağçasının müdiri, ARTPİ-nin dissertantı
E-mail : salaxat 1955-g mail .com



**açar sözlər:** intellektual inkişaf, modelləşdirmə, qavrayış, təfəkkür, dərketmə, məkan və zaman, sensor etalon, əqli inkişaf, bacarıq və vərdişlər, əya- ni-obrazlı qavrama, hissetmə

**ключевые слова:** интеллектуальное развитие, моделирование, восприятие, мышление, понимание, пространство и время, сенсорный эталон, интеллектуальное развитие, навыки и способности, визуально-образное восприятие, чувствовать

**key words:** intellectual development, modeling, perception, thinking, understanding, space and time,the touch reference, intellectual development, skills and abilities, visual and imaginative perception, feel

Məktəbəqədər yaşlı uşaq öz hissiyyatına əsaslanaraq məkan və zaman münasibətlərini modelləşdirməyə çalışır. Yaş səviyyəsindən asılı olaraq uşaq ətraf aləmdəki əşya və hadisələri, zamana və məkana aid olan əlamətləri, onların xüsusiyyətlərini qavrayır. Uşaq ətraf aləmdəki əşya və hadisələri qavrayış vasitəsilə dərk etdiyi kimi, məkan və zaman anlayışlarını da idrakın bu ali yolu ilə dərk edir. Rus alimi L.A.Venqer yazmışdır : "O, əvvəlcə fəzada gözləri ilə obyektlərin məkan xüsusiyyətləri haqqında məlumat yaradır, sonra onu müqayisə edir, hissələrini fərqləndirir, ayıraraq tədqiq etməyə başlayır". Məkan və zaman anlayışlarının qavranılması zamanı görmə analizatoru daha fəal olur. Ətraf aləmdəki dəyişikliklərin, yeniliklərin duyğu üzvləri vasitəsilə duyulması və qavranılması zamanı uşaq tədricən müəyyən sözlərdən istifadə edir. Bu isə gələcəkdə onun fəal nitqə yiyələnməsinə, öz fikrini aydın izah etməsinə səbəb olur.

Məktəbəqədər dövrdə uşaq gözlərinin köməyi və əl hərəkətləri ilə fəzada əşyanın konturunu yarada bilir. Bu, qavrayışın birinci mərhələsidir. Qavradığı obyektə hərəkətlərin, fəaliyyətin əlavə olunması isə qavrayışın ikinci mərhələsinə aid prosesdir.

Qavrayışın üçüncü mərhələsində uşaq tanış obyektlərin xüsusiyyətlərini öyrənməyə başlayır, onlar arasında əlaqələr axtarmağa çalışır. Bu, uşağın əqli keyfiyyətlərinin inkişafı ilə bağlıdır. Deməli, qavrama əqli xarakter daşıyır.

Uşaq qavrayış vasitəsilə ətraf aləmdəki məkana və zamana bələdləşə bilir. O, həm böyüklərin, həm də uşaqların fəaliyyətinin əsasını təşkil edir. Məktəbəqədər yaşlı uşaqlar ətraf aləmdəki cisim və hadisələri iki şəkildə qavraya bilirlər:

*1. Növünə görə qavrama.* Bu zaman əşya və hadisənin rəngi, forması, həcmi sadə şəkildə qavranılır.

*2. Əlamətinə görə qavrama.* Bir qədər mürəkkəb xüsusiyyətə malik olan bu növdə cisim və hadisələr vaxt, zaman, məkan, hərəkətlər baxımından qavranılır. Bu zaman uşağın təəssüratları daha zəngin olur. Deməli, uşağın intellektual inkişafına səbəb olan məlumatlar onun təfəkkürünə qavrayış vasitəsilə daxil olur. Ona görə də biz qavrayışa intellektual proses kimi baxmalıyıq. L.A.Venqerə istinadən deyə bilərik ki, qavrayış prosesi əşyanın əlamətini, kəmiyyət və keyfiyyətini müəyyən etmək üçün daim axtarışdadır. Məktəbəqədər yaşlı uşaqlar, adətən, əşyalarda daha qabarıq, əlvan və parlaq cəhətləri müəyyən etməyə çalışırlar. Bu, onlarda hələlik qeyri-ixtiyari qavrayışın olması ilə əlaqədardır. L.A.Venqer yazır ki, 3–7 yaşlı uşaqlar gördükləri

əşyaları fikrən hissələrə ayırır, sonra isə onları birləşdirirlər. Uşaq əvvəlcə gözləri ilə fəzada obyektlərin məkan xüsusiyyətləri haqqında məlumat toplayır, sonra onları müqayisə edir, hissələrini fərqləndirir, ayrı-ayrılıqda tədqiq etməyə başlayır. Hər hansı bir obyektin müşahidəsi zamanı uşağa ehtiyatla yanaşaraq onun diqqətini müşahidə olunan obyektin sensor etalonlarına cəlb etmək lazımdır.

Qavrayış prosesində sensor etalonların mənimsənilməsi sonralar çox yaxşı nəticələrin əldə edilməsinə səbəb olur. Sensor etalonları dəqiq mənimsəyən məktəbəqədər yaşlı uşaq öz hissiyyatına əsaslanaraq məkan və zaman münasibətlərini modelləşdirməyə çalışır. Yaş səviyyəsindən asılı olaraq uşaq ətraf aləmdəki əşya və hadisələri, zamana və məkana aid əlamətləri, onların xüsusiyyətlərini hiss üzvləri vasitəsilə qavrayır. Ətraf aləmdəki dəyişikliklərin və yeniliklərin duyğu üzvləri vasitəsilə duyulması və qavranılması zamanı uşaq tədricən sözlərdən istifadə etməyə başlayır. Bu isə gələcəkdə onun fəal nitqə yiyələnməsinə, öz fikrini daha aydın izah etməsinə səbəb olur. Üç yaşlı uşaq məkana bələdləşdikcə onda ətraf aləmdə gördüyü gülə, çiçəyə, ağaca, maşına və digər obyektlərə maraq oyanır. O, hər şeyə toxunmağa cəhd edir. Bu zaman toxunma, görmə analizatorları və qavrama eyni zamanda fəaliyyətdə olur. Uşaqlar ətraf aləmdə bələd olduqlarını, gördüklərini, eşitdiklərini və toxunduqlarını qavrayır, onları sözlə ifadə edirlər.

Məktəbəqədər yaşlı uşaqların modelləşdirmə qabiliyyətini gücləndirmək üçün onlarda qavramanı inkişaf etdirmək zəruridir. Tərbiyəçilər qavramanı inkişaf etdirmək məqsədilə, məşğələnin növündən asılı olaraq, müxtəlif oyunlar təşkil edə bilərlər. Bakı şəhərinin Xətai rayonundakı 235 nömrəli xüsusi təyinatlı körpələr evi-uşaq bağçasında apardığımız tədqiqatlardan birində uşaqlarda zaman və məkan təsəvvürlərinin formalaşmasının vəziyyəti ilə tanış olduq. Bağçanın tərbiyəçisi V.Rüstəmova ətraf aləmlə tanışlıq üzrə məşğələdə 4–5 yaşlı uşaqlar üçün "Nəyin yeri dəyişilmişdir?" oyununu təєkil etməklə məkan təsəvvürlərinin möhkəmləndirilməsinə nail oldu. Oyun zamanı tərbiyəçi stolun üstünə bir neçə dibçək qoydu və uşaqlardan dibçəklərdəki çiçəklərin adlarını soruşdu. Uşaqlar çiçəklərin adlarını və sırasını (hansı çiçəyin hansından sonra qoyulmasını) yadlarında saxladılar. Sonra tərbiyəçi uşaqlardan birini yanına çağırıb, ona gözlərini yummağı təklif etdi. Bu zaman tərbiyəçi dibçəklərdən birinin yerini dəyişdi və gözünü yummuş uşağa hansı dibçəyin yerinin dəyişdirildiyini söyləməyi təklif etdi. Çiçəklərin sıra sayını gözünün qabağına gətirən uşaq dərhal nəyin yerinin dəyişdiyini tapdı və həmin çiçəyin adını xatırlayaraq suala düzgün cavab verdi.

Göründüyü kimi, belə oyunlarda qavrama, yaddaş və diqqət fəal olmalıdır.

Həmin bağçanın loqopedi R. İmranova 5 yaşlı uşaqlarla apardığı fərdi məşğələdə "Bu əşyadan tap" oyunundan istifadə etdi. Loqopedin tapşırığına uyğun olaraq, uşağa şəkillər arasından nəzərdə tutulmuş etalon şəkli tapmaq təklif edildi. Loqoped başında qırmızı panama, əynində qırmızı paltar, əlində qırmızı çanta və qırmızı çətir tutmuş, ayaqlarına qırmızı ayaqqabı geymiş qızın şəklini ona oxşar digər şəkillər arasından tapmağı, sözlə müqayisə edərək fərqləndirməyi məsləhət görür. Məşğələ zamanı uşağın görmə analizatorları, əyani-obrazlı yaddaşı fəal idi və o, əşyaların rəngini, formasını yada salaraq tapşırığı yerinə yetirdi.

Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı qavrayışın, yaddaşın və diqqətin fəallığı ilə bağlıdır. Məkana bələdləşməni inkişaf etdirmək məqsədilə 4–6 yaşlı uşaqlarla "Qonşular" oyununun keçirilməsi də məqsədəuyğundur.

199 nömrəli körpələr evi-uşaq bağçasında apardığımız tədqiqat zamanı tərbiyəçi S.Məmmədova hər bir uşağa onun sağında, solunda, arxasında və qarşısında kimin əyləşdiyini yadda saxlamağı tapşırdı. Uşaqlara otağın digər tərəfindəki oyun guşəsində oyuncaqlarla oynamaq təklif edildi. Bir qədər oynadıqdan sonra tərbiyəçi uşaqlara qaçaraq öz yerlərində oturmalarını tapşırdı. Uşaqlar əvvəl əyləşdikləri qaydada oturmağa cəhd etdilər. Hətta onlardan bəziləri özündən sağda, solda, arxada və qarşıda oturmuş uşaqlara da düzgün əyləşməkdə kömək etdilər. Oyun bir neçə dəfə təkrar olundu və sonda hər bir uşaq öz yerini məkana görə düzgün müəyyən etməyi öyrəndi. Bu oyunda uşaqlardan diqqətlilik tələb olunurdu. Onlar görmə yaddaşına əsasən kimin harada oturmasını müəyyən edə bilmişdilər.

Məktəbəqədər yaş dövründə uşaqlarda bacarıqların, qabiliyyətlərin formalaşması və inkişafı onların məktəbdə də yüksək göstəricilərə nail olacaqlarından xəbər verir. Tədqiqatımızın əsasını uşaqlarda modelləşdirmə qabiliyyətinin inkişaf səviyyəsini müəyyənləşdirmək təşkil edir. İdrak prosesləri normal inkişaf etdikdə uşaq ona verilmiş tapşırıqları dəqiq yerinə yetirir, onda məntiqi mühakimə qabiliyyəti inkişaf edir. Uşaq bələd olduğu məkanı nə qədər yaxından qavrasa da, obyektin qavranılması az və ya çox miqdarda dəyişikliklərlə özünü büruzə verir.

Apardığımız tədqiqatlar məktəbəqədər yaşlı uşaqların məkan və zaman təsəvvürlərini modelləşdirmə qabiliyyətinin səviyyəsini aşkar etməyə imkan verdi. 235 nömrəli körpələr evi-uşaq bağçasının eyni yaş səviyyəsinə aid iki eksperimental qrupunda sahənin qrafik planının yaradılması üzrə apardığımız tədqiqat işinə də məkan təqdimatlarında aşkar modelləşdirmə qabiliyyətinin inkişaf təzahürlərindən biri kimi baxıla bilər.

Eksperiment zamanı birinci qrupa kubiklərdən istifadə edərək qrup otağının qrafik modelini yaratmaq, ikinci qrupa isə kuklalar guşəsinin qrafik modelini yaratmaq, mebellərin düzülüş planını tərtib etmək təklif olundu. Əvvəlcə tərbiyəçiyə uşaqları nəzərdə tutulmuş sahənin qrafik planı ilə tanış etmək tapşırıldı. Sonra uşaqlar gördükləri əşyaların proyeksiyalarına uyğun olan hazır müstəvi fiqurlardan istifadə edərək kuklalar otağında mebelin düzülüş planını həyata keçirməyə başladılar.

Məlum oldu ki, uşaqların quraşdırma fəaliyyətində əyani modelləşdirmə anı daha aydın təzahür edir. Uşaqların tikinti materialları və müxtəlif həndəsi fiqurlardan yaratdıqları konstruksiyalar əşyaların həcmli modeli kimi çıxış edir və sonradan süjetli-rollu oyunlar prosesində də həmin məqsədlə istifadə olunur. Tədqiqatlarda konstruktiv fəaliyyətə yiyələnmə prosesində iki tip modelin mənimsənilməsi üçün şəraitin yaranması haqqında məlumatlar əks olunmuşdur :

- vahid obyektin strukturunu əks etdirən konkret model;
- müəyyən əşya sinfinin strukturunu sxematik əks etdirən ümumiləşdirilmiş əyani model.

Aparılmış eksperimentdən bu nəticəyə gəlirik:

1. Məktəbəqədər yaşlı uşaqların əyani modelləşdirmə qabiliyyəti təfəkkür fəaliyyətindən asılı olaraq dəyişir.
2. Məktəbəqədər yaşlı uşaqlarin modelləşdirmə qabiliyyəti bu yaşda uşaqların əqli bacarığı kimi izah oluna bilər.
3. Məktəbəqədər yaşlı uşaqların modelləşdirmə qabiliyyəti fəaliyyət prosesində formalaşır.

Deməli, uşaqlarda yaranan ilkin məkan təsəvvürləri, onların model obrazlara yiyələnmələri, istifadə etmələri əyani modelləşdirmənin formalaşmasının ümumi qanunauyğunluqlarına tabedir.

**ədəbiyyat**


1. Венгер Л.А. Развитие познавательных способностей в процессе дошкольного воспитания. Москва: Педагогика, 1986.
2. Bağırova L.A. Məktəbəqədər yaşlı uşaqlarda intellektual hisslərin inkişaf etdirilməsinin forma və metodları. Bakı: Nasir , 2000.
3. Metlina L.S. Uşaq bağçasında riyaziyyat. Bakı : Maarif, 1985.
4. İbrahimov A., Əliyeva K. Sensor inkişaf, ətraf aləmlə tanışlıq. Bakı: Misri, 2003.
5. Селиверстов Б.И. Игры в логопедической работе с детьми. Москва: Просвещение, 1980 .


**Состояние формирования способностей визуального моделирования во время знакомства детей отношениями между пространством и временем в дошкольных учреждениях**

**резюме**


В статье речь идет о остоянии формирования способностей визуального моделирования во время знакомства детей отношениями между пространством и временем в дошкольных учреждениях. Отмечается, что в зависимости от возраста ребенок воспринимает предметов и событий окружающей среды, знаки времени и пространства, их свойства через органы чувства. Также отмечается, что формирования и развития в период до-

школьного возраста у детей навыков и возможностей может способствовать высокой производительности в школе.

**Condition of formation of visual modeling capabilities while children explore the relationship between space and time in preschool**
**summary**

The article deals with the formation of tatus visual modeling capabilities while children explore the relationship between space and time in preschool. It is noted that, depending on the age of the child objects and receives environmental events, signs of time and space, their properties through the senses. It is also noted that the formation and development in the period of pre-school age children the skills and capabilities can contribute to high performance in school.

## *MƏŞHURLAR HAQQINDA*

Yuli Sezarın avtoqrafı 2 milyon dollar dəyərindədir, lakin hələ heç kəs onu tapmayıb.

***

Yazıçı Çarlz Dikkens həmişə üzü şimala doğru yatırdı. O, belə hesab edirdi ki, bu, onun yaradıcılıq istedadının yüksəlməsinə kömək edir.

***

Albert Eynşteyn vəfat etdikdə onun son sözləri də özü ilə birlikdə əbədiyyətə qovuşdu, çünki bu zaman onun yanında olan tibb bacısı alman dilini bilmirdi.

***

İki dəfə Nobel mükafatı laureatı, radiumu kəşf edən Mari Küri yalnız qadın olduğu üçün prestijli Fransa akademiyasına üzv ola bilməmişdi.

***

İtaliyanın dövlət bayrağını Napaleon Bonapart fikirləşib.

***

Corc Vaşinqtonun anadan olduğu gün ABŞ-ın bütün ştatlarında rəsmi tətil günüdür.

***

Motsart heç vaxt məktəbə getməyib.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİ RƏHBƏRLƏRİNİN İDARƏETMƏ MƏDƏNİYYƏTİ

**Azadə Əhmədova,**
ARTPİ-nin dissertantı
E-mail: azadaahmadova123@ gmail.com

**İdarəetmə mədəniyyəti bütün mədəniyyətlər içərisində ən mürəkkəbi və ən çətinidir.**
***İ.Kant***



**açar sözlər:** təhsil müəssisələrinin rəhbərləri, peşəkar inkişaf, idarəetmə fəaliyyəti, məsuliyyət, ideallıq
**ключевые слова:** руководители образовательного учреждения, профессиональное развитие, управленческое деятельность, ответственность, идеальность
**key words:** heads of educational institutions, professionalnoe development, management activities, responsibility, ideality

Müasir tələblərə cavab verən pedaqoji prosesin təşkili təhsil müəssisəsinin qarşısında duran əsas vəzifələrdən biridir. Təhsil müəssisəsi rəhbərlərinin səriştəsizliyi pedaqoji prosesə dağıdıcı təsir göstərir. Rəhbər vəzifəyə təyin olunmuş şəxsin üzərinə çox böyük məsuliyyət düşür. Ondan ilk növbədə rəhbərə xas olan yüksək idarəçilik qabiliyyəti və etika tələb olunur. Rəhbərin ilk addımları onun gələcək fəaliyyətinin nə dərəcədə müvəffəqiyyətli olmasında böyük rol oynayır.

Pedaqoji karyeranı horizontal (peşəkar) və şaquli (idarəçilik mədəniyyəti) olmaqla iki yerə ayırmaq mümkündür. Horizontal karyera rəhbərin öz ixtisasının ustası olması ilə, şaquli karyera isə rəhbərin liderlik qabiliyyəti ilə əlaqədardır. Uzun illər boyu məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarəolunmasının əsas xüsusiyyətləri, prinsipləri tam işlənmiş və rəhbərin idarəetmə mədəniyyətinə verilən əsas tələblər müəyyənləşdirilmişdir.

İdarəetmə mədəniyyəti inteqrativ anlayış olub, təhsil müəssisələrində inzibati və sosial-psixoloji funksiyaların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün rəhbərin işgüzar, professional və şəxsi keyfiyyətlərinin məcmusudur. Yaxşı rəhbər nəinki rəhbərlik etdiyi müəssisənin vəziyyətini, eyni zamanda özünün fəaliyyətini təhlil etməklə güclü və zəif tərəfləri müəyyənləşdirməyi, peşəkarlıq və şəxsi keyfiyyətlərini, idarəetmə səviyyəsini qiymətləndirməyi bacarmalıdır [3.4].

Sıravi pedaqoqdan rəhbəri ayıran cəhət ikincinin işgüzar, azadfikirli, analitik düşüncəli, demokratik olması, həlledici qərarlar verməkdən çəkinməməsidir. Əgər sıravi pedaqoq üçün bu keyfiyyətlər arzuolunandırsa, rəhbər işçi üçün vacibdir. Yaxşı tərbiyəçi olmaq üçün öz ixtisasını, uşaq psixologiyasını yaxşı bilmək, müasir metodlarla işləməyi bacarmaq lazımdır. Yaxşı rəhbər isə öz vəzifəsinin məsuliyyətini dərk etməli, yeni ideyaları ilə fərqlənməli, ədalətli olmalı, qiymətli ideyaları, yenilikləri seçib, kollektivin işini onun əsasında qurmağı bacarmalıdır. Təhsil müəssisəsi effektiv və operativ idarə edilməlidir.Yaxşı rəhbər təhsil müəssisəsində çatışmazlıqları doğuran səbəbləri, onların aradan qaldırılması yollarını, məqsəd və nəticə arasındakı ziddiyyətləri axtarıb tapmalıdır. Zəif rəhbər tələb olunan nəticə alınmadıqda kollektivin üzvlərini günahlandırır. Güclü rəhbər özünütəhlil, çatışmazlıqları aşkara çıxarmaq, şəxsiyyətlərarası münasibətləri düzgün qurmaq imkanlarını, ehtiyacları təhlil etmək, özünüinkişaf sahəsində qələbə qazanmaq üçün adekvat qiymətləndirmə yolunu seçir [2].

Müəssisə rəhbərinin kollektiv qarşısında hər hansı vacib problemlə bağlı məsələ qaldırması və həlli üçün müvafiq tədbirləri görməsi onun işgüzarlığı ilə bağlıdır. Bunun üçün yeni resurslara ehtiyac duyulur. Kollektiv yalnız bu halda rəhbəri lider kimi qəbul edir.

Məktəbəqədər təhsil müəssisəsi rəhbərinin fəaliyyəti üç əsas istiqamətdə müəyyənləşdirilir:

- pedaqoji prosesə və onun məzmununa rəhbərlik;
- inzibati təsərrüfat işlərinə rəhbərlik;
- ictimaiyyətlə, valideynlərlə işin təşkilinə rəhbərlik.

Məktəbəqədər müəssisələrdə işin keyfiyyəti pedaqoji prosesə metodik rəhbərliyin nə dərəcədə səmərəli təşkil olunmasından asılıdır. Metodik işdə müstəqillik, planlı fəaliyyət, qarşıya qoyulmuş vəzifələrin qısa müddətdə optimal həlli, başlanmış işin sona çatdırılması, perspektivləri görmək, qiymətləndirmək bacarığı vacibdir. Məktəbəqədər müəssisənin rəhbəri işin metodikasını bilməlidir. O, tərbiyəçilərə metodik vəsaitdən istifadə qaydalarını öyrədir, yeni təlim metodlarına yiyələnməkdə onlara kömək göstərir. Rəhbər işçi öz işini vətənimizin inkişaf edib çiçəklənməsi üçün böyüməkdə olan nəsli gələcək fəal iştirakçı kimi tərbiyə etməyin daha səmərəli yollarını axtarıb tapmaq istiqamətində qurur.

İnzibati təsərrüfat işinin məzmununa uşaq kontingentinin saxlanılması, onun səmərəli fəaliyyətinin təşkili və maliyyə intizamına əməl olunmasını daxil etmək mümkündür. Müstəqil quruculuq yolunda irəliləyən ölkəmizin hər bir vətəndaşı yaxşı təsərrüfatçı olmalıdır. O cümlədən, hər bir müəssisədə olduğu kimi, məktəbəqədər təhsil müəssisəsinin əməkdaşları da bilməlidirlər ki, insan əli ilə yaradılmış hər şey cəmiyyətin gələcək inkişafını təmin etməyə yönəldilməlidir.

Müəssisə rəhbəri eyni zamanda maliyyə-təsərrüfat işlərini də mükəmməl bilməlidir. Təsərrüfat işləri zaman-zaman öyrənilir, müəssisə rəhbəri səriştəliliyi, mükəmməl təcrübəni illər ötdükcə qazanır. O, görəcəyi işi kollektivdən kənarda, başqasının hazırlamasına yol verməməlidir. Belə hallarda kollektiv işə etinasız yanaşar və onun rəhbərə inamı azalar [5].

Məktəbəqədər təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin mühüm aspektlərindən biri də valideynlərlə, ictimaiyyətlə işin səmərəli təşkil edilməsi, pedaqoji təbliğatın ön plana çəkilməsidir. Pedaqoji təbliğatın məzmununa aşağıdakıları daxil etmək olar:

- valideynlərlə işgüzar əlaqələrin yaradılması;
- kollektiv söhbətlərin aparılması, sərgilərin, konfransların, toplantıların, bayramların qeyd edilməsi, fərdi məsləhətlərin təşkili, müsbət təcrübənin öyrədilməsi, yayılması və s.

Rəhbərin intellektual səviyyəsi, davranışı, səsinin tonu, hətta geyimi də ətrafdakılara nümunə olmalıdır.

Müəssisə rəhbərinə xas olan keyfiyyətlər arasında prinsipiallıq, ədalətlilik, dəqiqlik, şəffaflıq ön plana çəkilməlidir. Bu keyfiyyətlər təhsil müəssisəsinin fəaliyyətini müasir tələblər baxımından idarə etməyə imkan verir. Müəssisə rəhbəri təkəbbürlülük, lovğalıq, etinasızlıq, istehzalı münasibət, mənəm-mənəmlik, yenilikləri qəbul etməmək və s. xüsusiyyətlərdən uzaq olmalıdır.

Məktəbəqədər təhsil müəssisəsi rəhbəri pedaqoji cəsarətə, yeniliyi duyaraq işin perspektivlərini görmək, elmin ən yeni nailiyyətlərinə əsaslanaraq işini qurmaq, işin yerinə yetirilməsi üçün yeni vasitələr və metodlar seçmək, müəllim və tərbiyəçiləri həmin vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə cəlb etmək bacarığına malik olmalıdır. Yalnız bu halda rəhbərdə pedaqoji prosesi səmərəli idarə etmək qabiliyyətləri formalaşa bilər.

**ədəbiyyat**

1. Руднев Е.А. Первые шаги в новой должности. Москва: Управление образованием, 2012, № 5.
2. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu, 2003.
3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Ağayev Ə.Ə. Təhsil prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
5. İsqarşova U.M., Safonova T.P. Uşaq bağçasına rəhbərlik. Bakı: Maarif, 1998.

**Культура управления руководителя дошкольного учебного заведения**

**резюме**

В статье рассказывается, что одной из основных задач, стоящих перед образовательными учреждениями является организация в дошкольном учебном заведении эффективного педагогического процесса, соответствующего современным требованиям и этим определяется управленческий опыт его руководителя. Отмечается, что низкий управленческий уровень руководителя вносит разрушительный характер в педагогический процесс. В статье с позиции современных требований рассматриваются, обобщаются, анализируются результаты, полученные на основе педагогических принципов, даются соответствующе рекомендации по культуре управления руководителя дошкольного учебного заведения.

**Culture management head of preschool educational institution**

**summary**

The article explains that of the major challenges facing educational institutions is the organization in an effecttive pre-school educational process, corresponding to modern requirements, and this is determined by the management experience of its head. It is noted that the low level of managerial head makes destructive in the pedagogical process. This article from the perspective of modern requirements rassmatrivayutsya, summarizes and analyzes the results obtained on the basis of pedagogical principles, given suitable advice on the management culture of the head of a preschool institution.

# HİKMƏTLİ SÖZLƏR

*Bilik öyrənməyi ar bilən hər kəs*
*Dünyada mərifət qazana bilməz.*

**NİZAMİ**

***

*Kişi bir sənəti bilər xalis,*
*Çoxuna meyl edən qalar naqis.*

**SEYİD ƏZİM ŞİRVANİ**

***

*Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin.*

**Ə. H. BƏHMƏNYAR**

***

*Yaxşı kitab çox qiymətli xəzinədir.*

**H. ZƏRDABİ**

***

*Axmaqlarla oturub-durmaqdansa, kitabla tənha qalmaq yaxşıdır.*

**Q. ZAKİR**

***

*Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər.*

**SƏDİ**

# "HƏYAT BİLGİSİ" FƏNNİ ÜZRƏ OYUN XARAKTERLİ MƏŞĞƏLƏLƏRDƏ FƏNLƏRARASI ƏLAQƏNİN YARADILMASI İMKANLARI

**Sevinc Axundova,**
Bakı Slavyan Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** rollu oyunlar, krossvord, tapmaca, fənlərarası əlaqə, uğurlu təlim, kurikulum, motivasiya, inteqrasiya, dövlət büdcəsi

**ключевые слова:** ролевые игры, кроссворд, загадка, межпредметные связи, успешное обучение, куррикулум, мотивация, интеграция, государственный бюджет

**key words:** games roll, crossword, mystery, interdisciplinary connections, successful traininq, curriculum, motivation, integration, state budget

Bəşər tarixinin müasir dövründə elm və texnika yenilikləri daha parlaq nailiyyətlərə yol açır. Hazırda hər hansı elmi yenilik böyük maraqla qəbul edilir və respublikamızın inkişafı naminə həyata keçirilməsinə səy göstərilir. Bu gün təhsilin inkişafı şagirdlərin təfəkkürünün inkişafına və onlara öz potensial qüvvələrindən istifadə etmək bacarığının aşılanmasına yönəldilmişdir. Belə bacarıqların şagirdlərə aşılanması fənlər arasında inteqrasiya yaradılmasını tələb edir. Fənlərarası əlaqə şagirdlərə hər bir fənnin paralel öyrənilməsi yollarını aşılayır və onların gələcək həyatında bunun rolunu aşkarlayır. Hər bir şagird dərk edir ki, ana dili, riyaziyyatla yanaşı, digər fənləri də öyrənmək vacibdir.

Yaradıcı insanların külliyyatlarına nəzər saldıqda məlum olur ki, onların hərtərəfli biliklərə malik olmaları yazdıqları əsərlərin dəyərini birə on qat artırmış və yüksək qiymətləndirilməsini təmin etmişdir. Ona görə də fənlər arasında əlaqə yaradılmalı, obyekt və hadisələr şagirdlərə hərtərəfli öyrədilməlidir.

Hər hansı bir obyekti, hadisəni, prosesi tam təsəvvür etmək üçün ona müxtəlif aspektlərdən yanaşılması tələb olunur. Fənlər arasında əlaqə yaradıldıqda şagirdlər obyekt və ya hadisəni dərindən dərk edir, onların mahiyyətini asan anlayırlar. Buna görə də təhsildə, xüsusilə onun ibtidai pilləsində əsas vəzifə və prinsip fənlərin inteqrasiyası olmalıdır.

Həyat bilgisi dərslərində ibtidai sinif şagirdləri tarixi, coğrafi, astronomik, fiziki, kimyəvi, bioloji anlayışlarla əlaqədar sadə məlumatlarla tanış edilirlər. Həmin anlayışların yaşa uyğun şəkildə, başa düşülməsi üçün bir çox mövzuların ana dili, riyaziyyat, təsviri incəsənət, musiqi, əmək təlimi və fiziki tərbiyə ilə əlaqələndirilməsi müsbət nəticə verir. Bu, həm də dərslərdə digər fənlərdən keçilənlərin təkrarlanması, vaxtdan səmərəli istifadə edilməsi baxımından faydalıdır. Problemin həlli interaktiv təlim metodlarından istifadə olunmasında daha effektlidir. Belə metodlardan biri şagirdlərin fəallığına və marağına səbəb olan təlim xarakterli rollu oyunlardan istifadədir. Müəllim həmin metodların tətbiqi ilə dərsini daha cəlbedici qurur. ***Rollu oyun*** hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağa imkan verir. İştirakçılar rolları ifa edərək, onu müxtəlif mövqelərdən qiymətləndirirlər. Metodun tətbiqindən əsas məqsəd şagirdlərin yalnız birbaşa təcrübədən öyrənə bilmələrinə əsaslanır. Burada kimisə təqlid etməklə fəaliyyət və hadisələri yenidən canlandırmaq bacarığı əsas götürülür. Bu metod şagirdlərə özləri və ətrafdakılar haqqında incəsənət yolu ilə məlumat əldə etməyə,

problemə başqalarının gözü ilə baxmağa, vərdiş olunmuş stereotiplərdən uzaqlaşmağa, yeni davranış modellərinə yiyələnməyə imkan verir, onlarda rola girmək və ifadəetmə bacarıqlarını formalaşdırır. Bu, tənqidi və yaradıcı təfəkkürü üzə çıxarır, formalaşdırır, qarşılıqlı ünsiyyəti, əməkdaşlığı, tolerantlığı inkişaf etdirir.

1. Oyun prosesində uğurlu təlim həyata keçirilir. Rollu oyunlar bir neçə mərhələdə təşkil olunur. Motivasiyada oyunun mövzusu və iştirakçıları, obrazlar müəyyənləşdirilir. Rolların təsviri olan kartlar hazırlanır. Rollar şagirdlər arasında bölüşdürülür. Məzmunu və müxtəlif obrazların rolunu təqdim edən aparıcı seçilir, səhnədə əsas fəaliyyət başlanır. Şagirdlər rollarını təqdim edirlər.

Rollu oyunlarda mövzu sərbəst seçilir, ssenari hazırlanır, rollar ifa edilir. **"Uşaq və qarışqa"** hekayəsi üzrə oyunu şagirdlər aparıcının köməyi ilə ifa edirlər.

Aparıcı qeyd edir ki, yazın əvvəllərində bir oğlan gəzməyə çıxmışdı. Onun gözləri bir yerə yığışmış qarışqalara sataşdı. O, əlindəki ağacla qarışqa topasını qurdaladı. Xeyli qarışqa tələf oldu. Qarışqalardan biri (qarışqa rolunu ifa edən şagird) dedi:

– Oğlan, belə hesab et ki, atan, anan, qardaşların və başqa qohumların bir otaqda oturmuş lar. Binanın damı uçsa, bu adamların bir neçəsi əzilsə, xoşuna gələrmi?

Uşaq bir qədər fıkirləşib dedi:

–Xeyr, xoşuma gəlməz.

Qarışqa:

–Bəs nə üçün dəyənəyinlə bir ailədən olan bu qədər qarışqanı məhv etdin?

Oğlan soruşdu:

–Siz də bir ailə və qohum hesab olunursunuz?

Qarışqa:

– Bəli! Sizin nəsil və ailəniz on-on beş adamdan ibarət olur. Bizimki isə yeddi-səkkiz yüz, bəzən də min-min beş yüz qarışqadan ibarətdir.

Uşaq:

– Sizin də ata-ananız, bacı-qardaşlarınız, uşaqlarınız olurmu?

Qarışqa:

– Əlbəttə olur! Bu gördüyün qarışqaların bəziləri ata, bəziləri ana, qalanları da uşaqlardır.

Uşaq:

– Bəs sizin eviniz varmı?

Qarışqa:

– Əlbəttə var! Bax, bu gördüyün torpaq ovuntusunu yerin altındakı evimizdən çıxarıb, buraya daşımışıq. Evimiz bir neçə qat, otaqlarımız bir neçə gözdür. Qış fəslindən qorxur, yer üzünə həsrət qalırıq.

Aparıcı:

– Uşaq bunları eşidib, fıkrə getdi. Bir az əvvəl gördüyü işdən peşman oldu. Əlindəki ağacı atıb, qarışqalardan üzr istədi (1. s.56).

Bu rollu oyunun köməyi ilə şagirdlər həşəratların bir nümayəndəsinin bioloji xüsusiyyətləri ilə tanış olur, canlılarla rəftar qaydalarını, onların mühafızəsinin vacibliyini öyrənirlər.

Məktəblilərin inkişafında əyləncəli didaktik oyunların əhəmiyyəti böyükdür. Mütəhərrik oyunlar gənc nəslin fıziki tərbiyəsinə, zehni oyunlar təfəkkürünün inkişafına xidmət edir. Bunların hər ikisindən istifadə edilməsi həm şagirdlərin zehni inkişafına, biliklərin hərtərəfli mənimsənilməsinə səbəb olur. Didaktik oyunların təşkilində müəllim mövzunu digər fənlərlə əlaqələndirir və şagirdlərə hərtərəfli biliklər vermək imkanı qazanır. Nəticədə, şagirdlər hətta çətin mövzuları da asanlıqla başa düşür və onları mənimsəməkdə çətinlik çəkmirlər. Burada uşaqları maraqlandıran, onların zehni fəaliyyətinə təsir edən şəkillər, sxemlər, cədvəllər və qrafıklər, tapmacalar və atalar sözlərinə əyləndirici suallar verməklə digər fənlərin məzmunu ilə əlaqələndirilir.

Dərslərdə krossvordla əyləncəli oyunlardan da çox istifadə edilir. Müəllim şagirdlərə krossvordun xanalarının doldurulması qaydalarını izah edərkən uşaqlar onları yadda saxlamaqla uyğun gələn sözü tapmağa çalışırlar. Krossvordun hərflər yazılmış xanaları varsa, sözlərin tapılması və yazılması bir qədər ciddi düşünməyi tələb edir. Şagirdlər düşünərək sözləri tapıb, yerinə yazırlar. Onlar bütün tələbləri gözləməklə obyektin quruluşunu, xassələrini, əlamətlərini öz təsəvvürlərində canlandırır, düzgün olanı tapmaq üçün neçə-neçə düzgün olmayan cavabları xatırlayırlar. "Tapmacalı krossvord"u həll edərkən şagird obyekt və hadisələrin bir-biri ilə qarşılıqlı münasibətlərini, fərqli və oxşar cəhətlərini aşkar edib, müqayisə aparmaq, ümumiləşdirmək, sistemə salmaq kimi məntiqi nəticələrə gəlməklə yeni biliklərə yiyələnməyə zəmin yaradır.

**Tapmacalı krossvord.** Tapmacalara əsasən krossvordu həll edin.




1. Ağa Nəzər, ay Ağa Nəzər,
   Adı dağları bəzər,
   Başında ağac gəzər. ***(maral)***
2. Gəlirdim kənddən,
   Səs gəldi bərkdən.
   Ağzı sümükdən,
   Saqqalı ətdən. ***(xoruz)***
3. Nağaraçı nağara çalır,
   Nə nağarası var, nə çubuğu. ***(ağacdələn)***
4. Yatanda yumru yatar,
   Ətini dərmana qatar.
   Hər kim istər onu tutsun,
   Tikanı əlinə batar. ***(kirpi)***
5. Altı taxta, üstü taxta,
   Bəy oturub otaqda.
   Qoyun deyil, otlayır,
   Toyuq deyil, yumurtlayır. ***(tısbağa)***
6. Qanadı var uçmağa,
   İynəsi var sancmağa. ***(arı)***
7. Gündüz yatar yuvada,
   Gecə gəzər obada. ***(yarasa)***
8. Qanadı var, quş deyil,
   Dişləyir o, it deyil. ***(ağcaqanad)***
9. Yazda yığar yeməyini,
   Çox sevir öz əməyini.
   Nədir adı, tapın görək. ***(qarışqa)***
10. Ağzın açar, zəhər saçar,
    Onu görən geri qaçar. ***(ilan)***

Şagirdlər krossvordu həll etmək üçün ana dili, riyaziyyat, təsviri incəsənət fənlərindən öyrəndiklərinə istinad etməli olurlar.

"Sənin hüququn" bölməsinin mövzuları digər fənlərlə əlaqəli tədris olunur. Bu zaman rollu və əyləncəli oyunlara geniş yer verilir. Onlardan "Dövlət büdcəsi" mövzusu daha maraqlıdır. Müəllim şagirdlərə elektrik enerjisindən ehtiyat və qənaətlə istifadə qaydalarını digər fənlərdə keçilənlərlə əlaqə yaradaraq öyrədir. Fəallaşdırma mərhələsində şagirdlər məişət və elektrik cihazlarının adlarını çəkirlər. Sonrakı mərhələdə onlar qruplara ayrılır, müəllim hər qrupa 2 şəkil verir. Şəkillərdən birində elektrikdən təhlükəsiz və qənaətlə istifadə edənlər, ikincidə isə səhvlərə yol verənlər və qəzalar təsvir olunur. Qruplar şəkillərdə təsvir olunanları müşahidə edir, orada nə baş verdiyini söyləyir, səhvləri və qəzaların səbəblərini izah edirlər. Səhv edənlərin, qəza törədənlərin və onlara səhvini başa salanların roluna girməklə səhnəcik təqdim edilir.

Qrup üzvləri elektrikdən ehtiyatla, qənaətlə istifadə qaydalarını öyrənir, onları ümumiləşdirir və sistemə salırlar. Müəllim qruplara riyazi tapşırıqlar verir. Elektrik qəzalarını yada salan müəllim onların şərti işarələri və qəza baş verdikdə nə etmək, hansı telefona zəng vurmaq zərurətini müzakirəyə çıxarır. Sonda müəllim mövzunun digər fənlərlə əlaqələndirilməsinə xidmət göstərən suallarla şagirdlərə müraciət edir.

Təlim xarakterli rollu və əyləncəli oyunlardan istifadə etdikdə fənlərarası əlaqənin yaradılması asanlaşır. Şagirdlər digər fənlərdən keçdikləri mövzuların həyat bilgisinin mövzuları ilə əlaqəliliyinə tam əmin olurlar. Ona görə də tədris edilən fənlərə fərq qoymur, hər birinin əhəmiyyətini dərk edirlər. Bu isə şagirdlərin hərtərəfli bilik və bacarıqlara yiyələnmələrinə imkan verir.

**ədəbiyyat**

1. Hacıyeva H.M., Axundova S.L. Həyat bilgisinin tədrisində əyləncəli oyunlar vasitəsilə fənlərarası əlaqənin yaradılması. Bakı, 2009.
2. Hacıyeva H.M., Məhərrəmov Ə.M. Ətraf aləmlə tanışlığın tədrisi metodikası. Bakı: Araz, 2007.
3. Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
4. Тутюков Ю. Основы педагогической технологии. Москва: Просвещение, 2001.

**Реализация межпредметных связей на уроках игрового характера по предмету «Познание мира»**

**резюме**

В статье раскрываются вопросы внедрения межпредметных связей на уроках – игрового характера по предмету «Познание мира». Здесь раскрывается значение уроков данного типа и показаны возможности и пути внедрения межпредметных связей на уроках данного типа.

**The implementation interdisciplinary connections of the game character on the subject of the "World knowledge"**

**summary**

This article considers the issues of implementation interdisciplinary connections of the game character of the subject of the "Knowledge of the World".

It reveals the value of the lessons of this type and shows opportunities and ways of introduction interdisciplinary connections on the lessons of this type.

# MƏSƏLƏ HƏLLİNDƏ ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI YOLLARI

**Tofiq Məmmədov,**
Naxçıvan Müəllimlər İnstitutunun dosenti



**açar sözlər:** ibtidai siniflər, məsələ, məsələ həllində rast gəlinən çətinliklər
**ключевые слова:** начальная школа, задача, трудности в решении задач
**key words:** elementary school, problem, difficulty in solving problems

Müasir dövrdə müəllimlərin qarşısında duran ən mühüm vəzifələrdən biri "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət Strategiyası"nın (2013-cü il, oktyabrın 24-ü) tələblərinə uyğun bilik və bacarıqlara, mütərəqqi dünyagörüşünə malik, milli-mənəvi, mədəni, bəşəri dəyərləri dərindən mənimsəyən, vətənpərvər, azadlıq ideyalarına hörmət edən, müasir təlim texnologiyalarından səmərəli istifadə etməyi bacaran şəxsiyyət formalaşdırmaqdan ibarətdir.

İbtidai təhsildə riyaziyyat təliminin müvəffəqiyyəti xeyli dərəcədə şagirdlərin məsələ həlletmə bacarığı ilə müəyyən olunur. Məlumdur ki, ibtidai siniflərin riyaziyyat dərsliklərində natural ədədlər hesabı və sıfır öyrədildikdən sonra hər bir sinfin proqramına uyğun məsələlər sisteminə baxılır. Bu məsələlərin həlli kursun əsas anla-

yışlarının formalaşdırılması ilə sıx əlaqədardır. Deməli, məsələlər nəzəri materialın praktik mahiyyətini açmaqda mühüm rol oynayır. Məsələlərdən istifadə şagirdlərdə dünyagörüşü formalaşdırılmasını təmin edir, *ədəd, hesab məsələləri* və s. kimi mücərrəd anlayışların real həyatdan, təcrübədən götürüldüyünü onlara inandırır. Məsələ həlli prosesində şagirdlər hadisələr arasındakı zəruri münasibətlərlə tanış olurlar. Bu zaman onların dünyagörüşü genişlənir və təlimlə həyat arasında əlaqə bərpa olunur.

Məsələ həlli şagirdlərin məntiqi təfəkkürünün inkişafına, onlarda müqayisə, təhliletmə, ümumiləşdirmə və mücərrədləşdirmə qabiliyyətlərinin formalaşmasına müsbət təsir göstərir. Məsələ həlli aşağıdakı bacarıqların formalaşdırılmasını tələb edir:

- məsələnin məzmununu dərk etmək;
- məsələdə şərt və axtarılanı, məlum və məchulu tapmaq;
- verilənlər və axtarılanlar arasında əlaqə yaratmaq;
- məsələni həll etmək və cavabını yoxlamaq.

Bütün bu bacarıqlar müntəzəm, məqsədyönlü iş prosesində formalaşmaqla aşağıdakı mərhələlərdə həyata keçirilir:

- hazırlıq işi;
- məsələ mətninin izahı;
- həll yolunun axtarılması və planının tərtibi;
- həllin və cavabın yazılması;
- həlldən sonra məsələ üzərində iş.

Müəllim hər bir mərhələdə məsələ həlli bacarığını formalaşdırmaq üçün aşağıdakı metodik priyomlardan istifadə edir:

- məsələ üzrə frontal müsahibə;
- məsələnin əyaniləşdirilməsi;
- məsələlərin müqayisəsi;
- şərtli mətnli məsələlərə baxılması;
- məsələnin müxtəlif yollarla həlli;
- məsələ həllinin yoxlanılması;
- məsələ üzərində diferensial işin aparılması ;
- şagirdlərə məsələ tərtib etdirilməsi və s.

İbtidai siniflərdə həlli verilənlərlə axtarılanlar arasındakı eyni əlaqəyə əsaslanan məsələlər qrupu üzərində iş aparılır. Belə məsələlər konkret məzmunu, ədədi verilənləri ilə fərqlənir. Əsas məqsəd ondan ibarətdir ki, şagirdlər kəmiyyətlər arasındakı müxtəlif asılılıqları şüurlu dərk etsinlər.

Mürəkkəb məsələlərin hesab yolu ilə həll edilməsi şagirdlərin riyazi təfəkkürünün formalaşması və inkişafında mühüm rol oynayır. Bu tip məsələlər həlli yollarına görə bir-birinə oxşayır. Onları elə ardıcıllıqla həll etmək lazımdır ki, sonrakı həll üsuluna əsaslansın.

İnkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi və təhlili göstərdi ki, ibtidai siniflərdə riyaziyyat təlimi aşağıdakı məzmun xətlərini əhatə edir:

- ədədlər və əməllər;
- cəbr və funksiyalar;
- həndəsə;
- ölçmələr;
- statistika və ehtimal.

Bu məzmun xətləri mahiyyət etibarilə aşağıdakı məsələləri əhatə edir:

- iki ədədin cəminə və fərqinə görə məchulların tapılması;
- iki ədədin cəminə və nisbətinə görə məchulların tapılması;
- iki ədədin fərqinə görə məchulların tapılması;
- iki ədədin fərqinə və nisbətinə görə məchulların tapılması;

- sadə və mürəkkəb üçlük qaydası;
- mütənasib bölməyə aid məsələlər;
- ədədin hissəsini və ya hissəsinə görə ədədi tapmağa aid məsələlər;
- fərziyyə üsulu ilə (məchulları bərabərləşdirməklə) həll olunan məsələlər;
- metallar və ya mayelərin qarışığına aid məsələlər;
- ədədi ortanın tapılmasına aid məsələlər;
- hərəkət problemlərinə aid məsələlər;
- yaş problemlərinə aid məsələlər;
- iş və hovuz problemlərinə aid məsələlər;
- statistika və ehtimala aid məsələlər;
- həndəsi məzmunlu məsələlər və s.

Belə məsələlərin həllində şagirdlər bir sıra çətinliklərlə qarşılaşırlar. Onların məsələ həllində çətinlik çəkmələri, əsasən, aşağıdakı səbəblərdən irəli gəlir:

- Şagirdlərin kifayət qədər həyati təcrübəsi, təhliletmə və müşahidə qabiliyyəti olmadığından məsələnin məzmununu və onda təsvir olunan prosesi yaxşı dərk edə bilmirlər.
- Məsələ həlli metodlarını yaxşı öyrənmədiklərindən, bəzi zəruri anlayışlarla tanış olmadıqlarından onun həlli yollarını tapa bilmirlər.
- Əməlin nəticəsi ilə komponentlər, kəmiyyətlər arasındakı asılılığı bilmir, məsələdə verilənlərlə axtarılanlar arasında əlaqəni aşkar etmək üçün onun şərtindən istifadə etməyi, kəmiyyətlər arasındakı miqdari münasibətləri riyazi dilə çevirməyi bacarmırlar.
- Mətnli məsələnin məzmunu əsasında sxem, cədvəl çəkməkdə çətinliklə qarşılaşır, məsələnin həlli üçün zəruri başlanğıc anını tapa bilmirlər.
- Şagirdlərin əksəriyyətinə xas olan xüsusiyyət: məsələnin məzmununu dərindən öyrənmədən, onda səslənən «...çoxdur», «...azdır», «...dəfə çoxdur», «...dəfə azdır» ifadələrinin hansı hesab əməli ilə bağlı olduğuna, məsələnin düzünə və dolayı olması faktına əhəmiyyət vermədən, ağlına gələn ilk əməli tətbiq etməyə can atır.
- Məsələ həll etməyi bacarmayan şagirdlərdə qorxu hissi, riyaziyyata mənfi münasibət yaranır. Onlar özlərini riyaziyyat fənnindən təcrid etməyə, «Riyaziyyat başıma girmir.» deyə özlərinə haqq qazandırmağa çalışırlar.
- Müəllimin tədris əməyinə kifayət qədər məsuliyyətlə yanaşmamaları şagirdlərin lazımi səviyyədə hazırlanmalarına mane olur.

Yuxarıda qeyd edilən çətinliklərin aradan qaldırılması yolları belədir:

- Müəllim məsələnin məzmununu həm şifahi, həm də əyani şəkildə şagirdlərə mənimsətməli, şagirdlər məsələdəki situasiyanı öz sözləri ilə təsvir etməli, onun qısa yazılışını və ya sxemini yenidən təkrar etməyi bacarmalıdırlar.
- Hesab əməllərinin xassələri ilə yanaşı, əməlin nəticəsi ilə komponentləri arasındakı asılılıqları müntəzəm təkrar etdirmək lazımdır, çünki kəmiyyətlər arasındakı asılılıqlar bilavasitə hesab əməlləri ilə bağlıdır.
- Mürəkkəb məsələlərin həllinə hazırlaşarkən sadə məsələlərin növləri təkrar edilməlidir, çünki hər mürəkkəb məsələ bir neçə sadə məsələdən ibarətdir. Bu tip məsələlərin həllindən sonra şagirdlərə məsələ tərtib etdirmək lazımdır. Kəmiyyətlərin arasındakı asılılıqların dərk edilməsi məhz məsələ tərtibi prosesində baş verir.
- Məsələ həllini öyrətməkdə məsələnin təhlili yolları da mühüm rol oynayır. Hər qoyulan suala müvafiq əməl tapmaq və onu əsaslandırmaq tələb olunur. Hesablamada səhvlərin qarşısını almaq üçün şifahi hesablamalara müntəzəm yer vermək lazımdır.
- Məsələ həllində müşahidə, müqayisə və nəticə çıxarma əməliyyatlarına xüsusi yer verilməlidir. Müəllim məsələ həlli dərslərinə ciddi hazırlaşmalı, onun tələblərini ödəməyə səy göstərməlidir. Bütün bunlara əməl etdikdə qarşıya qoyulan məqsədə nail olmaq mümkündür.
- Məsələ həllinin mərhələlərini ardıcıl müəyyənləşdirməklə, onun şərtinə uyğun şəkil çəkməklə, mərtəbə blokları ilə modelləşdirməklə, hər fraqmentə uyğun məlumatı təqdim

etməklə, şərtə uyğun cümlələri nömrələməklə, məzmunu öz sözləri ilə verməklə, ona oxşar yeni məsələ qurmaq və anlamaq bacarıqlarını nümayiş etdirməklə müsbət nəticələr qazanmaq mümkündür.

• Məsələ həllinin mərhələlərini izah etmək bacarığı üzərində dayanmaq lazımdır. Məsələlər iki və ya çoxəməlli olduqda onun həllini izahetmə bacarığı sonralar daha çətin məsələləri anlamağa, həllin alternativ variantlarını axtarmağa dəstək olacaqdır. Məsələ həllinin belə təqdimatı şagirdlərdə gördükləri işi yekunlaşdırma, fikirlərini ümumiləşdirib yazma, məsələnin həlli alqoritmini sözlə təsvir etmə, inşa yazma bacarıqlarını inkişaf etdirir.

Bu tövsiyələr müəllimlər tərəfindən nəzərə alınarsa, müsbət nəticələr verə bilər.

**ədəbiyyat**


1. Истомина Н.Б. Методика обучения математике в начальных классах. Москва: Академия, 2000.
2. Бантова М.А. и. др. Методика преподавания математики в начальных классах, Москва: Академия, 2001.
3. Məmmədov T.Ə. İbtidai təhsildə riyaziyyatın tədrisi metodikası. Naxçıvan: Əcəmi, 2011.
4. I–IV sinilər üçün riyaziyyat dərslikləri.


**Трудности в решении математических задач и пути их отстранения**

**резюме**


Статья посвящена трудностьям в решении сложных математических задач и путям их отстранения. Автор разясняет этапы и методические приемы решения задач.


**Difficulties pupils meet with sum sollition and ways of liquidating them**

**summary**


The article is devoted to the difficulties in solving complex mathematical problems and ways of their removal. Author clarify the steps and methodical problem solving techniques.


# II SİNİFDƏ "TƏQVİM" MÖVZUSUNUN İNTERAKTİV YOLLA TƏDRİSİ


**Xavər Əlizadə,**
Bakı şəhəri, 132–134 nömrəli təhsil kompleksinin müəllimi,
ADPU-nun doktorantı



**açar sözlər:** təqvim, il, fəsil, həftə, gün
**ключевые слова:** календарь, год, сезон, месяц, неделя, день
**key words:** calendar, year, season, month, week, day




**sinif :** II sinif

**mövzu:** "Təqvim"

**standartlar:** 5.1.1.Məlumat toplamaq üçün suallar qoyur, onları cavablandırır və şərhlər verir.

**məqsədlər:** • Ayların adlarını və sırasını bilir.

• Bir ilin 12 ay olduğunu bilir.
• Bir ayın 30, 31 gün, fevral ayının 28, 29 gün olduğunu bilir.
• Verilmiş tarıxı təqvim üzərində qeyd edir.
• Təqvim üzərində müxtəlif məsələləri həll edir.
• Hadisələrin ardıcıllığını təqvimdə göstərə bilir.

**iş formaları**: əməkdaşlıq, cütlərlə iş, böyük və kiçik qruplarla iş;

**inteqrasiya**: Azərbaycan dili (1.1.1, 1.2.1, 2.1.3);

**təchizat**: ilin təqvimi (A4 və ya A3 formatda), bir ayın təqvimi, işçi vərəqləri, noutbuk, proyektor, II sinif riyaziyyat dərsliyi, təqvimə aid tapşırıqlar;

**metod və priyomlar:** müşahidə, müzakirə, modelləşdirmə, araşdırma, beyin həmləsi, təqdimat.

## DƏRSİN GEDİŞİ

**1. Sinfin təşkili (2 dəq.)** Sinfə daxil olub, salamlaşdıqdan sonra davamiyyəti yoxlayıram. Sinfi nəzərdən keçirir, lazım gələrsə, tərbiyəvi təsir göstərirəm. Şagirdləri 4 qrupa bölür, onlara üzərində 2–1, 3–1, 4–1, 5–1 misalları yazılmış kartoçkalar paylayıram. Stollar nömrələnir (1, 2, 3, 4). Qruplar "Yaz", "Yay", "Payız" və "Qış" adlandırılır. Onlara işçi vərəqləri, vatman kağızı, riyaziyyat dərsliyi və təqvimə aid tapşırıqlar verilir.

**2. Motivasiya (3 dəq.)** – Uєaqlar, bu gьn cizgi filminin qəhrəmanlarэ bizim qonapэməz olacaq. Gəlin əvvəl kompyuterdə onlara baxaq. (Ekrana Ələddin, Yasəmən və Cin



şək.1




şək.2

– Uşaqlar, onların geyimlərinə baxın. Bu bizim dövrün geyimləridir? Bəs vaxtı, zamanı biz nə ilə ölçürük? (Uşaqlar sadalayırlar). Uşaqlar, kim deyər, bir ildəki həftənin günlərini, aylarını, ayın tarixini bilmək üçün biz nədən istifadə edirik? (Ekrana "təqvim" yazılmış slayd gəlir.) (şək.2).

**Tədqiqat sualı:** Təqvim necə qurulur? Ondan necə istifadə edirlər?

**3. Tədqiqatın aparılması (10 dəq.).** Ekrana aprel ayının təqvimi gəlir və üzərində araşdırma aparılır. Uşaqlar suallara cavab verirlər (şək.3)




sək. 3



şək.4

– Uşaqlar, bəs il necə yaranır? (Cavablar dinlənilir.)

– Uşaqlar, əvvəllər texnika indiki kimi inkişaf etməmişdi, lakin səma cisimləri insanları ən qədim zamanlardan maraqlandırırdı. Mayya dövlətində il dekabrın 23-dən başlayır, 18 ay (hər biri 20 gün) olurdu. (şək.4)

Sonra qruplara tapşırıqlar yazılmış işçi vərəqləri paylanır və vaxt verilir.

### İşçi vərəqi №1. "Yaz" qrupu.

1. Ayları ardıcıllıqla xanalara düzün. (cəd.1)
2. Yaz fəslində hansı aylar var?
3. Bu aylarda olan tarixi günləri təqvimdə qeyd edin.
4. Qrup üzvlərindən kimin ad günü yaz fəslinə düşür? Həmin günü təqvimdə qeyd edin.




**cədvəl 1**

### İşçi vərəqi № 2. "Yay" qrupu .

1. Hər fəslə aid ayları araşdırıb, altından düzün. (cəd.2)
2. Yay fəslində hansı aylar var?
3. Bu aylarda olan tarixi günləri təqvimdə qeyd edin
4. Qrup üzvlərindən kimin ad günü yay fəslinə düşür? Həmin günü təqvimdə qeyd edin.




**cədvəl 2**

### İşçi vərəqi № 3. "Payız" qrupu.

1. Günlərin sayına görə ayları düzgün qruplaşdırın. (cəd. 3)
2. Payız fəslində hansı aylar var?
3. Bu aylarda olan tarixi günləri təqvimdə qeyd edin.
4. Qrup üzvlərindən kimin ad günü payız fəslinə düşür? Həmin günü təqvimdə qeyd edin.




**cədvəl 3**

### İşçi vərəqi № 4. "Qış" qrupu.

1. Fəsilləri ardıcıllıqla düzün. (cəd. 4)
2. Qış fəslində hansı aylar var?
3. Bu aylarda olan tarixi günləri təqvimdə qeyd edin.
4. Qrup üzvlərindən kimin ad günü qış fəslinə düşür? Həmin günü təqvimdə qeyd edin.

| | Yaz | Yay | Payız | Qış |
|---|---|---|---|---|
| 1 | | | | |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |

**cədvəl 4**

Qədim misirlilər üçün üfüqdə Sirius adlı ulduz parlayandan sonra, Nil çayında baş verən bir daşqından digər daşqına qədər keçən dövr 1 il sayılırdı. (şək.7)





**şək.7**

Qədim Misir əkinçiləri üçün əkin, səpin və məhsul yığımının nə vaxt başlanacağını bilmək çox vacib idi. Vaxtı hesablamaq hökmdarlar, tacirlər, sənətkarlara da lazım idi. Elə bununla əlaqədar təqvim meydana çıxdı. O, Ay təqvimi adlanırdı. Bu təqvimə görə Ayın Yer ətrafında dövr etməsi vaxtı Ayın görünməsindən təkrar görünməsinədək keçən vaxt (30 gecə) əsas vaxt ölçüsü kimi qəbul edilirdi. Ay üç on günlüyə, yaxud dörd həftəyə bölünürdü. İlin 12 aydan ibarət olduğu qəbul edilirdi. Hesablamanın düzgün olması üçün bir ay, adətən, 30 gecə-gündüz kimi götürülürdü.

İlk Ay təqvimi Misirdən assuriyalılara, sonra yəhudilərə keçir. Bu təqvim sonralar şərq ölkələrində də geniş yayılmışdır.

Misir təqviminə əsasən il 365 gün, hər dörd ildən bir 366 gün hesablanırdı. İl dörd fəslə, 12 aya bölünürdü. Fəsillərin hərəsi üç ay hesablanmış və bu bölgü, əsasən, təsərrüfatla əlaqələndirilmişdir. Azərbaycanda xalq arasında fəsillər belə səciyyələndirilirdi: "Yaz bitirər, yay yetirər, payız gətirər, qış ötürər".

Ərəblər ilin başlanğıcı üçün Məhəmməd peyğəmbərin (s.ə.s.) Məkkədən Mədinə şəhərinə köçməsi (hicrət) gününü (miladi tarixlə 622-ci il iyulun 16-sı) götürmüşlər. Müsəlman ölkələrində geniş yayılmış bu təqvim "hicri tarixi" adı ilə məşhurdur.

Müasir təqvimin ilkin forması Romada qəbul edilmişdir.

Hazırda biz Qriqorian təqvimindən istifadə edirik: 1 il 12 ay, 365/366 gün olur. 1 ay 30/31 gün, fevral isə 28/29 gün olur.

– Gəlin indi də fəsillərin və ayların düzülüş ardıcıllığı ilə tanış olaq. (şək. 8)



**4. Məlumatın mübadiləsi (5 dəq.)** Hər qrup öz işini təqdim edir. İşçi vərəqləri yazı taxtasından asılır. Sonra sinifdə idman dəqiqələri keçirilir.

**5. Məlumatın müzakirəsi (10 dəq.)**

– Uşaqlar, Yasəmənə kömək lazımdır. Ələddinin ad gününü hesablayıb, tapmaq lazımdır. (şək.9)




şək. 9

– 30 –17=13

– Afərin! Yasəmən sizə tapmaca da gətirib. (şək.10)




şək. 10

– Təqvim.

– Düzdür. Afərin! Gəlin bir tapmacanı da tapaq (şək.11).




şək. 11

– İlin ayları, günləri, gecə və gündüz.

– Afərin, uşaqlar. Gəlin indi də Cinin hazırladığı testlərə baxaq. (Uşaqlar göy, qırmızı, yaşıl kartları götürməklə verilmiş sualları cavablandırırlar.)

test 1




test 2




test 3




test 4




test 5




Dərsin bu mərhələsində alınan nəticələri ümumiləşdirmək, şagirdlərin düşüncələrini inkişaf etdirmək məqsədilə aşağıdakı sualları verirəm:

– Siz bu gün nə öyrəndiniz?
– Bu gün təqvimi öyrəndik.
– Bir il neçə aydır?
– Bir il on iki aydır
– Bir il neçə fəsildir?
– Bir il dörd fəsildir.
– İldə hansı fəsillər var?
– Yaz, yay, payız, qış fəsilləri var.
– Yaz fəslində hansı aylar var?
– Yaz fəslində mart, aprel və may ayları var.
– Bu aylarda olan tarixi günlər hansılardır?
– Bu aylarda olan tarixi günlər aşağıdakılardır: martın 8-i – Beynəlxalq Qadınlar günü; martın 20–24-ü – Novruz bayramı; martın 31-i – Azərbaycanlıların soyqırımı günü; aprelin 12-si – Kosmonavtika günü; mayın 9-u – faşist Almaniyası üzərində Qələbə günü; mayın 28-i – Respublika günü.
– Yay fəslində hansı aylar var?
– Yay fəslində iyun, iyul və avqust ayları var.
– Bu aylarda olan tarixi günlər hansılardır?

– Bu aylarda olan tarixi günlər aşağıdakılardır: iyunun 1-i – Uşaqları beynəlxalq müdafiə günü; iyunun 15-i – Milli Qurtuluş günü; iyunun 26-sı – Silahlı Qüvvələr günü; avqustun 1-i – Azərbaycan əlifbası və Azərbaycan dili günü.

– Payız fəslində hansı aylar var?

– Payız fəslində sentyabr, oktyabr və noyabr ayları var.

– Bu aylarda olan tarixi günlər hansılardır?

– Bu aylarda olan tarixi günlər aşağıdakılardır: sentyabrın 15-i – Bilik günü; sentyabrın 21-i – Beynəlxalq Sülh günü; oktyabrın 5-i – Müəllimlər günü; oktyabrın 18-i – Müstəqillik günü; noyabrın 12-si – Konstitusiya günü; noyabrın 17-si – Milli Dirçəliş günü.

– Qış fəslində hansı aylar var?

– Qış fəslində dekabr, yanvar və fevral ayları var.

– Bu aylarda olan tarixi günlər hansılardır?

– Bu aylarda olan tarixi günlər aşağıdakılardır: dekabrın 12-si – ulu öndər Heydər Əliyevin anım günü; dekabrın 31-i – Dünya azərbaycanlılarının həmrəyliyi günü; yanvarın 1-2-si – Yeni il bayramı; yanvarın 20-si – Ümumxalq hüzn günü; fevralın 21-i – Ana dili günü; fevralın 26-sı – Xocalı faciəsini anım günü.

– İndi də gəlin məsələ həll edək.

**Məsələ 1.** Ərzaq məhsulunun qutusu üzərində yazılmışdır: buraxılış tarixi: 2014-cü il, martın 1-i; son istifadə tarixi: 2014-cü il, aprelin 30-u. Ərzağın istifadə müddəti neçə aydır?

**Cavab:** (2 ay)

**Məsələ 2.** Aprel ayında neçə bazar ertəsi günü var? Neçə bazar günü var? Bu günlər ayın neçəsinə düşür?

**Cavab:** 4-ü, 7-si, 14-ü, 21-i, 28-i bazar ertəsi, 6-sı, 13-ü, 20-si, 27-si bazar günləridir.

**6. Ümumiləşdirmə və nəticə (5 dəq.).** Ümumiləşdirmək məqsədilə aşağıdakı tapşırıqları verirəm:

**Tapşırıq 1.** Günlərinin sayı 28, 29, 30 və 31 olan ayların adını cədvəlin uyğun xanasına yazın (cədvəl 5).

**cədvəl 5**

| 28–29 | 30 | 31 |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

Sonra aşağıdakı suallarla mövzunu yekunlaşdırıram:

– Təqvim nə üçün lazımdır?

– Təqvimin bizim həyatımızda böyük rolu var. Fəsillər aylarla, insanın yaşı illərlə, ərzaqların saxlanma müddəti illərlə, bəzən aylarla, bəzən də günlərlə ölçülür. Bunları bilməliyik ki, qutuların üzərində verilmiş tarixlərə baxıb, vaxtı keçmiş ərzaqlardan istifadənin həyat üçün təhlükəli olduğuna diqqət yetirək.

– Biz bu gün nələri öyrəndik?

–Verilmiş tarixi təqvimdə qeyd etməyi; təqvim üzrə müxtəlif məsələlər həll etməyi; bir ilin 12 ay olduğunu; hadisələrin ardıcıllığını təqvimdə göstərməyi; verilmiş cədvəl üzərində aylıq təqvim tərtib etməyi; bir ayın 28, 29, 30 və 31 gün olduğunu, ayların adlarını və sırasını sadalamağı; vaxtı keçmiş ərzaqlardan istifadə etməməyi öyrəndik.

**7. Yaradıcı tətbiqetmə (5 dəq.)** Aşağıdakı cədvəli doldurmaqla aprel ayının təqvimini hazırlayın.

| bazar ertəsi | çərşənbə axşamı | çərşənbə | cümə axşamı | cümə | şənbə | bazar |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**8. Qiymətləndirmə və refleksiya (3 dəq.).** Qiymətləndirmə üçün əvvəlcədən meyarlar cədvəli hazırlanıb, hamının gördüyü yerdən asılır. Dərsin bütün mərhələlərində işçi vərəqləri toplanır, qrupların işi təhlil edilərək meyarlar cədvəlinə əsasən qiymətləndirilir. Qiymətləndirmə "*" işarəsi ilə aparılır.

| meyarlar / qruplar | Hər fəslə aid ayların ardıcıllığını bilirlər. | Fəsillərin ardıcıllığını bilirlər. | Ayları günlərin sayına görə düzürlər. | Hər ayda olan tarixi günləri bilirlər. | Ərzağın istifadə müddətini müəyyən edə bilirlər. |
|---|---|---|---|---|---|
| "Yaz" | ***** | ***** | ***** | ***** | ***** |
| "Yay" | ***** | ***** | **** | ***** | ***** |
| "Payız" | ***** | ***** | ***** | **** | ***** |
| "Qış" | ***** | ***** | **** | ***** | **** |

**9. Ev tapşırığı ( 2 dəq.).** Kosmonavtika gününə neçə gün qaldığını müəyyən edin.


**Преподавание темы «Календарь» во 2-ом классе интерактивным методом**
**резюме**

В статье излагается преподавание темы «Календарь» во 2-ом классе. Приводится примеры из истории о создании календаря в Египте, в Риме, в арабских странах.

**Teaching about "Calendar" in the 2nd class interactive method**
**summary**

The article describes the teaching about the "Calendar" in the 2nd class. Citing examples from the history of the creation of the calendar in Egypt, in Rome, in the Arab countries.

# ŞAGİRDLƏRİN NİTQ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ÜNSİYYƏTİN ROLU

**Təranə İsgəndərova,**
Azərbaycan Müəllimlər İnstitutunun əlavə təhsil fakültəsinin metodisti

**Açar sözlər:** natiqlik sənəti, nitq mədəniyyəti, ünsiyyət bacarığı, elektron vasitələr
**ключевые слова:** ораторское искусство, культура речи, умение общаться, електронные средства
**key words:** the art public speaking, speech habits, communication ability, electron means



Ünsiyyət həyatımızın vacib tələbatıdır. Məkanından və zamanından asılı olmayaraq, doğulduğumuz gündən etibarən ünsiyyətdəyik. Bu prosesin inkişafında cəmiyyət və ətraf mühit böyük rol oynayır. Ünsiyyətsiz cəmiyyət mövcud olmadığı kimi, cəmiyyətsiz də ünsiyyətin mövcudluğunu təsəvvür etmək qeyri-mümkündür. Məhz ünsiyyət vasitəsilə doğmalarımızla, dostlarla, məktəb və iş yoldaşlarımızla, ictimai yerlərdə tanıdığımız və tanımadığımız adamlarla əlaqə yaradırıq. Beləliklə, özümüz də hiss etmədən, nitqimizi məhz bu proses əsasında formalaşdırırıq. Şagirdlərin düşünmək, mühakimə yaratmaq bacarıqlarının inkişaf etdirilməsində ünsiyyət mühüm amillərdən biridir. Düşünmək və nitq inkişafı prosesləri bir-biri ilə vəhdətdədir. Düşünmək bacarığı ünsiyyət prosesində şagirdləri yeni məlumatlara, biliklərə yiyələndirməklə yanaşı, təfəkkürə əsaslanan söz ehtiyatını artırır, təlim prosesində müəllimin onlara verdiyi sualları aydın cavablandırma qabiliyyətini formalaşdırır.

Ünsiyyətin ilkin sosial mərhələsi məktəbəqədər tərbiyə müəssisəsində qrupla, məktəbdə siniflə ünsiyyətdən başlayır. Sinif ünsiyyəti idraki inkişafa kömək edir və şagirdlərin bir sira fərdi qabiliyyətlərinin aşkar olunmasına təsir göstərir. Sinif ünsiyyəti, əsasən, suallar və müzakirələrlə təşkil olunur. Müzakirə prosesində şagirdlərin düşünmə bacarıqlarını müşahidə etmək, onları dinləmək və ifadəli nitqlərinin inkişafina istiqamət vermək, düzəlişlər etmək imkanı yaranır.

Sinif ünsiyyəti şagirdləri düşünməyə istiqamətləndirdiyindən onlarda fikir aydınlığı, fikri dəqiq ifadə etmə qabiliyyəti formalaşdırır. Sinif ünsiyyəti şagirdin nitqini ədəbi normalara uyğun olmayan dialektizmlərdən, məhəlli sözlərdən, ifadələrdən təmizləyir. Nitqin təmizliyi və zənginləşməsi üçün mənzum bədii əsərlərdən parçalar, çoxlu şeir, atalar sözləri oxumaq, əzbərləmək lazım gəlir.

Sinif ünsiyyəti şagirdlərdə başqalarını dinləmək qabiliyyətini formalaşdırır. Ümumiyyətlə, ünsiyyət prosesində başqalarının sözünü axıra qədər dinləmək özü bir mədəniyyətdir. Şagird bilməlidir ki, ünsiyyətdə olan şəxsin nitqinə yersiz müdaxilə hörmət və nəzakət çərçivəsinə sığışmır. O, tərəf-müqabilinin yanlış fikrinə münasibətini danışıq bitdikdən sonra bildirməklə öz mədəni səviyyəsini göstərmiş olur.

Dərs prosesində ünsiyyət zamanı şagirdlərə düşündüklərini ucadan söyləmək imkanı yaradılmalıdır. Ucadan ifadə şagirdləri daha səlis danışıq mədəniyyətinə yiyələndirir.

Etiraf edək ki, məktəblərimizdə ünsiyyət bacarığı olmayan həm kiçik, həm də böyük yaşlı şagirdlər var. Ümumiyyətlə, hər kəsin öz baxışlarını, fikirlərini dinləyicilər qarşısında sərbəst ifadə etməsində çətinliklər mövcuddur. Bu çətinliklər, ilk növbədə, natiqlik bacarığının təcrübə zəminində azlığından irəli gəlir. Buna görə də müəllim sinifdə ünsiyyət yaradarkən çalışmalıdır ki, şagird hər hansı mətni öz sözləri ilə ifadə edə bilsin, qrupla ünsiyyət prosesində həyəcandan azad olsun.

Ünsiyyətə girmək qabiliyyətini məhdudlaşdıran cəhətlərdən biri utancaqlıqdır. Çox zaman məhz utancaq şagirdlər öz fikirlərini aydın ifadə etməyi bacarmırlar. Belə şagirdləri tez-tez qrupdaxili ünsiyyətə cəlb etmək lazımdır. Onların müxtəlif sinifdənkənar tədbirlərdə, oyunlar-

da, müzakirələrdə iştirakını təmin etmək məsləhətdir. Qrup ünsiyyəti zamanı utancaq şagirdlər qısa müddətdə sosiallaşır, yoldaşları ilə sərbəst münasibət yarada bilirlər. Beləliklə, şagirdin davranış mədəniyyəti təkmilləşir, müəyyən müddətdən sonra onda utancaqlıqdan əsər-əlamət qalmır.

Qədim zamanlarda nitq mədəniyyəti natiqlik sənəti kimi anlaşılmışdır. Tarixi qaynaqlardan məlum olur ki, qədimdə məzmunlu, aydın, yığcam, təsirli nitqə malik olan insanlar cəmiyyət tərəfindən həmişə yüksək qiymətləndirilmişlər. Nitqin gözəlliyi və ona sahib olmağın yolları böyük şəxsiyyətlərin daim diqqət mərkəzində olmuş, onun məzmununa xüsusi diqqət yetirilmişdir. Antik dövrdə Romada nitq mədəniyyəti geniş inkişaf etmişdi. Kütləvi xalq bayramlarında natiqlik mədəniyyəti yarışları keçirilirdi. Öz dövrünün məşhur natiqi və siyasi xadimi olan Mark Tulli Siseron natiqlik sənəti haqqında "Burit", "Natiq", "Natiqlik haqqında" əsərlərini yazmışdır. Onun 58 dəfə məhkəmədə çıxışı və siyasi nitqi, fəlsəfəyə, ritorikaya, siyasətə aid 19 traktatı, 800 məktubu latın danışıq dilinin canlı abidəsi kimi saxlanılır.

Fikrin düzgün ifadəsi, məntiqi deyilişi insanların həyat fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir. Bu barədə atalar belə demişlər: "Söz var adamı göyə qaldırar, söz var, adamı göydən yerə endirər", "Dil gətirəni el gətirə bilməz" və s.

Uşaqları ilkin məktəb yaşlarından ünsiyyətli fəaliyyətə qoşmaq, onların nitq mədəniyyətini inkişaf etdirmək, şəxsiyyət kimi tərbiyə olunmalarının, formalaşmalarının əsası olmuşdur. Ümumimilli liderimiz Heydər Əliyev Azərbaycan gənclərinin birinci forumundakı çıxışında özünün natiqlik qabiliyyətinin və şəxsiyyətinin formalaşmasında məktəbin, uşaqlıq illərində Naxçıvanda bacarıq və qabiliyyətlərini formalaşdıran dərnəklərin, müəllimlərinin rolunu xüsusi qeyd etmişdir.

Beləliklə, bu qənaətə gəlirik ki, istər sinifdaxili, istərsə də məktəbdənkənar ünsiyyət şagirdləri sosiallaşdırmaqla yanaşı, onların nitq mədəniyyətinin inkişafına əsaslı təsir göstərir. Buna görə də məktəb öz şagirdlərini biliklərə yiyələndirməklə yanaşı, onların yüksək nitq mədəniyyətinə yiyələnmələri üçün ünsiyyətin bütün formalarından istifadə etməlidir.

### ədəbiyyat

1. Qurbanov V., Mustafayeva L., Əsgərova D. Nitq mədəniyyətinin əsasları. Bakı: Müəllim, 2015.
2. Abdullayev N., Məmmədov Z. Müəllimlərin nitq mədəniyyəti. Bakı, ADPU-nun nəşriyyatı, 2003.
3. Qurbanov V. Nitq mədəniyyəti və üslubiyyat. Bakı: Müəllim, 2012.

### Роль общения в развитии культуры речи учеников

**резюме**

В статье говорится о современных требованиях к культуре речи. Отмечается, что особая черта человеческого характера – это создать контакт между людми. Стимуляция характера контакта оценивается с аспекта современной технологии.

### The role of communication in the development of speech of pupils

**summary**

One of the characteristic features of modern human is to communicate. Modern problems of spuch habits are investigated in this article. Stimulation character to communication, the use of modern technology opportunities are appreciated

# İNKLÜZİV TƏHSİLİN YARANMASI VƏ İNKİŞAFI

**Fərid Süleymanov,**
ARTPİ-nin böyük elmi işçisi

**açar sözlər:** təhsil, inklüziv təhsil, inteqrasiya, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, paradiqma, sosial həyat

**ключевые слова:** образование, инклюзивное образование, интеграция, учение, дети с особыми потребностями, парадигма, социальная жизнь

**key words:** education, inclusive education, integration, children with special needs, paradigm, social life



XX əsrin sonu XXI əsrin əvvəllərində təhsildə köklü şəkildə paradiqma dəyişiklikləri baş verdi. Təhsilin fəlsəfi mahiyyətinə, məzmununa, müəllim-şagird münasibətlərinə, təlim-tərbiyə metodlarına, biliklərin qiymətləndirilməsinə və təhsilin digər elementlərinə yanaşmada kəskin dəyişikliklər baş verdi. Bu paradiqma dəyişiklikləri elm və texnologiyanın sürətli inkişafının məntiqi nəticəsi kimi ortaya çıxdı, çünki yeni texnoloji ixtiralar elmin özündə də bir sıra paradiqma dəyişikliklərinə gətirib çıxardı. Belə ki, maqnit-rezonans tomoqrafiyası vasitəsilə insan beyninin xəritəsinin hazırlanması, beynin real imkanlarının daha geniş aşkarlanması, kvant fizikasının yaranması, onun fəlsəfi əsaslarının formalaşması ilə insan, cəmiyyət və təbiətlə münasibətlərdə humanist dəyərlərin daha çox vurğulanması müşahidə olunmağa başladı. Mürəkkəb insan-cəmiyyət münasibətlərinin ən vacib komponentlərindən olan təhsil və təlimdə də labüd paradiqma dəyişiklikləri baş verdi.

Təhsil sahəsində ən inqilabi və nəzərəçarpan paradiqma dəyişikliklərindən biri xüsusi təhsildə özünü göstərdi. Bu dəyişikliklərə iki əsas amil səbəb oldu. Əsas amil İkinci Dünya Müharibəsindən sonra BMT-nin təsis olunması, irqindən, dinindən, milliyyətindən, fiziki və əqli qüsurlarından və digər amillərdən asılı olmayaraq, bütün insanların bərabər hüquqlara malik olmalarının dünyaya bəyan edilməsi oldu. Beləliklə, dünya miqyasında demokratik dəyərlərin əhəmiyyətinin vurğulanması bütün xidmət və fəaliyyət sahələrində baxış və cərəyanların insanda mərkəzləşməsinə "yaşıl işıq" yandırıldı. İnsanın fitrətinə hörmət və mərhəmət təşviq edən yeni baxışlar təhsildən də yan keçmədi. Beləliklə, inklüziv təhsilə gedən yolun əsası qoyuldu.

Digər amil isə *fiziki və əqli qüsur* anlayışına baxış bucağının dəyişməsi oldu. Belə ki, tarixən xüsusi təhsildə psixi-tibbi yanaşma üstünlük təşkil etmişdir. Bu yanaşma fərdin qüsurlarından törəyən maneələrin onun özündən qaynaqlandığını əsas götürür, onun ərtaf mühitlə münasibətində mühitin təklif etdiyi imkanlar, məhdudiyyətlər qətiyyən nəzərə alınmırdı. Bunun əksinə olaraq, xüsusi təhsildə yeni təmayül kimi peyda olan "təşkilati yanaşma" diqqəti insanın qüsurlarına deyil, mühitin imkanlarına yönəltdi. Başqa sözlə, yeni paradiqmaya əsasən xüsusi təhsilə yeni pedaqoji yanaşmada qüsurlu insan yox, qüsurlu mühitin olması prinsipi üstünlük təşkil etdi. Bu səbəbdən də inklüziv təhsilin elmi-metodiki əsaslarını hazırlayan pedaqoqlar təlim prosesinin müsbət nəticə verməsi üçün əsas diqqətin qüsurlara deyil, onların tələblərinə cavab verə bilən təlim materiallarından (əyani vəsaitlər, maddi-texniki vasitələr və s.) maksimum səmərəli istifadə olunmasına yönəltməyi tövsiyə edirlər. Bu prinsipdən doğan inklüziv təhsil modeli təhsildə yeni islahatların həyata keçirilməsini, təhsilə dair qanunlarda əlavə və düzəlişlərin edilməsini, pedaqoji kadr hazırlığında tələbələrə yeni bilik və bacarıqların aşılanmasını, təhsil müəssisələrinin maddi-texniki bazasının zənginləşdirilməsini və digər tədbirləri kompleks şəkildə həyata keçirilməsini sinif, məktəb və hətta dövlət səviyyəsində bir məqsəd kimi qarşıya

qoydu. İnklüziv təhsil həm də humanist dəyərləri özündə birləşdirdiyindən daha geniş vüsət almağa başladı.

İnklüziv təhsil ideyasına qədər də fiziki və əqli qüsurlu insanların təhsil tələbatı təmin edilirdi. Bunun üçün diaqnoz qoyulmuş uşaqlar imkan daxilində, əsasən, böyük şəhərlərdə müvafiq xüsusi təyinatlı məktəblərə cəlb olunurdular. Belə məktəblər indi də mövcuddur. Həmin məktəblərdə qüsurlu uşaqlara daha səriştəli kadrlar tərəfindən keyfiyyətli təhsil verilir, lakin təcrübə göstərir ki, xüsusi məktəblər insanın ən vacib ehtiyaclarından birini – sosiallaşmaq, cəmiyyətə inteqrasiya və adaptasiya olunmaq ehtiyacını təmin edə bilmir. Adətən, institutlaşmış şəkildə fəaliyyət göstərən xüsusi məktəblər burada təhsil alanları qapalı mühitə salır. Nəticədə itirən tək onlar deyil, bütün cəmiyyət olur, çünki cəmiyyətin tamlığı pozulur. Məhz bu nöqteyi-nəzərdən bütün uşaqların eyni məkanda birgə təhsil almalarını təmin edən inklüziv təhsil modeli uşaqları ayrı-seçkiliyə məruz qoyan ənənəvi təhsil modelindən daha faydalıdır.

İlkin mərhələdə inklüziv təhsil anlayışı yalnız xüsusi qayğıya ehtiyacı olan fiziki və əqli cəhətdən qüsurlu uşaqların ümumtəhsil məktəblərində təhsilə cəlb olunmalarını nəzərdə tuturdu, lakin həqiqət budur ki, təhsildən məhrum olan yalnız fiziki və əqli qüsurlu uşaqlar deyil. Dünyada bu risk qrupuna bir çox hallarda həm də kasıb və aztəminatlı ailələrin uşaqları, müəyyən radikal dini görüşləri, yaxud ciddi mühafizəkar adət-ənənələri olan ailələrin övladları da daxildir. Bu səbəbdən çox dərin tarixi kökləri olmasa da, inklüziv təhsil özünün müasir inkişaf mərhələsində sərhədlərini genişləndirərək təhsildən məhrum olan hər kəsin təhsilə cəlb edilməsi fikrini irəli sürməyə başladı. Bu proses YUNESKO-nun 1994-cü ildə qəbul etdiyi Salamanka bəyannaməsindən sonra geniş vüsət aldı.

Dünya ictimaiyyəti uşaqların irqindən, cinsindən, milliyyətindən, dinindən, əqli və fiziki imkanlarından, digər amillərdən asılı olmayaraq birmənalı surətdə təhsil almaq hüququna malik olduğunu qəbul edib. Bu bəyanatlar ümumdünya miqyaslı sənədlərdə öz əksini tapıb. BMT-nin "Əqli qüsurlu şəxslərin hüquqları haqqında" 1971-ci il tarixli Bəyannaməsi, "Əlillərin Hüquqları Haqqında" 1975-ci il tarixli Bəyannaməsi, YUNESKO-nun 1994-cü ildə qəbul etdiyi Salamanka bəyannaməsi və Fəaliyyət Çərçivəsi, 2000-ci ildə Dakarda keçirilmiş Dünya Təhsil Forumunda qəbul edilmiş Fəaliyyət Çərçivəsində "Hamı üçün Təhsil" adı altında qəbul edilmiş kollektiv öhdəliklərdə əlilliyi olan insanların təhsil hüquqlarının olması və onların təhsilə cəlb edilmələrinin vacibliyi vurğulanmışdır. BMT Baş Assambleyasının "Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə" (1993) Beynəlxalq Standart Qaydalarında, eləcə də Salamanka bəyannaməsində ibtidai, orta və ali təhsil pillələrində əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunmaları və onlar üçün bərabər imkanların təmini prinsipi qeyd edilir. Azərbaycanda isə daha çox fiziki və əqli qüsurlu uşaqlar təhsildən kənarda qaldıqlarından, bu məqalədə inklüziv təhsilin məhz bu aspektinə diqqət yetirilir.

1970-ci illərdən etibarən Avropa və Şimali Amerikada tətbiq olunmağa başlayan inklüziv təhsil sahəsində beynəlxalq təcrübə zənginləşmiş, yeni tendensiyalar yaranmışdır. Şübhəsiz, inklüziv təhsilin kökü xüsusi təhsilə dayanır. Bu səbəbdən də inklüziv təhsil xüsusi təhsilin bir forması kimi qəbul edilir. İnklüziv təhsili daha səmərəli təşkil etmək üçün xüsusi təhsilin uzun illər boyu formalaşmış zəngin təcrübəsindən istifadə olunur. Bəzi sivil ölkələrdə xüsusi və inklüziv təhsil arasında sıx əlaqə mövcuddur.

Ayrı-seçkiliyin bütün formalarına son qoymağı tələb edən humanist və demokratik təfəkkürlü insanlar fiziki və əqli qüsurları olan insanlara da ənənəvi münasibətin dəyişməsini, onlar üçün də bərabər imkanların yaradılmasını tələb etməyə başladılar. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təcrid edilmiş şəkildə təhsilə cəlbi onlara qarşı ögey münasibət kimi anlaşılmağa başladı. Buna görə əlilliyi olan uşaqların özləri, valideynləri, hüquq-müdafiə təşkilatlarının, vətəndaş cəmiyyətinin yekdil rəyi və tələbi ilə inklüziv təhsilə aparan prosesin əsası qoyuldu. Belə ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların normal uşaqlarla birgə eyni təhsil müəssisələrinin müxtəlif siniflərində təhsil ala biləcəkləri məktəblərin təşkili vüsət almağa başladı. Daha sonrakı mərhələdə xüsusi qayğıya ehtiyacı olan uşaqların müəyyən qismi təlim prosesində ümumi

siniflərdə normal uşaqlarla birgə təlimə cəlb olundular. Sonuncu mərhələdə isə tam şəkildə, fasiləsiz olaraq ümumi təlim prosesinə cəlb olunmağa başladılar ki, bu proses də inklüziv təhsil adlandırıldı. Hazırda qabaqcıl ölkələrdə tam inklüziv təhsillə yanaşı, xüsusi təhsil müəssisələrində də inteqrativ təlim formatında təhsil verilməkdədir.

Əsasən, ictimaiyyətin tələbi ilə yaranıb, təşəkkül tapan inklüziv təhsil başlanğıc mərhələdə pedaqoqları qismən narahat edirdi, çünki xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili daim təcrid olunmuş şəkildə aparılmış, mövcud nəzəriyyələr və təcrübə bu istiqamətdə inkişaf etmişdi. Xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil müəssisələrində təhsilinin səmərə verəcəyi bir çoxlarında şübhə doğururdu, lakin bir neçə onillikdən sonra inklüziv təhsilin nəticələrinə dair aparılmış tədqiqatlar bu şübhələri puça çıxardı. Tədqiqatların nəticələrinə görə, inklüziv təhsil təcrübəsi yalnız dar çərçivədə aparılan təlimin mahiyyətini, strategiyasını təkmilləşdirməklə kifayətlənməmiş, ümumtəhsil sisteminin mütərəqqi və humanist dəyərləri daha çox əxz etməsinə ciddi təkan vermişdir.

İnklüziv təhsil pedaqoji kadrların hazırlığı və müəllim fəaliyyəti qarşısında yeni tələblər qoydu. Müəllimlər daha geniş, rəngarəng spektrə malik müxtəlif qabiliyyət və bacarıqlara sahib olan uşaqlarla işləməlidirlər. Bu halda yeknəsəq təlim metodları istənilən nəticəni vermir, çünki əqli qüsurları, yaxud öyrənmə çətinliyi olan uşaqlar təlim materialını mənimsəmək üçün daha sadə izahlara, aydın nümayişlərə və bariz nümunələrə ehtiyac duyurlar. Düzdür, fərqli maraq və ehtiyacları, müxtəlif inkişaf səviyyələri olan onlarla təhsilalanın tələblərinə cavab vermək o qədər də asan deyil, lakin bu keşməkeşli proses müəllimlərin peşəkar kimi püxtələşmələrinə birbaşa təsir göstərən amildir. İnklüziya prosesində müəllim yalnız şablon metodlara qane olmur, öyrənənlərin hər birinin təlimdə fəal iştirakını təmin etmək məqsədilə həmin prosesə daha yaradıcı və innovativ yanaşmalı olur. Nəticədə isə hər iki tərəf – təhsilalan da, təhsilverən də prosesdən faydalanır.

İnklüziya eyni zamanda məktəbin bir müəssisə kimi yenidən təşkili və təkmilləşdirilməsi prosesinə də rəvac vermiş, xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil müəssisələrinə qədəm qoyduqları gündən sinif daxilində təcrid olunmuş şəkildə qalmalarına son qoymaq məqsədilə məktəblərin struktur və idarəetmə baxımından yeni formaya keçməsini zərurətə çevirmişdir. Əks halda, xüsusi qayğıya ehtiyacı olan uşaqlar təcridolunmanın fərqli bir formasına məruz qala, məktəbin sosial-mədəni həyatında iştirakdan məhrum ola bilərdilər. Bu isə inklüziyanın prinsiplərinə cavab vermirdi, çünki inklüziv təhsil nəzəriyyəsi xüsusi qayğıya ehtiyacı olan uşaqların keyfiyyətli təhsil almaları ilə yanaşı, onların cəmiyyət həyatında fəal iştirakını da nəzərdə tutur. Bu iki aparıcı prinsipin bərabər müstəvidə təmin olunması üçün dövlətin və məktəb rəhbərliyinin qarşısında duran vəzifələrdən biri məktəblərin infrastrukturunu və maddi-texniki bazasını zənginləşdirmək olmuşdur. Yalnız bundan sonra inklüziya ideyasının irəli sürdüyü, bir-birini tamamlayan iki prinsipi – xüsusi qayğıya ehtiyacı olan uşaqların keyfiyyətli təhsili və fəal sosial həyat təcrübəsində təzahürü əsas götürülmüşdür.

Qeyd etdiyimiz kimi, inklüziya ideyası təhsilə həm də sistem səviyyəsində təsir edə bilmişdir. Sivil ölkələrdə inklüziv təhsilin geniş tətbiqi, təhsil sistemində dərin kök salması məqsədilə kurikulumda, digər müvafiq qanun və qaydalarda inklüziv təhsilə dair müddəalar təsbit edilmişdir. Bu ölkələrdə inklüziv təhsilin bütün aspektləri, valideyn, müəllim və məktəbin vəzifələri, xüsusi qayğıya ehtiyacı olan uşaqların bacarıqlarının müəyyənləşdirilməsi, qiymətləndirilməsi, təlimin metod və strategiyaları, fərdi tədris planı, inklüziv təhsilin idarə olunması və s. məsələlər sənədlərdə öz əksini tapmışdır.

Nəhayət, inklüziv təhsil daha geniş çevrədə – cəmiyyət səviyyəsində əlilliyi olan şagirdlərə isti, mehriban münasibətin formalaşmasına təkan verdi. Əlilliyi olan uşaqlara qarşı stiqmatik münasibət və stereotiplər hər bir cəmiyyətdə mövcud olmuşdur, lakin inklüziya prosesi nəticəsində qüsurlu uşaqların cəmiyyətə inteqrasiyası vüsət almış, onların cəmiyyətin ayrılmaz bir parçasına çevrilmələrinə şərait yaradılmışdır. Nəticədə, onların aktual problemləri daim diqqət

mərkəzində olmuş və bu problemlərin həllinə dövlət qayğısı ilə yanaşı, vətəndaş cəmiyyəti də xüsusi diqqət yetirmişdir.

Dünya təcrübəsi göstərir ki, inklüziv təhsil təhsil sahəsində irəli sürülmüş ən humanist və mütərəqqi ideyalardan biridir. Bu baxımdan ölkəmizdə də inklüziv təhsilin tətbiqi üçün təşəbbüslərin göstərilməsi, inklüziyanın dövlət və cəmiyyət tərəfindən təşviq olunması sevindirici haldır.

**ədəbiyyat**

1. Qasımov S. Xüsusi təhsilin problemləri və inkişaf perspektivləri. Bakı: ADPU-nun nəşriyyatı, 2007.
2. Paşayev T., Dostuzadə D., Kərimova E., İmanova L. Korreksion pedaqogikanın müasir məsələləri. Bakı: ADPU-nun nəşriyyatı, 2012.
3. Corbett J. Supporting inclusive education. A connective pedagogy. London: Routledge Falmer, 2001.
4. Frederickson N.and Cline T. Special educational needs inclusion and diversity. A textbook. (2nd ed.) Buckingham : Open University Press, 2009.

**Формирование и развитие инклюзивного образования**

**резюме**

В статье рассказывается об истории и развитии инклюзивного образования. Отмечается, что в начале инклюзивного образования некоторые специалисты не были уверены в его эффективности. Несколько лет экспериментальных исследований показали, что инклюзивное образование имеет положительное влияние на образовательную политику и систему образования. Кроме того, инклюзивное образование поощряет социальную интеграцию и адаптацию детей с особыми потребностями.

**Formation and development of inclusive education**

**summary**

This article talks about development and current consequences of inclusive education. At the beginning of inclusive education process some people were suspicious about its effective results. However, after couple of decades empirical researches obviously indicated that inclusive education has contributed to the development of general education system as well as teaching methods, teachers' performance, and education policy. Moreover, inclusive education promoted social integration and adaptation of people with special needs into society.

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN TƏHSİLƏ İNTEQRASİYASI

**Vəfa Hüseynova,**
Azərbaycan Müəllimlər İnstitutunun metodisti,
vefa.hiseynova@mail.ru



**açar sözlər:** təhsil, inklüziv təhsil, təlim, xüsusi qayğıya ehtiyacı olan uşaqlar
**ключевые слова:** образование, инклюзивное образование, обучение, дети нуждающиеся в особой заботе
**key words:** education, incluzive education, training, children need special care

Xüsusi qayğıya ehtiyacı olan uşaqların tərbiyəsinə ailələrin erkən müdaxilə məsələləri çərçivəsində rolu illər boyu getdikcə artmışdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların yaşadıqları ekoloji şəraitlə bağlı müxtəlif nəzəriyyələr diqqəti cəlb etmiş və peşəkarlar erkən müdaxilə məsələsində ailələrlə işləməyin əhəmiyyətini başa düşmüşlər. Peşəkarların bu qənaətə gəlmələrinə valideynlərlə ənənəvi əlaqələrdən, dəyişən fəlsəfi, nəzəri fikirlərdən doğan narazılıq faktorları təsir etmişdir. İllər boyu erkən müdaxilədə valideynlərin rolu haqqında müxtəlif fikirlər bir-birini əvəz etmiş, çeşidli fəaliyyətlər «Ailəyə göstərilən xidmətlər» rubrikası altında əks olunmuşdur. Xidmətlər 2 əsas kateqoriyaya bölünür: güclü təhsil və ailənin dəstəklənməsi.

**Güclü təhsil.** Bir sıra xidmətlər diqqəti ev şəraitinin təhsilə təsir amilinin səviyyəcə gücləndirilməsi üzərinə yönəldib. Təhsilin gücləndirilməsinə yönəlmiş fəaliyyət evdə uşağın dərketmə, dil, sosial, hərəkət və şəraitə uyğunlaşma xüsusiyyətlərinin formalaşdırılması haqqında fikrə əsaslanır. İş prosesində bu mühitə valideyn – uşaq, ailənin digər üzvləri, eləcə də yaşlılar arasındakı qarşılıqlı münasibətlər, tədqiqat və stimullaşdırma üçün imkanlar, qonşular tərəfindən göstərilən təsir daxildir.

**Ailənin dəstəklənməsi.** Ailənin dəstəklənməsi üçün nəzərdə tutulmuş xidmətlər ehtiyaclardan asılı olaraq bir-birindən fərqlənir. 1980–1990-cı illərdə valideyn dəstək qrupları çox məşhur idi. Bu qruplar çərçivəsində oxşar problemlərlə üzləşən valideynlərin bir-biri ilə görüşüb, çətinlikləri, müvəffəqiyyətləri müzakirə etmələri, qarşılıqlı dəstəyin təmin edilməsi (Vandersman,1982) nəzərdə tutulurdu. Digər dəstək xidmətləri dəstədaxili görüşlər çərçivəsində valideynlər arasında informasiya mübadiləsi, problemin həlli və ya xidmət koordinasiyası qaynar informasiya xətlərinin, valideynlərlə birgə iş və keçid-planlaşdırma xidmətlərinin təşkili ilə məşğul olur.

- Ailənin dəstəklənməsi erkən müdaxilə fəaliyyətində ilkin məqsəddir. Uşağın qayğısına qalan hər bir kəs: erkən yaş dövrünün tərbiyəçiləri, müəllimlər, xüsusi təhsil müəllimləri, psixoloqlar, həkimlər – xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyən hər bir peşəkar bunu başa düşməli və qəbul etməlidir.
- Hər bir ailənin özünəməxsus mədəniyyəti, dəyərləri, vərdişləri, qüvvələri və xidməti ehtiyacları var. Azyaşlı uşaqlarla işləyən pedaqoqlar hər bir ailə üçün xidmətlərin fərdi olması fikri ilə razılaşırlar, lakin təcrübədə bunu həyata keçirmək həmişə mümkün olmur.
- Ailələr özlərinə və uşaqlarına təqdim olunan xidmətlərin xarakteri və dərəcəsini müəyyən etmək haqqına malik olmaqla yanaşı, bunun üçün məsuliyyət də daşıyırlar. Tarixən peşəkar pedaqoqlar müdaxilənin məqsədlərinin müəyyən edilməsində və bu məqsədlərə çatmaq üçün yolların seçilməsində mühüm rol oynamışlar. Tədqiqatlar, qanunvericilik aktları və valideynlərin rəyləri nəticəsində böyük bir dönüş əldə edildi. Hazırda erkən müdaxilə proqramları müəllifləri öz xidmətlərinə istehlakçı sifarişi kimi baxmırlar. Burada əsas məqsəd istehlakçının – xüsusi qayğıya ehtiyacı olan uşaqlar və onların ailələrinin ehtiyaclarının xüsusiyyətlərinə uyğun tərzdə cavab verməsindən ibarət olmalıdır. Belə dəyişikliyə 2 amil təsir göstərmişdir. **Birincisi,** ailə və müdaxilə hərəkatı valideynlərin bu xidmətlərin əsas istehlakçısı kimi tanınmasına nail olmaqdır. **İkinci amil** isə tədqiqat və kliniki təcrübələrə əsaslanmaqdır.
- Ailələrə uyğun xidmətlərin təqdimatı koordinasiya sisteminə əsaslanmalıdır. Xüsusi qayğıya ehtiyacı olan uşağın valideynlərinin, erkən müdaxilə xidmətlərinə cəlb edilmiş mütəxəssislərin üzərinə çoxsaylı müəssisələrlə xidmətlərin daha effektiv yolla əldə edilməsi kimi vacib problemlərin həlli düşür.
- Bugünkü qaydalara əsasən, xidmətlərin valideynlər üçün əldə olunması və aydınlaşdırılmasında sistem məsuliyyət daşıyır. Peşəkarlar ailənin ehtiyaclarına cavab verən xidmətlərin təşkili ilə əlaqədar birgə fəaliyyət göstərməlidirlər.

Ailəyə istiqamətlənmiş qayğı proqramın əsasını təşkil edir. Buna əsasən, sağlamlığı ilə bağlı xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında ailənin üstün rolu tanınır, ona hörmət edilir.

Yuxarıda qeyd olunan fikirlərlə hər hansı peşəkar razılaşmaya da bilər. Bu fikirlərin müasir düşüncələri əks etdirməsinə baxmayaraq, onlar yenə də nəzərdən keçirilməli və qiymətləndirilməlidir, çünki peşəkarlar və valideynlər xidmətlərin yeni növlərini sınaqdan keçirirlər. Onların münasibətlərində yeni məqamlar ortaya çıxır.

Erkən müdaxilə proqramları ailə xidməti komponentlərinə əlavə edildikdən sonra mütəxəssislər və valideynlər bu xidmətlərin ailələr üçün nə qədər dəyərli olması haqqında geniş müzakirələr keçirmişlər.

Bir vaxtlar belə hesab edilirdi ki, **autizm** xəstəliyinin meydana çıxmasına səbəb valideynlərin soyuq, laqeyd davranışı, yaxud kasıb ailələrdə valideynlərin uşaqların problemlərini həll edə bilməmələrindən, onlara qayğının azlığından irəli gəlir. Bu fikirlər

erkən müdaxilənin formaları anlayışına gətirib çıxardı. Müdaxilə valideynin düzgün olmayan davranışını uşağın xeyrinə dəyişmək üçün vasitə rolunu oynamalıdır. Əsas diqqət ailələr üçün xidmətlərin ailə üzvlərinin ehtiyac və arzularına uyğun, fərdi şəkildə erkən müdaxilə strukturunu qurmağa yönəldilir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilmələri Bakı, Mingəçevir, Sumqayıt və s. şəhərlərdə normal getsə də, rayonlarda, əsasən, ucqar dağ kəndlərində bu işin təşkilində çətinliklər mövcuddur. Rayonlarda, kəndlərdə bu sahədə təbliğatı gücləndirmək, valideynləri inandırmaq lazımdır ki, övladlarını məktəbə gətirsinlər. Bunun üçün ilk növbədə məktəb rəhbərləri təlimatlandırılmalıdırlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri ilə görüşlər keçirilməli, inklüziv təhsilin onların övladları üçün nə qədər əhəmiyyətli olduğu bildirilməlidir.

**ədəbiyyat**

1.Hüseynov Q., Sərəfxanova L., Məmmədova S., Mikayılova Ü., Kərimova E. İnklüziv təhsil (metodik vəsait). Bakı: İndiqo print haus, 2010.

2.Qasımov S., Kərimova E., Sultanova İ. və b. İnklüziv təhsil. Bakı: OK ofset, 2006.

3.Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi təhsil müəssisələrinin nizamnaməsi" haqqında 078 nömrəli qərarı . Bakı, 2002-ci il, may ayının 10-u.

4.Artvotər J., Baley D., Brudər M., Karta J., Elliot M. Xüsusi qayğıya möhtac uşaqların erkən yaş dövrü proqramlarına daxil edilməsi. Erkən yaş dövrü təhsili üzrə ali və orta ixtisas pedaqoji kollektivi üçün kurs.Vaşinqton, 1994 .

**Интеграция детей с особыми потребностями к образованию**

**резюме**

В статье рассказывается о привлечении к учебе детей особо нуждающихся в заботе. Отмечается, что это в основном зависит от родителей и учителей. Они должны проводить беседы с родителями и просвешать их.

**İntegration of children with special needs to education**

**summary**

The article tells about bringing to school children in need of special care. It is noted that this is largely dependent on their parents and teachers. They have to conduct interviews with parents and their prosveshat.

## MÜTƏFƏKKİRLƏR DEMİŞLƏR...

Bir yoxsul qürbətdə şah olsa əgər,
Hər axşam o "vətən" deyib ah çəkər.

***ƏSSAR TƏBRİZİ***

***

Ölümdən qorxmayan millətə ölüm yoxdur.

***Ş.M.XİYABANİ***

***

Vəfasız dost kölgə kimidir: işıqlı gündə səni izləyər, buludlu gündə gözdən itər.

***M. BEYLƏQANİ***

***

Müdrik şəxs vəzifəli adamlara möhtac olmaya bilər, lakin vəzifəli şəxslər müdrik adama möhtacdırlar.

***M. Ş. VAZEH***

# MƏKTƏBLİLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ DÖVLƏTİN GƏNCLƏR SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR.

**Nazilə Əliyeva,**
Azərbaycan Müəllimlər İnstitutunun metodisti

**açar sözlər:** gənc nəslin tərbiyəsi, vətənpərvərlik, humanizm, milli mentalitet, milli-mənəvi dəyərlər, bəşəri dəyərlər

**ключевые слова:** воспитание молодого поколения, патриотизм, гуманизм, национальный менталитет, национально-духовные ценности, общечеловеческие ценности

**key words:** education of the younger generation, patriotism, humanism, national mentality, national and spiritual values, universal values



Vətənpərvərlik tərbiyəsi uşaqlarda vətənə məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an vətənin və xalqın müdafiəsinə hazır olmaq hissinin formalaşması deməkdir. Bu baxımdan təhsil müəssisələrində təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir.

Vətənpərvərlik kompleks anlayış olmaqla, öz məzmununda hər hansı adamın doğulduğu, xalqın yaşadığı ərazini, oradakı ictimai və dövlət quruluşunu, doğma xalqı, təbii sərvətləri, doğma dili, mədəniyyəti, məişət və adət-ənənələrinin xüsusiyyətlərini özündə ehtiva edir.

Gəncliyin vətənpərvərlik tərbiyəsi sahəsindəki vəzifələri ümummilli lider Heydər Əliyevin müxtəlif çıxış və məruzələrində elmi-nəzəri cəhətdən işıqlandırılmışdır. O, milli tərbiyənin mühüm komponenti olan vətənpərvərlik tərbiyəsindən bəhs edərkən demişdir: "Vətənpərvərlik çox geniş məna daşıyır. Vətənpərvərlik təkcə o deyildir ki, gedib Vətəni silahla müdafiə edəsən. İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın".

Hər bir xalq məxsus olduğu torpaq, onun təbiəti haqqında tarixən maraqlı fikirlər söyləmiş, əfsanə və rəvayətlər yaratmış, dastanlar qoşmuşdur. Ana məhəbbətini duyan hər hansı şəxs üçün vətən məhəbbəti də eyni dərəcədə qiymətlidir. Təsadüfi deyil ki, xalq "vətən" sözünü "ana" sözü ilə eyniləşdirir, "ana vətən" ifadəsi işlədilir.

Azərbaycanın tarixi vətənpərvərlik və qəhrəmanlıq ənənələri ilə zəngindir. Azərbaycan xalqının görkəmli oğulları – cavanşirlər, babəklər, koroğlular, qaçaq nəbilər, nizamilər, füzulilər, nəsimilər, vazehlər, bakıxanovlar, mirzə fətəlilər və başqaları vətənə olan məhəbbətlərini qılınc və qələmlə ifadə etmişlər. Azərbaycanın böyük yazıçısı və ictimai xadimi A.A.Bakıxanov yazırdı : " Mən bu ölkədə doğulmağımla fəxr edirəm".

Dövlətin gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvərlik tərbiyəsi daim diqqət mərkəzindədir. Bu, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin fiziki, mənəvi, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin inkişafına, eləcə də müasir dünyada qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Azərbaycan ərazisinin 20 faizinin mənfur qonşumuz Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir.

Heç şübhəsiz, bu məsələdə ümumtəhsil məktəblərinin X–XI siniflərində tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" kursu mühüm rol oynayır. Belə ki, bu kurs öz məzmunu etibarilə şagirdlərin Azərbaycan Silahlı Qüvvələri haqqında məlumatları, hərbi nizamnamə qaydalarını mənimsəmələrini, ordu həyatı ilə tanışlığını, fiziki və psixoloji cəhətdən hərbi xidmətə hazırlanmalarını təmin edir. Bu, onlarda Azərbaycan Silahlı Qüvvələrində xidmətin müqəddəs borc və şərəf işi olmasına inamın yaradılmasını, vətənpərvərlik, əqidəlilik, cəsurluq, dözümlülük, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsini, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur.

Bəzən "Gənclərin çağırışaqədərki hazırlığı" fənninin daha aşağı siniflərdən tədris olunması ilə bağlı fikirlər irəli sürülür. Əslində, ümumtəhsil məktəblərində fənlərin hər birinin məhz hansı sinifdən tədris olunmağa başlanması şagirdlərin yaş, fizioloji, psixoloji və qavrama səviyyəsi nəzərə alınmaqla elmi-pedaqoji cəhətdən əsaslandırılaraq müəyyən edilir. Adından da göründüyü kimi, bu fənn şagirdlərin ordu sıralarında hərbi xidmətə çağırışadək hazırlığını təmin etməyə yönəldilib. Məktəblilərin vətənpərvərlik tərbiyəsini yalnız bir fənnin tədrisi ilə məhdudlaşdırmaq fikri yanlışdır. Aşağı siniflərdə vətənpərvərlik duyğularının aşılanması, uşaqların bu ruhda tərbiyəsi yalnız bir fənnin vəzifəsi deyildir. Bütün fənlərin, xüsusilə humanitar fənlərin tədrisində vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar vardır. Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət, elm və incəsənət xadimlərinin şəxsi nümunələri şagirdlər üçün əsl həyat, tərbiyə məktəbidir.

Azərbaycan Respublikasının milli qəhrəmanları, müharibə veteranları ilə təhsilalanların müntəzəm görüşləri keçirilir, məktəblilərə torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının həyatı və qəhrəmanlıqları barədə ətraflı məlumatlar verilir.

Təhsilalanların vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyəsinin əhəmiyyətini, eləcə də ilkin hərbi bilik, bacarıq və vərdişlərin gənclərin inkişafına böyük təsirini nəzərə alaraq, əlaqədar təşkilatlarla birlikdə ümumtəhsil məktəblərinin şagirdləri arasında respublika üzrə ənənəvi "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi-idman və turizm oyunları keçirilir. "Gənc xilasedici" beynəlxalq turniri, "Gənc xilasedici və yanğınsöndürən" respublika yarışı və "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda yaradıcılıq müsabiqələri təşkil olunur.

Təqdirəlayiq məqamlardan biri də odur ki, məktəblilərin əsgər həyatı ilə yaxından tanış olmalarını təmin etmək üçün onların sistemli şəkildə hərbi hissələrə ekskursiyaları nəzərdə tutulur. Əsas məqsəd şagirdləri hərbi hissələrdəki müasir silahlarla və hərbi texnika ilə tanış etmək, bu silahlardan istifadə qaydaları barədə məktəblilərə məlumat vermək və əsgəri xidmət barədə onların təsəvvürlərini genişləndirməkdən ibarətdir. Bir çox məktəblərdə şagirdlərin hərbi xidmətə başlayan əsgərlərin andiçmə mərasimlərində iştirakı da təşkil olunur.

Milli mənlik şüurunun formalaşması Vətənə, doğma diyara, yurda məhəbbət yaradır. Məktəblilərin iştirak etdikləri kütləvi tədbirlər, bədən tərbiyəsi və idman dərnəkləri, müxtəlif yarışlar onlarda belə bir əqidəni inkişaf etdirir ki, vətən müqəddəsdir. Məktəblilər dərk etməlidirlər ki, Azərbaycan xalqı özünün çox hiyləgər düşməninə – ermənilərə qarşı mübarizə aparır. Onların vətənpərvərlik tərbiyəsi xalqımızın qüdrətli, yenilməz hərəkatı ilə birləşib, tariximizin əzəmətli, unudulmaz, misilsiz qəhrəmanlıq səhifələrinin yaranmasına töhfə olmalıdır.

Qanlı 20 Yanvar gününün, 31 mart – Azərbaycanlıların soyqırımı, Xocalı soyqırımının anım günlərinin qeyd olunması kiçikyaşlı məktəblilərdə milli mənlik, milli ləyaqət, vətənpərvərlik tərbiyəsinə mühüm təsir göstərir.

2015-ci ildə alman faşizmi üzərində qələbənin 70 illiyi ilə əlaqədar keçirilən tədbirlərdən əsas məqsəd məktəblilərdə vətənpərvərlik, dövlət müstəqilliyinə, ərazi bütövlüyünə hörmət tərbiyə etməkdir. Torpaqlarının 20%-i işğal altında olan, müharibə şəraitində yaşayan bir ölkə üçün vətənpərvərlik tərbiyəsi ön planda olmalıdır.

Bu gün məktəblərimiz şagirdlərin vətənə məhəbbət ruhunda tərbiyə olunması sahəsində böyük işlər həyata keçirir və Vətənimizin gələcəyini, onun azadlığını, sərhədlərinin qorunub saxlanmasını təmin edə biləcək vətəndaşlar yetişdirir.


ədəbiyyat

1. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı:Təhsil, 2002.
2. Azərbaycan Respublikasının Təhsil Qanunu . Bakı, 2009-cu il, iyunun 19-u.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası . Bakı: 2013-cü il, oktyabrın 24-ü.
4. Ağayev M.N. Humanitar fənlərin tədrisi prosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi. Bakı: Müəllim, 2004.
5. Hüseynzadə R.İ. Tərbiyə işinin metodikası. Bakı, 2010.


**Воспитание патриотизма у школьников как один из важных направлений государственной политики молодежи**


**резюме**

В статье рассказывается о том, что главная цель в воспитании школьников развить в них чувства патриотизма и чувство любви к родине. История Азербайджана богата традициями патриотизма храбрости и героизма. Отмечается так же, что воспитание патриотизма одна из важных направлений в молодежной политике государства.


**Education of patriotism at the school as one of the important directions State Youth Policy**


**summary**

The article explains that the main objective in educating schoolchildren to develop in them a sense of patriotism and love for the homeland. The history of Azerbaijan is rich in traditions of patriotism, courage and heroism. It is noted also that the education of patriotism is one of the important directions of the state youth policy.


## *MARAQLIDIR...*

İnsanlar ağıllı heyvanlar haqqında danışanda quşlar ən axırda yada düşür. İngiltərədə kimisə "quşbeyin" adlandırmaq həmin şəxsin axmaq olduğu anlamına gəlir. Bundan başqa, nəyəsə "quşlar üçündür" demək həmin şeyin mənasız olduğunu bildirir, lakin bu ifadə tam doğru ola bilməz. Bəzi quşlar, xüsusilə qarğalar son dərəcə ağıllıdır. Aşkar olunmuşdur ki, qarğaların problem həlletmə qabiliyyəti 7 yaşlı uşağınkından daha yaxşıdır.

Alimlərin apardıqları təcrübələrin birində qarğanın üç mərhələli çətin bir problemi həll etdiyi məlum olmuşdur. Qarğaya kəndirdən asılmış qısa çubuq verilir. Əlavə olaraq uzun çubuq və həmin çubuğun ucundakı qutunun dibində bir tikə yemək verilir. Qarğa qısa çubuqdan uzun çubuğa çatmaq üçün, daha sonra uzun çubuqdan da qutunun dibindəki yeməyi götürmək üçün istifadə etdi.

Qarğalar nəinki alətlərdən istifadə edir, həmçinin alətlər düzəldir. Qarğaya düz məftil və borunun içində, əlçatmaz yerdə yemək verdilər. Qarğa yeməyi çıxartmaq üçün məftili əyərək qarmaq düzəltdi.

Daha bir maraqlı fakt qarğaların öz aralarında xüsusi dildən istifadə etmə ehtimalıdır. Vaşinqton universitetinin tədqiqatçıları təcrübə üçün qarğaları tutmağa səy göstərirdilər. Bir neçə cəhddən sonra alimlər qarğaları tutmağın çətinləşdiyini gördülər. Qarğalar onları tutan adamın sifətini yadda saxlayır və başqa qarğalara həmin insanın təhlükəli olduğunu çatdırırdılar. Bundan sonra alimlər qarğaları tutanda maska geyməyə başladılar.

Tezliklə qarğalar arasında maskalı insanın təhlükəli ola biləcəyi haqqında həyəcan yayıldı. Alimlər müşahidə etdilər ki, heç vaxt tutulmayan qarğalar da maskalılara qarşı eyni həyəcan siqnalını verirlər. Aylar keçdikdən sonra alimlər heç vaxt tutulmayan qarğaların 89 %-nin maska geyinən insanlara hücum etdiyinin şahidi oldular.

# ÜZEYİR ÖMRÜNÜN AKKORDLARI

**Kəklik Məmmədova,**
«Məktəbəqədər və ibtidai təhsil» jurnalının əməkdaşı
seher1960@ mail.ru



**açar sözlər:** dahi bəstəkar, musiqi, xalq musiqisi, klassik musiqi, bədii yaradıcılıq, publisistika, felyeton, satirik miniatürlər, ilk opera, muğam və təsniflər, musiqili komediya, orkestr üçün pyeslər, kantatalar, romanslar

**ключевые слова:** великий композитор, музыка, народная музыка, классическая музыка, художественная литература, публицистика, фельетон, сатирические миниатюры, первая опера, мугамы и теснифы, музыкальная комедия, пьесы для оркестра, кантаты, романсы

**key words:** the great composer, music, folk music, classical music, literature, publisistika, feuilleton, satirical skits, the first opera, mugham and tesnifs, musical comedy, pieces for orchestra, cantatas, romances

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci il, sentyabr ayının 18-də, Şuşa qəzasının Ağcabədi kəndində, kənd mirzəsi ailəsində anadan olmuşdur. Üzeyirin atası Əbdülhüseyn Molla Məhəmməd oğlu Hacıbəyov öz dövrünün ziyalı şəxslərindən idi. O, XIX əsrin tanınmış dövlət xadimi, Qarabağ xanlarının varisi, şairə Xurşidbanu Natəvanın mirzəsi olmuş, onun Ağcabədidəki malikanəsinə başçılıq etmişdir. Üzeyir valideynləri ilə Ağcabədidən Şuşaya köçdükdən sonra ilk təhsilini oradakı ikisinifli rus-Azərbaycan məktəbində almışdır.

Zəngin musiqi ənənələrinə malik olan Şuşa mühiti Üzeyirin musiqi tərbiyəsinə, taleyinə müstəsna təsir göstərmişdir. Onun ilk musiqi müəllimi Azərbaycan xalq musiqisinin gözəl bilicisi, dayısı Ağalar bəy Əliverdibəyov olmuşdur. O, 12 yaşında ikən, (1897–1898-ci illərdə) Ə.B.Haqverdiyevin rəhbərliyi və Cabbar Qaryağdı oğlunun ifası ilə Şuşada səhnələşdirilmiş «Məcnun Leylinin məzarı üstündə» səhnəciyində, xorda iştirak etmişdir. Göründüyü kimi, böyük musiqiyə gələn yol hələ uşaqlıq illərindən başlayırdı.

Ü.Hacıbəyov 1899–1904-cü illərdə Qori Seminariyasında təhsil almış, bu seminariya onun dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır. O, burada rus və Avropa musiqi klassiklərinin əsərlərini, skripkada, violençeldə, nəfəs alətlərində çalmağı öyrənmişdi. Seminariyanı bitirdikdən sonra Üzeyir Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin olundu.

Bir ildən sonra Bakıya gələn Üzeyir Bibiheybətdə, «Səadət» məktəbində («Mədrəseyi-Səadət», direktoru Ə.Hüseynzadə) dərs demişdir. 1907-ci ildə «Hesab məsələləri» dərsliyini, həmçinin «Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lügəti»ni nəşr etdirdi.

Ü.Hacıbəyov bədii yaradıcılığa publisistika ilə başlamış, «Molla Nəsrəddin» jurnalında, «Həyat», «İrşad», «Kaspi», «Tərəqqi», «Həqiqət», «İqbal», «Yeni İqbal» qəzetlərində «Filankəs», «Adı bəy, özü Filankəs», «Anaş Qurbağa», «Tısbağa», «Qatilov», «Cin», «Xoca Lələ», «Bızbıza», «Çoban» və s. kimi gizli imzalarla çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. O, həmin dövrdə N.V.Qoqolun «Şinel» povestini Azərbaycan dilinə tərcümə etmiş, bir sıra hekayələr («Ata və oğul», «Qarabağın keçmiş günləri», «Quyruqlu ulduz» və s.) yazmışdır.

Ü.Hacıbəyovun 1908-ci il, yanvarın 12-də Bakıda, H.Z.Tağıyevin teatrında səhnələşdirilən «Leyli və Məcnun» operası nəinki Azərbaycanda, həmçinin bütün Şərqdə opera sənə-

tinin əsasını qoydu. 23 yaşlı bəstəkar operanın librettosunu böyük Füzulinin eyniadlı poeması əsasında yazmışdı. Operanın musiqisi, əsasən, muğam və təsniflər üzərində qurulmuşdu.

Böyük bəstəkar az müddət ərzində «Şeyx Sənan» (1909), «Rüstəm və Söhrab» (1910), «Şah Abbas və Xurşid Banu», «Əsli və Kərəm» (1912), «Harun və Leyla» (1915) muğam-operalarını bəstələdi. O, bu operaların librettolarını xalq dastanları, rəvayətlər, Firdovsinin «Şahnamə» əsərinin motivləri əsasında yazmış və həmin operalarda «Leyli və Məcnun»un üslub xüsusiyyətlərini, sənət prinsiplərini davam etdirmişdir.

Ü.Hacıbəyovun dramaturgiyası Azərbaycan ədəbiyyatı tarixində mühüm yer tutur. Musiqili komediya janrının banisi olan Ü.Hacıbəyovun «Ər və arvad» (1909), «O olmasın, bu olsun» (1910), «Arşın mal alan» (1913) komediyaları tezliklə dünyada məşhurlaşır. Onun musiqi əsərləri ümumdünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil edilmişdir. «Arşın mal alan» musiqili komediyası alman, ingilis, ərəb, fars, Çin, Ukrayna, Belarus, polyak, gürcü və digər dillərə tərcümə edilmiş, dunyanın məşhur mədəniyyət mərkəzlərində tamaşaya qoyulmuşdur. 1937-ci ildə bu komediyanın motivləri əsasında ABŞ-da film çəkilmişdir.

1911-ci ildə gənc Üzeyir musiqi təhsilini artırmaq üçün Moskvaya gedir. O, filarmoniyada A.İlyinskinin musiqi kurslarında dərs almış, 1913-cü ildə Sankt-Peterburq konservatoriyasında oxumuşdur. Peterburq dövrü onun yaradıcılığında mühüm rol oynamışdır. («Arşın mal alan» musiqili komediyası məhz bu dövrün məhsuludur.)

XX əsrin 20-ci illəri Azərbaycan musiqisi tarixində «təşkilatçılıq» illəri kimi qeyd olunur. Bu təşkilati işlərin başında Ü.Hacıbəyov dururdu. O, 1921-ci ildə Bakıda azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini – Azərbaycan Dövlət Türk Musiqi Məktəbini (sonralar texnikum) yaratdı. Bu məktəbin ilk direktoru onun özü olmuşdur. Texnikum 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyası ilə birləşdirildi.

1926-cı ildən konservatoriyada işləyən Ü.Hacıbəyov ilk çoxsəsli Azərbaycan xor kollektivini yaratdı. Bu kollektiv tezliklə dağıldı, lakin 1936-cı ildə onun təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyası yanında yenidən təşkil olundu.



1931-ci ildə Ü.Hacıbəyov Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestrini təşkil etdi. 1937-ci il aprel ayının 30-da Azərbaycan Opera və Balet Teatrında tamaşaya qoyulan «Koroğlu» operası (Librettosu M.S.Ordubadi və H.İsmayılovundur.) Ü.Hacıbəyov yaradıcılığının zirvəsidir. Opera sənətinin incilərindən sayılan bu əsərdə bəstəkar klassik opera formasına riayət edərək kütləvi xor səhnələri, balet nömrələri, bitkin ariyalar, müxtəlif ansambllar, reçitativlər yaratmışdır. Operaya yazılmış uvertüra yüksək qiymətləndirilirdi. Libretto müəllifi M.S.Ordubadi yazırdı: «Bu operanın məzmunu və mündəricəsi Üzeyirin siyasi və ictimai varlığının güzgüsüdür». Bəstəkarın özü isə ««Leyli və Məcnun»dan «Koroğlu»ya qədər» məqaləsində qeyd edirdi: «Həm ilk, həm də hələlik axırıncı Azərbaycan operasının müəllifi olmaq şərəfi mənə nəsib olmuşdur. Beləliklə, «Leyli və Məcnun»dan «Koroğlu»ya qədər keçən yol təkcə Azərbaycan operasının 30 illik tarixi deyil, həm də mənim şəxsi yaradıcılıq yolumdur.»

H. Cavid öz təəssüratlarını belə ifadə edirdi: ««Koroğlu» operasında Azərbaycanın valehedici musiqi folkloru tamamlandırılmış, Avropa musiqi texnikası ilə uzlaşdırılmışdır. İlk dəfə orkestraya daxil edilən tar gözəl səs yaratmışdır».

Qeyd edək ki, orkestrə tarın daxil edilməsi həmin illərdə bu misilsiz milli musiqi alətimizə qarşı aparılan kampaniya fonunda çox cəsarətli bir addım idi.

Ü.Hacıbəyov Bakı konservatoriyasının prorektoru, sonra rektoru olmuşdur. O, 1945-ci ildə Azərbaycan SSR EA-nın İncəsənət İnstitutuna direktor təyin edilmişdir. Üzeyir Hacıbəyov SSRİ Ali Sovetinin iki çağırışının deputatı olmuş, Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik etmişdir.

Böyük Vətən Müharibəsi illərində Ü.Hacıbəyov vətənpərvər ruhlu mahnılar, orkestr üçün pyeslər, kantatalar bəstələmişdir. Onun bu dövrdə yaratdığı musiqi əsərləri içində N.Gəncəvinin qəzəllərinə bəstələdiyi «Sənsiz» və «Sevgili canan» romansları xüsusi yer tutur. Qələbə günü münasibətilə o, «Qələbə himni»ni yazmışdır.

Ü.Hacıbəyov həyatının son illərində «Firuzə» adlı opera üzərində işləmişdir. Yarımçıq qalmış bu operadan təkcə Firuzənin ariyası gəlib bizə çatmışdır. Üzeyir Hacıbəyov Azərbaycanın Dövlət Himninin musiqisinin müəllifidir.

Böyük bəstəkar 1948-ci il noyabr ayının 23-də, 63 yaşında Bakıda vəfat etmişdir.

Ü.Hacıbəyovun övladı olmamış, qardaşı Zülfüqarın oğlu Niyazini böyüdüb, ona tərbiyə-təhsil vermişdir. Niyazi Azərbaycan incəsənətinin görkəmli nümayəndələrindən biri, tanınmış dirijor kimi gərgin fəaliyyət göstərmişdir.

Ümummilli liderimiz H.Əliyevin təbirincə desək, "Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir". O, Azərbaycan musiqisi və incəsənətində köklü dönüş yaratmış dahi sənətkardır. Ü.Hacıbəyov dünyada elə nadir dühalardandır ki, həm musiqidə, həm ədəbi yaradıcılıqda, həm də publisistikada parlaq istedadı ilə şöhrət tapmışdır. Üzeyir Hacıbəyov «Koroğlu»dan başqa, bütün opera və operettalarının mətnini özü yazmışdır. Onun librettoları bədii keyfiyyətinə görə bitkin dram əsərləri kimi yaşayır.

Çoxları Ü.Hacıbəyovu yalnız dahi bəstəkar kimi tanımış, onun kamil bir yazıçı və publisist, öz şirin, duzlu, dərin ictimai məzmunlu felyetonları, səhnəcikləri, satirik publisist yazıları ilə «Molla Nəsrəddin» məktəbinin qüdrətli nümayəndələrindən biri kimi fəaliyyət göstərməsindən xəbərsiz olmuşlar. Respublika EA-sı tərəfindən çap olunmuş «Əsərləri» (dörd cilddə) meydana çıxandan sonra müasir oxucu Ü.Hacıbəyovun ədəbi fəaliyyəti, hərtərəfli yaradıcılığı haqqında geniş məlumat ala bilmişdir.

Ü.Hacıbəyov elə xoşbəxt dühalardandır ki, onun böyüklüyü, yaradıcılığının qloballığı, dünyəviliyi zaman keçdikcə daha aydın görünəcəkdir. Onun zəngin mədəni irsi dövlət tərəfindən qiymətləndirilmişdir: Lenin ordeni, · Qırmızı Əmək Bayrağı ordeni, müxtəlif medallar buna sübutdur. Onun adına küçələr salınmış, Şuşada və Bakıda ev-muzeyləri açılmış, heykəlləri qoyulmuşdur. 1982-ci ildə «Azərbaycanfilm» kinostudiyasında onun həyatı və yaradıcılığı haqqında 2 seriyalı «Uzun ömrün akkordları» (ssenari müəllifi və rejissoru Anar) bədii televiziya filmi çəkilmişdir.

Respublikamızda hər il Üzeyir bəyin anadan olduğu gün – sentyabr ayının 18-i «Musiqi günü» kimi qeyd edilir.

Anadan olmasının 100 illik yubileyi keçmiş SSRİ məkanında, YUNESKO-nun görkəmli şəxsiyyətlərin ildönümü və 1985-ci ilin mühüm hadisələri təqviminə əsasən 100, 110, 120 illik yubileyləri beynəlxalq miqyasda təntənə ilə qeyd olunmuşdur.

«Bəşəriyyət tarixində elə şəxsiyyətlər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa, hətta ümum insaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cürə adamlar nəinki sağlığında, öləndən sonra da camaata mənfəət veriblər.» – Ü.Hacıbəyovun bu sözlərini ilk növbədə onun özünə aid etmək olar.

Bu dahi insanın yaratdığı hər bir əsər onun o qədər də uzun olmayan ömrünün bir akkordu oldu.

**ədəbiyyat**


1. Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı: ASE Baş Redaksiyası, 1987.
2. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985.
3. Hacıbəyov Ü. Biblioqrafiya. Bakı, 2009.
4. «Üzeyir Hacıbəyov» (elektron dərs vəsati).

## FOLKLORŞÜNAS ŞAİR

**Məhəbbət Əliyeva,**
«Məktəbəqədər və ibtidai təhsil» jurnalının əməkdaşı



Kamil Araz (Məmmədov) 1955-ci ildə Naxçıvanın Culfa rayonunda anadan olmuşdur. Vaxtilə doğma Camaldın kəndindəki məktəbin ibtidai siniflərində dərs demiş Kamil Araz uzun müddət müəllimlikdən ayrılsa da, kiçikyaşlı məktəblilərə xidmət göstərmək, onlarda xalq yaradıcılığına məhəbbət tərbiyə etmək üçün folklorşünaslığa aid şeirlər, tapmacalar yazmışdır. Bu səpkidən olan əsərlər içərisində « Göydən üç alma düşdü» adlı şeirlər kitabçası uşaqlar üçün gözəl töhfədir.

Bu kitabda müəllif maraqlı məsələlərə toxunur.

«Qarabağ marşı» şerində oxuyuruq:

Qarabağ torpağında
Olduqca düşmən izi,
«Qalx ayağa!»– çağırır
Anamız Vətən bizi.

Bu torpaqda yaşamış
Mənim ulu əcdadım.
Mübarizlər yanında
Qoşa çəkilsin adın.

«Atamı çox sevirəm!» şeri uşaqlarda valideynlərə məhəbbət hissi aşılayır:

Atam gedəndə işə
Ardınca su səpirəm.
Qayıdanda həmişə
Qucaqlayıb öpürəm.

«Çiçək» şeri də maraqlıdır:

Toplayır Çiçək
Çəməndə çiçək.
Donunda çiçək,
Əlində çiçək.

Saçına Çiçək
Bir çiçək taxdı.
Gözəldir çəmən
Gül-çiçək vaxtı.

«Gecə də dincəlirmi?» şeri uşaqlar üçün maraqlıdır:

Gündüz günəş oyaqdır,
Axşam olur, gün batır.
Gündüz gecə dincəlir,
Gecə də gündüz yatır.

«Göydən üç alma düşdü» şeri uşaqların mənəviyyatının tərbiyəsinə kömək edir:

Bizi yığıb başına,
Nağıl söyləyir nənəm:
Cırtdan qayıdır evə…
Qalib gəlir o, divə.
Nağıl sona yetişir,
Göydən üç alma düşür.
Alma paylamaq ilə
Yekun vurur sözünə.
Nənəm alma paylayır,
Amma çatmır özünə.
Deyirəm mən anama:
–Hazır olsun çarpayım.
Bu gün tez yatım, barı
Nənəmə çatsın payım.

Kamil Araz 100-dən artıq orijinal tapmacaları ilə də şöhrət qazanıb. Onlardan bir neçəsini nəzərdən keçirək.

Bostanda topa bənzər
Əldən salma, amandır.
Yamyaşıldır qabığı
İçi qırmızı qandır.
*(qarpız)*

Sönməyən ocaq
Göydədir ancaq .
İstisi çoxdur,
Tüstüsü yoxdur.
*(günəş)*

Nə bulud, nə şaxta var,
Tarlaya qar yağıbdır.
Yaşıl kolların üstü
Ağappaq ağarıbdır.
*(pambıq)*

Hiss eləsən də,
Görünməz gözə.
Yağışı, qarı
O çırpar üzə.
*(külək)*

Soxulcanla tovlayır,
Hamı məni ovlayır.
*(balıq)*

Divardayam, qoldayam,
Mən həmişə yoldayam.
*(saat)*

Qış gələn kimi
Yadıma düşür.
Otururam mən,
Özü sürüşür .
*(xizək)*

İki dirəyin
Ortası dama.
Hamı onunla
Dırmaşır dama.
*(nərdivan)*

«U» ilə başlar,
«Z» ilə bitər.
Günəş doğmamış,
Gözümdən itər.
*(ulduz)*

Göydə uçur o,
Ancaq quş deyil.
Adam daşıyır,
İçi boş deyil.
*(təyyarə)*

İlanla yola getmir,
İynəsi pula getmir
*(kirpi)*

Toplamışam ilinən,
Dağıdıram dilinən.
*(bilik)*

Göründüyü kimi, bu tapmacalar uşaqları maraqlandırır, düşündürür, onların təfəkkürünü, nitqini inkişaf etdirir.
Biz şairdən hələ çox şey gözləyirik.